Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Orqanı

# QANUNÇULUQ

## HÜQUQ JURNALI

№ 05 may 2018





Ümummilli lider
Heydər Əliyev
95

Azərbaycan Xalq
Cümhuriyyəti
100

*Azərbaycanın tutduğu yol müstəqil Azərbaycan Respublikası, demokratik hüquqi cəmiyyət qurmaq yoludur!*

*Heydər ƏLİYEV,*
*Azərbaycan xalqının ümummilli lideri*



***Ölkəmizin hərtərəfli inkişafı üçün, demokratik, hüquqi dövlətin əsaslarının möhkəmlənməsi üçün məhkəmə-hüquq sisteminin təkmilləşməsi başlıca şərtdir***

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***



QANUNÇULUQ
HÜQUQ JURNALI
№ 05 MAY 2018

TƏSİSÇİ:
**Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi**

BAŞ REDAKTOR:
**Fikrət Məmmədov**

REDAKSİYA HEYƏTİ:
**Fuad Ələsgərov**
**Toğrul Musayev**
**Azər Cəfərov**
**Adil Əliyev**
**Faiq Qurbanov**
**Fuad Cavadov**
**Cavid Hüseynov**
**Elçin Xələfov**

BURAXILIŞA MƏSUL:
**Rasim Həsənov**

**(012) 539-76-75**

**Qaynar xətt**

Qeydiyyat tarixi: 18.04.2003,
Reyestr №-si: 439. İndeks 1032

“Qanunçuluq” jurnalı redaksiyasının kompüter mərkəzində yığılıb səhifələnmiş,
“Ədliyyə Nəşriyyat Evi” MMC-də çap olunmuşdur.
Ədliyyə Nəşriyyat Evi MMC-nin ünvanı: Xaqani küç., 14,
tel.: 598-26-77, 498-55-69

Bank rekvizitləri:
“Ədliyyə Nəşriyyat Evi” MMC
VÖEN 1700212121 H/h 384974 AZM 380701;

Azərbaycan Beynəlxalq Bankın Səbail filialı, kod 805551,
VÖEN 9900001881, M/h 0137010002031,
SWİFT/Bik İBAZAZ-2X.

# Bu sayımızda:

## RƏSMİ MƏLUMAT


Azərbaycan və Serbiya əlaqələri inkişaf edir (Serbiya Prezidenti Aleksandr Vuçiçin Azərbaycana rəsmi səfəri) ....................................5

Cənub Qaz Dəhlizinin rəsmi açılışı olub (Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılış mərasimində iştirak edib) ........................8




## HEYDƏR ƏLİYEV - 95


Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Fəxri xiyabanda ulu öndər Heydər Əliyevin məzarını ziyarət edib ..................................12

Ümummilli lider Heydər Əliyevin 95 illik yubileyinə həsr olunmuş təntənəli mərasim..........................................................14

Ulu öndər Heydər Əliyevin doğum gününə həsr olunan ağacəkmə aksiyası ..........................................................................17

Ümummilli lider Heydər Əliyevin 95 illik yubileyi ədliyyə orqanlarında geniş qeyd olunub ..............................................20

Fikrət Məmmədov. Ulu öndər Heydər Əliyevin irsi milli sərvətimizdir ..................................................23










## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ - 100


Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə ucaldılmış abidəni ziyarət ......................................................................30

Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi münasibətilə rəsmi qəbul .......................................................................31

Yubileyə həsr edilən təntənəli konsert ..................................................33

“Azərbaycan Ədliyyəsinin 100 illiyi (1918-2018)” Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar ”Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 24 aprel tarixli 1072-VQD nömrəli Qanunu ..........................................................................35

”Azərbaycan Ədliyyəsinin 100 illiyi (1918-2018)” Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar ”Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 24 aprel tarixli 1072-VQD nömrəli Qanununun tətbiqi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 10 may tarixli 55 nömrəli Fərmanı ..................37

Müstəqillik dövrünün ən böyük əfvi.........................................................38

Fikrət Məmmədov. Azərbaycan Xalq Cümhuriyyəti dövlətçilik tariximizin parlaq səhifələrindəndir ........................40

Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi münasibətilə ədliyyə orqanlarında tədbirlər keçirilib .................................................49










## PLENUM


Ali Məhkəmənin növbəti Plenumu keçirilib...........................................54




## ƏDLİYYƏ NAZİRLİYİNDƏ


Ədliyyə naziri Salyanda vətəndaşları qəbul edib ..................................57
Azərbaycan və Latviya arasında hüquqi əməkdaşlıq genişlənir ..........57
Rusiyalı notariuslar Azərbaycanın notariat sahəsindəki nailiyyətləri ilə tanış olublar ..................................................................59
Репортаж с поездки в Азербайджан *(Rusiyalı notariusların ölkəmizə səfərlərinə dair təəssüratları - rus dilində)* ...........................................60
BMT-nin İnsan Hüquqları Şurasının Universal Dövri İcmal mexanizmi çərçivəsində Azərbaycanın üçüncü milli məruzəsi dinlənilib ................62
Ədliyyə Nazirliyində görüş ...................................................................63
Ədliyyə orqanlarına qulluğa qəbulla bağlı növbəti test imtahanı keçirilib ................................................................64
Gənclər Penitensiar Xidmətə qulluğa qəbul olunublar ..........................65
Probasiya xidmətinin elektron monitorinq fəaliyyətinə dair təqdimat keçirilib ......................................................65
Vərəmlə mübarizədə Azərbaycanın müsbət təcrübəsi öyrənilir ............67








## YENİ QANUNLAR, FƏRMANLAR...


"İcra haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 3 aprel tarixli 1062-VQD nömrəli Qanunu ...........................................69
"Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 3 aprel tarixli 1065-VQD nömrəli Qanunu ...........................................69
"Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 24 aprel tarixli 1074-VQD nömrəli Qanunu........................................................70
"İcra haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 24 aprel tarixli 1080-VQD nömrəli Qanunu...................................................................71
"Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 1 may tarixli 1111-VQD nömrəli Qanunu ..............................71
"Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 1 may tarixli 1113-VQD nömrəli Qanunu ..............................72
"Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 1 may tarixli 1115-VQD nömrəli Qanunu ..............................73
"Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 1 may tarixli 1116-VQD nömrəli Qanunu .............................................74

# Azərbaycan və Serbiya əlaqələri inkişaf edir

## Serbiya Prezidenti Aleksandr Vuçiçin Azərbaycana rəsmi səfəri



**Mayın 21-22-də Serbiya Respublikasının Prezidenti Aleksandr Vuçiç Azərbaycan Respublikasına rəsmi səfərdə olub.**

Serbiya Prezidentinin rəsmi qarşılanma mərasimindən sonra iki ölkənin dövlət başçılarının təkbətək görüşü keçirilib. Görüşdə Azərbaycan ilə Serbiya arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi və digər sahələrdə uğurla inkişaf etdiyi vurğulanıb. Ölkələrimiz arasındakı əlaqələrin daha da genişləndirilməsi üçün yaxşı potensialın olduğu bildirilib. Serbiya Prezidenti Aleksandr Vuçiçin Azərbaycana rəsmi səfərinin ölkələrimiz arasında əməkdaşlığın inkişafına töhfə verəcəyi diqqətə çatdırılıb. Söhbət zamanı ikitərəfli münasibətlər və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Sonra görüş nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə davam etdirilib.

Prezident İlham Əliyev dost və strateji tərəfdaş olan ölkələrimiz arasında əməkdaşlıq münasibətlərinin uğurla inkişaf etdiyini vurğulayıb, iqtisadi, humanitar sahədə çox gözəl əlaqələrin olduğunu bildirib, energetika, nəqliyyat sahələrində daha fəal əməkdaşlıq üçün imkanların olduğunu söyləyib.

Serbiya Prezidenti Aleksandr Vuçiç Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə təbriklərini çatdırıb, Prezident İlham Əliyevin çox böyük səylə Azərbaycanın suverenliyini və müstəqilliyini qoruyub saxladığını və ölkəmizi firavanlıq yolu ilə apardığını qeyd edib, respublikamızın bütün ölkələrlə yaxşı münasibətlər qurduğunu, Serbiyanın da ikitərəfli əlaqələrə böyük önəm verdiyini vurğulayıb, əməkdaşlığın perspektivlərindən bəhs edib.

Görüşdən sonra Azərbaycan və Serbiya prezidentlərinin iştirakı ilə sənədlərin imzalanması mərasimi olub.

Mərasimdə "Azərbaycan Respublikası ilə Serbiya Respublikası arasında strateji tərəfdaşlıq üzrə Birgə Fəaliyyət Planı"nı Azərbaycan Respublikasının



**Azərbaycan və Serbiya prezidentlərinin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü**

Prezidenti İlham Əliyev və Serbiya Respublikasının Prezidenti Aleksandr Vuçiç imzalayıblar.

Həmçinin iki ölkənin hökumətləri arasında bitki karantini və mühafizəsi sahəsində əməkdaşlıq haqqında, beynəlxalq avtomobil daşımaları haqqında və hava əlaqələri haqqında sazişlər, Səhiyyə nazirlikləri arasında səhiyyə və tibb elmi sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanıb.

"Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi ilə Serbiya Respublikasının Ədliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında" Memorandumu Azərbaycanın ədliyyə naziri Fikrət Məmmədov və Serbiyanın ədliyyə naziri Nela Kuburoviç imzalayıblar. Ədliyyə nazirlikləri arasında ikitərəfli münasibətlərin inkişafında mühüm rol oynayan bu sənəd müxtəlif, o cümlədən qanunvericiliyin təkmilləşdirilməsi, e-ədliyyənin təşviqi, məhkəmə və penitensiar sistemin müasirləşdirilməsi, hüquqi yardıma dair təcrübə mübadiləsi, birgə tədris tədbirlərinin keçirilməsi və s. qarşılıqlı fəaliyyəti nəzərdə tutur.

Prezidentlər İlham Əliyev və Aleksandr Vuçiç mətbuata bəyanatlarla çıxış ediblər. Həmin gün dövlətimizin başçısının adından Serbiya Prezidentinin şərəfinə rəsmi ziyafət verilib.

Azərbaycan Prezidenti səfər zamanı keçirilən görüşlərin ölkələrimiz arasında xüsusi əməkdaşlıq formatı yaratdığını bildirib, dost və strateji tərəfdaş olan ölkələrimiz arasında bir neçə il öncə imzalanan strateji tərəfdaşlıq haqqında Bəyannamənin və bu səfər çərçivəsində imzalanan strateji tərəfdaşlıq üzrə Birgə Fəaliyyət Planının əhəmiyyətini vurğulayıb, ikitərəfli münasibətlərimizin çox güclü təməl üzərində qurulduğunu qeyd edib. Prezident İlham Əliyev bundan sonra da Azərbaycan ilə Serbiya arasında müxtəlif sahələr üzrə məsləhətləşmələrin davam etdiriləcəyinə əminliyini ifadə edib, ölkələrimizin qarşılıqlı hörmətə, dostluğa və əməkdaşlığa əsaslanan əlaqələrinin əhəmiyyətini vurğulayıb.

Serbiya Prezidenti Aleksandr Vuçiç yüksək qonaqpərvərliyə görə Prezident İlham Əliyevə təşəkkür edib, ölkələrimiz arasındakı münasibətlərin yüksək səviyyədə olduğunu, bu münasibətlərin qarşılıqlı inama və etimada söykəndiyini bildirib. Qeyd edib ki, ölkələrimiz arasında əməkdaşlığın daha da gücləndirilməsi üçün yaxşı imkanlar var. Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə



**Azərbaycan və Serbiya Ədliyyə nazirlikləri arasında əməkdaşlıq haqqında Memorandumun imzalanması**

həyata keçirilən möhtəşəm işlərin şahidi olduğunu deyən Aleksandr Vuçiç Azərbaycan ilə Serbiya arasında siyasi, iqtisadi, mədəni, humanitar və digər sahələrdə əlaqələrin dərinləşdirilməsi üçün münbit şəraitin yaranmasının əhəmiyyətini söyləyib.

Səfər zamanı Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədov və ölkəmizdə rəsmi səfərdə olan Serbiya Respublikasının Prezidenti Aleksandr Vuçiç birgə işçi nahar ediblər. Səmimi söhbət zamanı Azərbaycan ilə Serbiya arasında münasibətlərin, o cümlədən iqtisadi sahədə əməkdaşlığın perspektivləri haqqında fikir mübadiləsi aparılıb.

Mayın 22-də Serbiya Prezidenti Aleksandr Vuçiç Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri Heydər Əliyevin xatirəsini ehtiramla anıb, məzarı önünə əklil qoyub. Ali qonaq görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsini yad edib, məzarı üzərinə tər güllər düzüb. Serbiya Prezidenti Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının məzarlarını ziyarət edib, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.

Həmin gün Serbiyanın dövlət başçısı Milli Məclisdə olub, parlamentin iclas salonu, Heydər Əliyev Xatirə Zalı ilə tanış olub, Milli Məclisin sədri Oqtay Əsədov ilə görüşdə Azərbaycan-Serbiya əlaqələrinin inkişafından bir daha məmnunluq ifadə olunub, parlamentlərarası əlaqələrdən danışılıb.

Prezident Aleksandr Vuçiç qeyd edib ki, ölkəsi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində hər zaman Azərbaycanın haqlı mövqeyini, ölkəmizin ərazi bütövlüyünü və suverenliyini dəstəkləyəcək.

Səfər çərçivəsində Azərbaycan Dillər Universitetində Serb Dili və Mədəniyyəti Mərkəzinin açılışı, Serbiya Respublikasının Prezidenti Aleksandr Vuçiçə bu ali məktəbin fəxri doktoru diplomunun təqdim edilməsi mərasimləri olub. Həmçinin, Serbiya Prezidentinin iştirakı ilə Azərbaycan-Serbiya işgüzar görüşü keçirilib.

Ali qonaq Bakıda serb xalqının böyük oğlu, görkəmli alim Nikola Teslanın abidəsini də ziyarət edib, önünə gül dəstəsi qoyub.

Serbiya Respublikasının Prezidenti Aleksandr Vuçiçin Azərbaycan Respublikasına rəsmi səfəri mayın 22-də başa çatıb.

# Cənub Qaz Dəhlizinin rəsmi açılışı olub

## *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılış mərasimində iştirak edib*




**Mayın 29-da Səngəçal terminalında Cənub Qaz Dəhlizinin rəsmi açılış mərasimi keçirilib. Həmçinin XXV yubiley Beynəlxalq Neft və Qaz sərgisinin də açılışı olub, mərasim sərginin keçirildiyi Bakı Ekspo Mərkəzində canlı yayımlanıb.**

Tədbirdə rəsmi, siyasi və işgüzar dairələri təmsil edən çoxlu sayda xarici nümayəndələr iştirak ediblər.

Azərbaycan Prezidenti İlham Əliyev tədbirdə nitq söyləyib.

Dünyanın ən böyük neft-qaz terminalı olan Səngəçal terminalında Cənub Qaz Dəhlizinin rəsmi açılışının keçirilməsini çox əlamətdar və tarixi hadisə adlandıran dövlətimizin başçısı ölkəmizin təşəbbüskarı olduğu Cənub Qaz Dəhlizinin işə salınması ilə neft-qaz sənayesinin inkişafında yeni dövrün başlandığını vurğulayıb.

Prezident İlham Əliyev bildirib ki, ölkəmizin zəngin neft tarixi olsa da, bu resurslar uzun illər xalqımızın rifahına xidmət etməyib. Müstəqilliyin ilk illərində müşahidə olunan mürəkkəb vəziyyətin Azərbaycanı böyük təhlükələrlə üz-üzə qoyduğunu deyən Azərbaycan Prezidenti ulu öndər Heydər Əliyevin 1993-cü ildə xalqın tələbi ilə hakimiyyətə gəlməsindən sonra ölkəmizin inkişaf yoluna qədəm qoyduğunu bildirib. Qeyd edib ki, 1994-cü ildə dünyanın ən böyük neft yataqlarından olan "Azəri-Çıraq-Günəşli" neft yataqlarının işlənilməsi ilə bağlı "Əsrin kontraktı" imzalanıb və ötən il onun müddəti 2050-ci ilə qədər uzadılıb.

İkinci böyük kontraktın "Şahdəniz" qaz yatağı üzrə imzalandığını deyən dövlətimizin başçısı Azərbaycanın dünyaya özünü nəinki neft ölkəsi, həm də qaz ölkəsi kimi təqdim etdiyini, respublikamızın nəhəng nəql marşrutlarına sahib olduğunu vurğulayıb, Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum neft və qaz kəmərlərinin, həmçinin




"Cənub Qaz Dəhlizi" layihəsinin icrasına güclü təkan verən TANAP qaz kəmərinin tikintisinin tarixi hadisə olduğunu söyləyib.



Prezident İlham Əliyev icrasına 40 milyard dollardan çox sərmayə qoyulan Cənub Qaz Dəhlizinin həyata keçirilməsinin beynəlxalq əməkdaşlıq şəraitində mümkün olduğunu diqqətə çatdırıb, Amerika Birləşmiş Ştatları, Böyük Britaniya, Avropa İttifaqı və beynəlxalq maliyyə qurumlarına uğurlu əməkdaşlığa görə təşəkkür edib. Həmçinin regional əməkdaşlığa toxunaraq bu layihələrin icrasında üç ölkənin birgə səylərini, Azərbaycan, Gürcüstan və Türkiyənin çox güclü üçtərəfli regional əməkdaşlıq formatı yaratdığını vurğulayıb.

Cənub Qaz Dəhlizinin icrasında yeddi ölkənin - Azərbaycan, Gürcüstan, Türkiyə, Bolqarıstan, Yunanıstan, Albaniya və İtaliyanın iştirak etdiyini söyləyən Prezident İlham Əliyev üç Balkan ölkəsi - Bosniya və Herseqovina, Xorvatiya və Monteneqronun tərəfdaşlar kimi növbəti mərhələdə bu layihəyə qoşulacaqlarına əminliyini ifadə edib.

Həmçinin bildirib ki, Cənub Qaz Dəhlizi enerji təhlükəsizliyi məsələlərinin həllinə də kömək göstərəcək. Bu gün enerji təhlükəsizliyi ilə bağlı




məsələlər dünya gündəliyində çox ciddi dayanır və ölkələrin milli təhlükəsizliyi, o cümlədən enerji təhlükəsizliyindən böyük dərəcədə asılıdır. Cənub Qaz Dəhlizi enerji resurslarının şaxələndirilməsi işində də çox önəmli layihədir və hesab edirəm ki, əvəzolunmaz layihədir.

Azərbaycan qazının yeni mənbə olduğunu deyən dövlətimizin başçısı Cənub Qaz Dəhlizini yeni enerji damarı, Avropanın enerji təhlükəsizliyini yenidən tərtib edən layihə adlandırıb, ölkəmizin son 15 ildə sosial-iqtisadi inkişafından və uğurlarından bəhs edərək Azərbaycanın bu gün ayaqda möhkəm duran, müstəqil siyasət aparan və güclü iqtisadiyyata malik olan bir ölkə olduğunu vurğulayıb.

Sonra mərasimdə ABŞ Dövlət katibinin köməkçisinin enerji məsələləri üzrə müavini xanım Sandra Oudkirk, Böyük Britaniya Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolson çıxış ediblər.

Tədbirdə həmçinin Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri xanım Tereza Meyin və Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğanın müraciətləri səsləndirilib.

Mərasimdə Neft İxrac Edən Ölkələr Təşkilatının (OPEC) baş katibi Məhəmməd Barkindo, Qaz İxrac Edən Ölkələr Forumunun baş katibi Yuri Sentyurin və "BP Group Upstream"in baş icraçısı Bernard Luney də çıxış ediblər.

Sonra "Şahdəniz-2" və "Cənub Qaz Dəhlizi" layihələri haqqında videoçarx təqdim olunub.

Xəzərin Azərbaycan sektorunda yerləşən "Şahdəniz" yatağı bu vaxtadək Azərbaycanda aşkar edilmiş ən böyük qaz yatağıdır. Bu nəhəng yataq təxminən 860 kvadratkilometr ərazini əhatə edir və onun ilkin geoloji qaz ehtiyatı 1,2 trilyon kubmetrdir. "Şahdəniz 2" layihəsi çərçivəsində hasil olunacaq qaz Cənub Qaz Dəhlizi ilə ötürüləcək. Qaz təxminən 3500 kilometr uzunluğunda boru kəməri vasitəsilə Gürcüstan, Türkiyə, Yunanıstan, Bolqarıstan, Albaniya və İtaliya ərazisinə nəql olunacaq. Türkiyəyə ilk qaz bu il, Avropaya isə 2020-ci ildə çatacaq.

Daha sonra Prezident İlham Əliyev Cənub Qaz Dəhlizinin rəsmi açılışını edib. Bununla da Azərbaycan daha bir tarixi nailiyyətə imza atıb.

Sonda xatirə şəkilləri çəkdirilib.



# Heydər Əliyev

# 95



# Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Fəxri xiyabanda ulu öndər Heydər Əliyevin məzarını ziyarət edib

**Mayın 10-u müasir müstəqil Azərbaycanın memarı və qurucusu, görkəmli dövlət xadimi, xalqımızın dahi oğlu və ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü günüdür.**

Yaşarı dünyasından sonra xalqın yaddaşında qalmaq hər kəsə nəsib olmur. Xalq yalnız sevdiklərini yadda saxlayır və yaşadır. Heydər Əliyev misilsiz xidmətlərinə görə hər zaman Vətəni, xalqı üçün əziz olaraq qalacaq. Çünki bu dahi insan xalqımız qarşısındakı xidmətləri ilə hələ sağlığında ikən tarixin yaddaşında əbədiləşmiş böyük azərbaycanlıdır.

İstedadlı insanlar, böyük şəxsiyyətlər üçün zaman və məkan məhdudiyyəti yoxdur. Onlar heç bir zaman və məkana sığmırlar. Bu, əsrlərin sınağından çıxan və öz təsdiqini tapan bir fikirdir. Zaman onu da sübut edir ki, dünyanın tarixi böyük şəxsiyyətlərin tərcümeyi-halıdır. Heydər Əliyevin tərcümeyi-halı isə Azərbaycan tarixidir. Çünki onun hakimiyyətdə olduğu illərdə Azərbaycana bəxş etdiklərini tarix boyunca heç bir hakimiyyət sahibi etməyib. O, Azərbaycan salnaməsində təkrarolunmaz rəhbər, qüdrətli dövlət başçısı, fədakar insan kimi qalıb. Çünki o, Azərbaycanı dünyaya tanıdıb, dünyanı Azərbaycana gətirib. O, Azərbaycanı qorumaq üçün yaşayıb, Azərbaycanı yaşatmaq üçün qurub-yaradıb. Heydər Əliyevin parlaq dühası onu Azərbaycan xalqının ümummilli liderinə, üstəlik dünya siyasətinin nəhənglərindən birinə çevirib. Odur ki, Azərbaycan xalqı bu böyük övladı ilə haqlı olaraq da öyünür.

"Mənim həyat amalım yalnız bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mədəni inkişafına xidmət olub", - deyən Heydər Əliyev istər sovet dönəmində, istərsə də müstəqillik illərində qüdrəti və zəkası, böyük müdrikliyi və uzaqgörənliyi ilə Azərbaycanı dünya məmləkətləri sırasında layiqli yerə çıxarıb. O, keçmiş SSRİ-nin ən nüfuzlu





siyasətçilərindən biri idi. Bu səbəbdən də "Azərbaycan sənin üçün kiçikdir, sən ittifaqa lazımsan" deyə onu Moskvaya dəvət etdilər. Amma burada o, həm də onu gözü götürməyən məkrli qorbaçovların xəyanətinə tuş gəldi, Vətəninə döndü. Bu qayıdış isə daha möhtəşəm oldu. Ümidlə, inamla yolunu gözləyən xalqının arzusu ilə yenidən hakimiyyətə gəldi. Milyonları öz ətrafında, bir bayraq altında birləşdirə bildi. Sözünün qüdrəti ilə hər kəsi inandırdı. Əməlləri ilə sözünü gerçəyə çevirdi.

Azərbaycan dövlət quruculuğu prosesini sürətlə keçdi. Çünki ulu öndər Heydər Əliyevin yaratdığı təməl prinsiplər düzgün yerinə yetirilmişdi. Dahi siyasi xadimin xidmətləri sayəsində dövlətçilik, azərbaycançılıq, dünyəvilik, müasirlik kimi ideyalar cəmiyyətin dünyagörüşü sisteminin ayrılmaz hissəsinə çevrildi, müasir Azərbaycanın mövcudluğunun və inkişafının ideya əsasını təşkil etdi. Heydər Əliyev öz fəaliyyəti ilə Azərbaycanda demokratik cəmiyyətə keçid mexanizmini yaratdı, müstəqil və demokratik cəmiyyət formalaşdırmaq kimi tarixi missiyanın öhdəsindən uğurla gəldi. Ulu Öndər güclü dövlət, səmərəli iqtisadiyyat və azad insan amillərinə əsaslanan konsepsiyası ilə müstəqil Azərbaycanın tarixində qızıl səhifələr yazdı. Heydər Əliyevin quruculuq salnaməsi azərbaycanlıların həyatına birdəfəlik daxil oldu. Onun Azərbaycana rəhbərlik illəri milli intibah dövrü kimi əbədiləşdi.

Meydana silahsız gələn bu insan qüdrətli Azərbaycan Ordusu yaratdı, cəbhədə atəşkəsə nail oldu, iqtisadiyyatı dirçəltdi, ölkəmizdə böyük neft erasının əsasını qoydu. Azərbaycanın müasir

tarixində misilsiz işlərə imza atdı. Heydər Əliyev dövrü Azərbaycan tarixinin, mədəniyyətinin, elminin, təhsilinin qızıl dövrünə çevrildi. Türk dünyasının bu böyük oğlu güclü dövlətçilik məktəbi də yaratdı. Heydər Əliyev ən mürəkkəb ziddiyyətli tarixi proseslərin gərdişindən bacarıqla baş çıxaran, ən çətin vəziyyətlərdə belə təmkinini itirməyən və dünyadakı geosiyasi dəyişiklikləri realistcəsinə qiymətləndirib mənsub olduğu xalqın, ölkəsinin çıxarlarını praqmatik ağılla və təcrübəsi ilə dəqiqliklə hesablayan bir lider idi.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, ailə üzvləri, Ulu Öndərin doğmaları və yaxınları xalqımızın xilaskar oğlunun doğum günündə Fəxri xiyabanda Ümummilli Liderin məzarını ziyarət ediblər.

Prezident İlham Əliyev ulu öndər Heydər Əliyevin məzarı önünə əklil qoyub, xatirəsini ehtiramla anıb.

Azərbaycan Respublikasının dövlət himni səsləndikdən sonra dövlətimizin başçısı və ailə üzvləri Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirəsini yad edərək məzarı üzərinə gül dəstələri qoyublar. Görkəmli dövlət xadimi Əziz Əliyevin və tanınmış həkim-alim Tamerlan Əliyevin məzarları üzərinə də gül dəstələri düzülüb.

Ümummilli lider Heydər Əliyevin məzarının ziyarət edilməsi mərasimində Baş nazir Novruz Məmmədov, Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev, nazirlər, komitə və şirkət rəhbərləri, Milli Məclisin deputatları iştirak ediblər.

## Ümummilli lider Heydər Əliyevin 95 illik yubileyinə həsr olunmuş təntənəli mərasim

**Mayın 10-da Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 95 illik yubileyinə həsr olunmuş təntənəli mərasim keçirilib.**

Heydər Əliyev Mərkəzində keçirilən mərasimdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri iştirak ediblər.

Dövlətimizin başçısı mərasimdə nitq söyləyib. Heydər Əliyevin dahi şəxsiyyət, uzaqgörən lider, cəsarətli insan olduğunu, öz həyatını doğma xalqına həsr etdiyini söyləyən Prezident İlham Əliyev ən həlledici anlarda liderlik keyfiyyətləri, müdrikliyi, düşünülmüş siyasəti və cəsarətli addımları ilə Heydər Əliyevin xalqımızı böyük bəlalardan xilas etdiyini vurğulayıb.

Ölkəmizin başçısı bildirib ki, hələ sovet dövründə onun xidmətləri sayəsində Azərbaycan sovet məkanında ən qabaqcıl respublikalardan birinə çevrilib. Heydər Əliyev Moskvada yüksək





vəzifədə işlədiyi zamanlarda da Azərbaycanı unutmayıb.

1993-cü ildə xalqın tələbi ilə Ulu Öndərin ikinci dəfə hakimiyyətə gəlməsi ilə ölkəmiz inkişaf yoluna qədəm qoyub. Ölkəmiz üçün çox önəmli qərarlar qəbul edilib, siyasi, iqtisadi islahatlara start verilib, beynəlxalq aləmlə münasibətləri qura bilib. 1994-cü ildə iqtisadi inkişafımızda müstəsna rol oynayan "Əsrin kontraktı" imzalanıb, 1995-ci ildə müstəqil dövlətin Konstitusiyası qəbul edilib. 10 il ərzində Azərbaycanda dövlət quruculuğu işində çox böyük addımlar atılıb.

Prezident İlham Əliyev 2003-cü ildən başlayaraq Heydər Əliyev siyasətinin uğurla davam etdiyini, son 15 ildə ölkəmizin sabitliyinin tam təmin olunduğunu, xalq-iqtidar birliyinin möhkəmləndiyini qeyd edib, milli-mənəvi dəyərlərin yüksək səviyyədə qurulduğu Azərbaycanın dünyada millətlər və dinlərarası məkan kimi tanındığını, ölkəmizin beynəlxalq nüfuzunun artdığını vurğulayıb.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan dövlətimizin başçısı münaqişə ilə bağlı prinsipial mövqeyimizin dəyişməz olaraq qaldığını, onun yalnız beynəlxalq hüququn norma və prinsipləri əsasında həll olunmasının vacibliyini qeyd edib, xalqımızın torpağımızda ikinci erməni dövlətinin yaradılmasına heç vaxt imkan verməyəcəyini bildirib.

İqtisadi baxımdan son 15 ildə Azərbaycan qədər sürətli inkişaf edən ikinci ölkə olmadığını deyən Prezident İlham Əliyev ölkəmizin tarixi layihələr icra etdiyini, möhtəşəm enerji və nəqliyyat layihələrini reallaşdırdığını diqqətə çatdırıb. Dövlət başçısı Azərbaycan xalqını bir daha əmin edib ki, biz bundan sonra da həmişə inkişaf və tərəqqi yolu ilə gedəcəyik.

Sonra Heydər Əliyev Fondu tərəfindən təsis edilmiş "Qızıl çinar" beynəlxalq mükafatının 2018-ci il üzrə qalibləri elan olunub. Fondun prezidenti Mehriban Əliyeva milli musiqi mədəniyyətimizin inkişafı və təbliği, Azərbaycan dirijorluq məktəbi ənənələrinin yüksək səviyyədə davam etdirilməsi istiqamətində göstərdiyi böyük xidmətlərə görə Azərbaycan Respublikasının Xalq Artisti, Dövlət Mükafatı, "Şöhrət", "Şərəf" və "İstiqlal" ordenləri laureatı Rauf Abdullayevə, Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında mədəni əməkdaşlıq

və qarşılıqlı əlaqələrin möhkəmləndirilməsində, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında xüsusi xidmətlərinə görə Rusiyanın TASS informasiya agentliyinin baş direktorunun birinci müavini, Azərbaycan Respublikasının "Dostluq" və "Şöhrət" ordenləri ilə təltif olunmuş Mixail Qusmana, Azərbaycan kino sənətinin inkişafındakı böyük xidmətlərinə görə görkəmli kinorejissor və ssenarist, Azərbaycan Respublikasının Xalq Artisti, "Şöhrət" və "Şərəf" ordenli Eldar Quliyevə "Qızıl çinar" beynəlxalq mükafatını təqdim edib.



Mərasim geniş konsert proqramı ilə davam edib. Sonda xatirə şəkli çəkdirilib.

Tədbirdən sonra Heydər Əliyev Mərkəzinin binasının üzərində videokompozisiya nümayiş etdirilib.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin zəngin həyat yolunun səhifələrini vərəqləmək Azərbaycan tarixinin bütöv bir qərinəsinə nəzər salmaq deməkdir. Ulu öndər Heydər Əliyev millətin taleyi üçün misilsiz əhəmiyyət kəsb edən bütün fəaliyyət sahələrini həmişə diqqətdə saxlayıb. Onun ölkəyə rəhbərliyinin hər iki dövründə Azərbaycanın taleyi ilə bağlı olan bütün sahələr dövlət səviyyəsində layiqli dəyərini alıb. Bunu ulu öndər Heydər Əliyevin anadan olmasının 95 illiyi münasibətilə təntənəli mərasimin keçirildiyi Heydər Əliyev Mərkəzinin binasının üzərində nümayiş etdirilən videokompozisiyadan da görmək olurdu.

Bakının simvollarından biri, dünyanın modern memarlıq abidələrindən olan Heydər Əliyev Mərkəzinin binası üzərində nümayiş etdirilən kompozisiya müasir Azərbaycanın memarı və qurucusu, ulu öndər Heydər Əliyevin Azərbaycana bağlılığını, ölkəmizdəki tərəqqini və Ümummilli Liderə xalq məhəbbətini əks etdirirdi. "Xalq Heydər söyləyəcək" mahnısı ilə müşayiət olunan videoinstalyasiya saat 20-dən gecəyarıyadək davam edib.



# Ulu öndər Heydər Əliyevin doğum gününə həsr olunan ağacəkmə aksiyası

**Mayın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Qala-Türkan magistral avtomobil yolunun ətrafında salınan yaşıllıq sahəsində ulu öndər Heydər Əliyevin doğum gününə həsr olunmuş ağacəkmə aksiyasında iştirak ediblər.**





Dövlət başçısının tapşırıqlarına uyğun olaraq 2008-2018-ci illərdə ölkənin əsas magistral avtomobil yolları boyunca 4443 hektar sahədə salınan yaşıllıqlarda 5 milyon 436 min müxtəlif növ ağac və kol bitkiləri əkilib. Həmin ağacların əkildiyi sahələr damcılı suvarma sistemi ilə təchiz edilib. Əsasən zeytun, badam, nar, innab, püstə, qoz və fındıq ağaclarının əkilməsinə üstünlük verilib.

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri ərazidə ağac əkiblər. Aksiyada tinglik sahələrində kökübağlı şəraitdə yetişdirilən 7 minə yaxın ağac əkilib.

Ekologiyanın və ətraf mühitin mühafizəsi, ölkəmizin zəngin flora və faunasının qorunması, Bakının yaşıllıqlar şəhərinə çevrilməsi istiqamətində xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən bütün dövrlərdə çox böyük işlər görülüb. Ulu Öndər tərəfindən əsası qoyulan ənənəni bu gün Prezident İlham Əliyev uğurla davam etdirir. Əhalinin ekoloji cəhətdən təmiz su ilə təminatının yaxşılaşdırılması ilə bağlı ölkədə ciddi əməli işlər görülüb, milyonlarla ağac əkilib, yeni park və xiyabanlar salınıb. Bir vaxtlar neft tullantıları ilə çirklənən indiki "Ağ şəhər" və digər ərazilərdə həyata keçirilən mühüm layihələr nəticəsində neft çöküntüləri təmizlənib. Hazırda bu ərazilər paytaxtın yeni yaşayış və mədəniyyət komplekslərinə, müasir ekoloji layihələrə çevrilib.

Birinci xanım Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da ölkəmizdə yeni yaşıllıqların salınmasına və mövcud yaşıllıq sahələrinin qorunmasına xüsusi diqqət yetirir. Bu məsələdə Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü və dəstəyi ilə həyata keçirilən layihələrin də mühüm rolu var.



# XALQIN BÖYÜK OĞLU













# HÜQUQİ DÖVLƏTİN BANİSİ



# Ümummilli lider Heydər Əliyevin 95 illik yubileyi ədliyyə orqanlarında geniş qeyd olunub

## Fəxri xiyabanda ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət



**Mayın 10-u müasir müstəqil Azərbaycanın memarı və qurucusu, görkəmli dövlət xadimi, xalqımızın dahi oğlu və ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü günüdür.**

Ədliyyə işçiləri Ulu Öndərin doğum günündə Fəxri xiyabana gələrək ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət edib, abidəsi önünə gül dəstələri düzüb, əbədi ehtiramlarını bildiriblər.

Həmçinin, əbədiyaşar liderin Ədliyyə Nazirliyindəki büstü önünə tər çiçəklər qoyulub, əziz və işıqlı xatirəsi yad edilib.




## "Heydər Əliyev və Azərbaycan ədliyyəsi" mövzusunda elmi praktiki konfrans

**Müasir Azərbaycan dövlətinin memarı və qurucusu, ümummilli lider Heydər Əliyevin 95 illik yubileyi ədliyyə orqanlarında geniş qeyd edilib, silsilə tədbirlər həyata keçirilib.**

Mayın 7-də Ədliyyə Nazirliyinin təşkilatçılığı ilə Ədliyyə Akademiyasında "Heydər Əliyev və Azərbaycan ədliyyəsi" mövzusunda geniş elmi-praktiki konfrans keçirilib.

Tədbirdə ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri Fikrət Məmmədov, nazirliyin rəhbərliyi və məsul işçiləri, Məhkəmə-Hüquq Şurasının üzvləri, hakimlər, prokurorlar, vəkillər, elm və tədris müəssisələrinin nümayəndələri, alimlər, gənc hüquqşünaslar, vətəndaş cəmiyyətinin və media təmsilçiləri iştirak ediblər.

Konfransda ümummilli lider Heydər Əliyevin demokratik hüquqi dövlət quruculuğu naminə titanik fəaliyyətindən, müasir hüquq sisteminin formalaşması və inkişafında müstəsna rolundan bəhs






olunub, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə bu gün Heydər Əliyev siyasətinin uğurla davam etdirilməsi, Ulu Öndərin təməlini qoyduğu mütərəqqi ədliyyə və məhkəmə islahatlarının nailiyyətləri qeyd edilib.





















Ədliyyə naziri F.Məmmədov müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı, ümummilli lider Heydər Əliyevin respublikamıza rəhbərliyinin bütün dövrlərində Vətən və xalq qarşısında misilsiz xidmətləri, xilaskarlıq missiyası, zəngin dövlətçilik irsi barədə çıxış edib.

Bildirib ki, Ulu Öndər uzaqgörənliyi, müdrikliyi, qətiyyəti və dəmir iradəsi sayəsində xalqımızı müstəqilliyimizi yenidən itirmək təhlükəsindən xilas edərək ictimai-siyasi sabitliyi və qanunçuluğu bərqərar etmiş, ölkəmiz demokratik hüquqi dövlət quruculuğu yolunu seçərək bütün sahələrdə köklü mütərəqqi islahatlar aparılmışdır.

Müasir ədliyyə və məhkəmə sisteminin inkişafının bilavasitə Heydər Əliyevin adı ilə bağlı olduğunu vurğulayan nazir Heydər Əliyev dühası ilə ölkəmizdə məhkəmə, ədliyyə, prokurorluq və digər hüquq mühafizə fəaliyyətinin yenidən qurulduğunu və onların gələcək inkişafının təməlinin qoyulduğunu bildirib, bu sahədə islahatların möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirildiyini və qazanılmış nailiyyətləri qeyd edib. Nazir Azərbaycanın özü qədər əbədi olan bu fenomenal şəxsiyyətin şərəfli ömrünün və siyasi irsinin indiki və gələcək nəsillərə nümunə olduğunu bildirib, işıqlı xatirəsinin xalqımızın yaddaşında əbədi yaşayacağını söyləyib.

Konfransda ümummilli lider Heydər Əliyev tərəfindən ədliyyə orqanlarının, prokurorluq və vəkillik təsisatlarının müasir dövrün tələbləri səviyyəsində qurulması, müstəqil məhkəmə hakimiyyətinin formalaşdırılması və yerli demokratiyanın bərqərar olunması, məhkəmə ekspertizası fəaliyyətinin təkmilləşdirilməsi, hüquqşünas kadrların yetişdirilməsi ilə

bağlı aparılan islahatlara dair çıxışlar edilib, Ulu Öndərin insan hüquqlarının müdafiəsi sahəsində həyata keçirdiyi tədbirlər, gənclər siyasəti, vətəndaş cəmiyyətinin təşəkkülü və inkişafı və digər mövzular üzrə müzakirələr aparılıb.

Yubiley ərəfəsində, ədliyyə orqanlarında yığıncaqlar, dəyirmi masalar keçirilib, gənc əməkdaşlar nazirlikdə Heydər Əliyev muzeyi ilə tanış olub, ixtisasartırma kurslarında xüsusi mövzular tədris edilib. Eyni zamanda müxtəlif kütləvi idman yarışları, xeyriyyə tədbirləri, o cümlədən qanvermə aksiyası təşkil olunub, ədliyyə işçiləri və hakimlər tərəfindən mətbuatda çıxışlar edilib. Heydər Əliyevin 95 illik yubileyi münasibətilə xüsusi stend hazırlanıb, nazirliyin kinozalında Ulu Öndərin zəngin həyatından və titanik fəaliyyətindən bəhs edən filmlər nümayiş etdirilib.

## *Penitensiar xidmətdə tədbir*






**Mayın 9-da Ədliyyə Nazirliyi Penitensiar xidmətində ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü münasibətilə şəxsi heyətin xüsusi toplantısı keçirilib.**




Tədbir iştirakçıları Penitensiar xidmətin Tarix Muzeyində Heydər Əliyev guşəsində ümummilli liderin həyat və fəaliyyətini, onun müasir Azərbaycanın inkişafı uğrunda əldə etdiyi nailiyyətləri əks etdirən fotoşəkillərlə tanış olulbar.

Ədliyyə nazirinin müavini, Penitensiar xidmətin rəisi Ceyhun Həsənov ümummilli lider Heydər Əliyevin keçdiyi şərəfli ömür yolundan və siyasi fəaliyyətindən geniş söz açaraq, bu zəngin irsin təkcə xalqımız deyil, bütün bəşəriyyət üçün böyük töhfə olduğunu qeyd edib, Ulu Öndərin fəaliyyətinin bütün dövrlərində gördüyü misilsiz xidmətlərini vurğulayaraq, onun Azərbaycan xalqının yaddaşında əbədi yaşayacağı bildirilib.

Nazir müavini ümummilli liderin milli dövlətçilik ənənələrinin bu gün dövlətimizin başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini söyləyərək, Azərbaycanın ictimai-siyasi həyatının bütün sahələrində genişmiqyaslı dəyişikliklərin baş verdiyini, iqtisadi sabitlik və davamlı inkişafın təmin olunduğunu, ölkəmizdə mötəbər beynəlxalq tədbirlərin keçirildiyini qeyd edib.

Prezident İlham Əliyevin Heydər Əliyev siyasi kursuna sadiqliyini və onun ideyalarına dönməzliyini diqqətə çatdıran nazir müavini Penitensiar xidmətinin çoxminli kollektivinin də ulu öndərin müəyyənləşdirdiyi milli inkişaf strategiyasının həyata keçirilməsində öz öhdəsinə düşən vəzifələri layiqincə yerinə yetirməyə çalışdığını bildirib.

Toplantıda iştirak edən Yeni Azərbaycan Partiyasının Siyasi Şurasının üzvü, millət vəkili Musa Quliyev dahi şəxsiyyət Heydər Əliyevin çoxcəhətli fəaliyyətindən söz açaraq, dövlətimizin xarici siyasət strategiyasının müəyyənləşdirilməsində və həyata keçirilməsində Ulu Öndərin tarixi xidmətlərindən danışıb.

Qeyd olunub ki, xalqların və millətlərin taleyində, formalaşmasında, dünyadakı yerinin müəyyənləşdirilməsində tarixi şəxsiyyətlərin, dahi siyasətçilərin və müdrik dövlət başçılarının müstəsna rolu danılmazdır. Bəşəriyyətin yetirdiyi görkəmli dövlət xadimi Heydər Əliyev kimi nadir dühalar isə özləri bütöv bir salnamə, tarix yaratmağa qadir olurlar.

Vurğulanıb ki, Azərbayjan dövlətinin memarı və qurucusu ümummilli lider Heydər Əliyev hələ sovet hakimiyyəti illərində Azərbaycana rəhbərlik etdiyi dövrdə mühüm tarixi qərarları ilə ölkənin gələcək müstəqil həyata hazırlanması istiqamətində önəmli işlər görüb.

Musa Quliyev müstəqil Azərbaycanın bugünkü inkişafının ümummilli lider Heydər Əliyevin müəyyən etdiyi siyasi xəttin ardıcıl şəkildə davam etdirilməsinin nəticəsi olduğunu qeyd edib.

Sonda ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən film nümayiş etdirilib.

# Ulu öndər Heydər Əliyevin irsi milli sərvətimizdir

**Fikrət MƏMMƏDOV,**
**Azərbaycan Respublikasının ədliyyə naziri,**
**Məhkəmə-Hüquq Şurasının sədri**
**I dərəcəli dövlət ədliyyə müşaviri**

**Hər bir xalqın milli azadlıq və istiqlaliyyət tarixində xilaskar rolunu oynayan dahi insanlar var. Həmin dahilər öz qətiyyətləri ilə mənsub olduqları xalqı arxasınca aparıb, ən taleyüklü məqamlarda qalib rolu oynamışlar. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev müasir dünya tarixinə parlaq və silinməz iz qoymuş böyük şəxsiyyət, qeyri-adi zəka, fitri istedad sahibi, müdrik dövlət xadimi kimi düşmüşdür.**



Müstəsna xidmətləri ilə əbədilik qazanan ümummilli lider Heydər Əliyevin mənalı həyat yolu, zəngin və çoxşaxəli irsi tükənməz ibrət məktəbidir. Ötən illərə nəzər salarkən Azərbaycan xalqının öz müdrik liderinin rəhbərliyi ilə qazanmış olduğu mühüm tarixi nailiyyətlərin bir daha şahidi oluruq. İntibah və milli şüurun oyanışı Heydər Əliyevin hakimiyyətə gəlişi ilə başlamış, müstəqilliyimiz məhz onun sayəsində əbədi və dönməz xarakter almışdır. Ölkəmiz dünyada layiq olduğu mərtəbəyə Ulu Öndərin uzaqgörənliyi, müdrikliyi, qətiyyəti, dəmir iradəsi, zəngin dövlətçilik təcrübəsi sayəsində yüksələ bilmişdir.

Vətəni, xalqı qarşısında misilsiz xidmətlərinə görədir ki, bu gün ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illik yubileyi ölkəmizin hər yerində və onun hüdudlarından kənarda hər bir azərbaycanlının yüksək ehtiramı və dərin minnətdarlıq hissi ilə geniş qeyd olunur.

Heydər Əliyev keçdiyi böyük, mənalı və şərəfli həyat yolu zaman və məkan anlayışına sığmır. Ümummilli lider Heydər Əliyevin xarakterində və fəaliyyətində doğma xalqına bağlılıq və təəssübkeşlik hələ gənc yaşlarından özünü göstərirdi. Naxçıvanda sadə, zəhmətkeş bir azərbaycanlı ailəsində dünyaya göz açan bu böyük insan hələ gəncliyindən yüksək vəzifələr tutmuş, çiyinlərində böyük bir ölkənin yükünü daşımışdır.

Ulu Öndərin 1969-1982-ci illərdə Azərbaycanın rəhbəri kimi gördüyü işlər xalqın yaddaşında daim qalacaqdır.

Heydər Əliyevin ölkə rəhbərliyinə gəlişi keçmiş SSRİ-nin geridə qalmış respublikalarından biri sayılan Azərbaycanda həyat ritmini büsbütün dəyişdi, ölkədə görünməmiş canlanma və yüksəliş, tikinti-quruculuq işləri başlandı. Heydər Əliyevin gərgin fəaliyyəti nəticəsində iqtisadiyyat, sənaye və kənd təsərrüfatında, mədəniyyət və təhsil sahəsində böyük uğurlar əldə edildi, çoxsaylı sənaye müəssisələri, mədəniyyət və təhsil ocaqları, tibb müəssisələri inşa edildi, yeni yaşayış massivləri salındı, yollar tikildi, ucqar rayonlara qaz xətləri çəkildi.

Respublikamızın siyasi və mədəni həyatında böyük əhəmiyyəti olan saraylar, özünün görkəmi ilə şəhərə gözəllik verən neçə-neçə yaraşıqlı binalar, xalqımızın tarixində mühüm rol oynamış şəxslərə, ədəbiyyat və incəsənət xadimlərinə əzəmətli heykəllər ucaldıldı.

Məhz Heydər Əliyevin Azərbaycana rəhbərlik

etdiyi o illərdə bugünkü dövlət müstəqilliyimizin möhkəm təməli qoyuldu, milli ruh, azərbaycançılıq məfkurəsi yüksəlməyə başladı, kadr korpusunun milliləşdirilməsi istiqamətində qətiyyətli addımlar atıldı, hər il yüzlərlə gənc müxtəlif mühüm, o cümlədən hərbi ixtisaslara yiyələnmək üçün SSRİ-nin ən qabaqcıl ali məktəblərinə göndərildi, azərbaycanlılar mühüm dövlət vəzifələrinə irəli çəkildilər.

Özünün təkmil dövlətçilik konsepsiyasında ədalət, qanunçuluq və hüquq qaydalarının təminatına hər zaman üstünlük verən ümummilli lider Heydər Əliyev "ədaləti ədalətsizliklə bərpa etmək olmaz" - deyərək dövlət idarəçiliyində qanunun aliliyini, ədaləti əsas meyar kimi müəyyənləşdirdi, vəzifə səlahiyyətləri ilə bağlı cinayətlərə, rüşvətxorluğa qarşı barışmaz münasibət nümayiş etdirirdi.

Ədliyyə Nazirliyinin də yenidən yaradılması ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrə təsadüf edir. Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 27 oktyabr 1970-ci il tarixli qərarı ilə təsis edilmiş Ədliyyə Nazirliyi sabit fəaliyyət göstərməyə başladı, ədliyyə işi təkmilləşdirilərək onun gələcək inkişafı üçün zəmin yarandı.

1978-ci ildə Azərbaycan SSR Konstitusiyasının qəbul edilməsi və orada Azərbaycan dilinin dövlət dili kimi təsbit edilməsi ümummilli lider Heydər Əliyevin xidmətləridir. Totalitar sovet rejiminin hökm sürdüyü o dövrdə respublikanın ali qanununda xalqın mənəvi sərvətlərinin, xüsusən dilinin qorunub saxlanması və inkişaf etdirilməsi üçün hüquqi əsasların müəyyən edilməsi olduqca cəsarətli addım kimi dəyərləndirilir. Sovet milli siyasətinin tələbləri ilə tam bir ziddiyyət təşkil edən bu çətin vəzifənin öhdəsindən məhz Heydər Əliyev gələ bilmişdir. "Qoy ədalət zəfər çalsın!" - o zaman Heydər Əliyevin söylədiyi və bütün işlərinin mahiyyətini təşkil edən bu sözlər xalqın dilində şüara çevrildi.

Sonralar Heydər Əliyevin SSRİ kimi nəhəng dövlətin rəhbərliyində Siyasi Büronun üzvü, Nazirlər Soveti sədrinin birinci müavini kimi yüksək mövqe və vəzifə tutması qürurverici hadisə oldu. Heydər Əliyevin siyasi elitanın zirvəsinə yüksəlməsi Azərbaycan üçün xüsusilə böyük önəm kəsb etdi. Heydər Əliyev artan nüfuzundan və yüksək vəzifənin açdığı imkanlardan istifadə edərək, İttifaq büdcəsindən Azərbaycana daha çox vəsait ayrılmasına, bir sıra ittifaqmiqyaslı layihələrin Bakıya yönəldilməsinə nail oldu.

Dahi şəxsiyyət Heydər Əliyevin titanik fəaliyyəti nəticəsində Azərbaycan keçmiş ittifaqın qabaqcıl respublikalarından birinə çevrildi.

Lakin sonralar baş verən məlum hadisələr, Mixail Qorbaçovun siyasi hakimiyyətə gəldikdən sonra Heydər Əliyevə qarşı həsəd və qısqanclıq hisslərinin baş qaldırması, Azərbaycan əleyhinə çirkin niyyətlərin həyata keçirilməsi Ulu Öndərin vəzifədən uzaqlaşdırılması ilə nəticələndi.

Bundan istifadə edən ermənilər ölkəmizə qarşı uydurma ərazi iddiaları irəli sürərək əzəli torpağımız olan Dağlıq Qarabağ ətrafında hərbi təcavüzə başladı. Əgər o vaxt Heydər Əliyev Azərbaycanda və ya sovet rəhbərliyində olsaydı heç vaxt Dağlıq Qarabağ kimi problem meydana çıxmazdı. Heydər Əliyev amili, onun gücü, qüdrəti erməni millətçilərini belə təxribatlardan çəkindirirdi.

1990-cı ilin yanvarında keçmiş SSRİ rəhbərliyinin Azərbaycana qərəzli münasibətinin təzahürü olaraq, dinc etirazçılara qarşı Bakıya sovet ordusunun yeridilməsi misli görünməmiş qanlı faciə ilə nəticələndi. Əfsuslar olsun ki, həm SSRİ, həm də o vaxtkı Azərbaycan rəhbərliyi bu qanlı cinayətin bilavasitə təşkilatçısı və iştirakçısı olduğundan nəinki onun açılması və cinayətkarların məsuliyyətə cəlb olunmasından ötrü tədbirlər görmədi, əksinə bu vəhşiliyi gizlətmək üçün əlindən gələni etdi. 20 Yanvar faciəsindən bir gün sonra ulu öndər Heydər Əliyevin Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gedərək xalqımızın kədərini bölüşməsi və sovet hakimiyyətinin ölkəmizdə həyata keçirdiyi qanlı aksiyanı ifşa etməsi o dövrdə xalqımıza bir dayaq, bir təsəlli oldu. Xalq o ağır günlərdə köməksiz olmadığını hiss etdi.

Həmin dövrdə Azərbaycana qayıdışına ciddi maneələr törədilməsinə baxmayaraq Vətənin ağır günlərinə biganə qala bilməyən Heydər Əliyev Azərbaycana qayıtdı. Xalqın böyük ümid və ruh yüksəkliyi ilə gözlədiyi Heydər Əliyev Bakıdan Naxçıvana getdi və Ulu Öndər yekdilliklə Muxtar Respublikanın Ali Məclisinin sədri seçildi.

1991-1993-cü illərdə Naxçıvana rəhbərliyi dövründə Heydər Əliyev tərəfindən respublikamızın müstəqilliyi yolunda mühüm addımlar atıldı, Muxtar Respublikanın adından "sovet sosialist" sözləri çıxarıldı, üç rəngli milli bayrağımız ilk dəfə Naxçıvanda dövlət bayrağı kimi qəbul olundu, dünya azərbaycanlılarının həmrəyliyi günü müəyyən edildi, 20 yanvar faciəsinə siyasi qiymət

verildi, SSRİ-nin saxlanılması barədə referendumdan imtina edildi, mühüm imperiya strukturlarının fəaliyyəti dayandırıldı, ilk dəfə olaraq sovet qoşun hissələri Muxtar Respublikadan çıxarıldı.

Lakin 1991-ci ildə dövlət müstəqilliyini yenicə bərpa etmiş ölkəmiz onu itirmək təhlükəsi qarşısında qalmışdı. Ölkədə müharibə gedirdi. İdarəçilik isə yox dərəcəsində idi. Respublikada xaos, anarxiya hökm sürürdü.

Yeganə nicat yolunu Heydər Əliyevin qayıdışında görən Azərbaycan xalqı onu təkidlə hakimiyyətə çağırırdı. Xalqımız inanırdı ki, Azərbaycanı düşdüyü bu ağır vəziyyətdən, sosial-iqtisadi, hərbi-siyasi böhrandan yalnız Heydər Əliyev xilas edə bilər. Burada məşhur fransız mütəfəkkiri Volterin "dövlətin xilası üçün bir dahi insan kifayətdir" kəlamı yada düşür. Heydər Əliyev də Tanrının Azərbaycan xalqının taleyinə bəxş etdiyi bir qismət, zamanında millətinin xilaskarı olmaq üçün göndərilən bir dahi insan idi.

Heydər Əliyevin Azərbaycan xalqının yaddaşında qurucu və xilaskar dövlət xadimi, milli lider və xalq məhəbbətini qazanan öndər kimi əbədilik qazanması, heç də təsadüfi deyil.

Məhz Azərbaycan xalqının azadlığının, müstəqil dövlətçiliyinin müqəddəratının həll edildiyi ağır günlərdə xalqının iradəsinə tabe olan Heydər Əliyev ölkə rəhbərliyinə qayıdaraq müstəqil Azərbaycan Respublikasını, Azərbaycan xalqını, milli-azadlıq hərəkatında qazanılmış tarixi nailiyyətləri məhv olmaqdan xilas etmək kimi çox çətin və şərəfli bir missiyanı öz üzərinə götürdü. Bu, sözün əsil mənasında, "ömrümün qalan hissəsini də xalqıma bağışlayıram" deyib, meydana atılan böyük ürəkli Vətən oğlunun öz xalqı, öz Vətəni qarşısında misilsiz fədakarlığı idi. Heydər Əliyev öz siyasi bacarığını, çoxillik idarəçilik səriştəsini əsirgəmədən xalqının firavanlığı və dövlətinin müstəqilliyi yolunda yorulmadan xidmətdə olduğunu bir daha sübut etdi.

Ümummilli Lider daxili və xarici qüvvələrin dövlət çevrilişi, sui-qəsd və təxribat cəhdlərinə baxmayaraq öz həyatı, sağlamlığı bahasına gecəli-gündüzlü fədakar əməyi hesabına müstəqil Azərbaycan dövlətini qurdu və möhkəmlətdi. Heydər Əliyev demokratik hüquqi dövlət qurmaq, köklü islahatlar aparmaq üçün ilk növbədə ölkədə ictimai-siyasi sabitliyi, qanunçuluğu bərqərar etdi, cəmiyyətdə hökm sürən hərc-mərcliyə və özbaşınalığa birdəfəlik son qoydu. Ulu Öndərin 1994-cü ildə imzaladığı Cinayətkarlıqla mübarizəyə yönəlmiş tarixi fərmanı qanunçuluğun və hüquq qaydalarının möhkəmləndirilməsində əsaslı dönüş yaratdı.

Zəngin dövlətçilik təcrübəsinə malik olan böyük strateq Heydər Əliyev hüquqi dövlətin Azərbaycan modelini ilk milli Konstitusiyanı yaratmaqla gerçəkləşdirdi. Heydər Əliyevin müəllifi olduğu 1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul olunmuş Azərbaycan Respublikasının Konstitusiyasında hüquqi dövlətin bütün prinsipləri - qanunun aliliyi, insan hüquqlarının müdafiəsi, hakimiyyət bölgüsü, konstitusiya nəzarəti prinsipləri təsbit olundu, insan haqlarının təmini dövlətin ali məqsədi kimi bəyan edildi.

Ölkəmiz müstəqilliyini əldə etdikdən sonra SSRİ-dən miras qalmış, totalitar rejimə xarakterik olan hüquq sistemi və qanunlar sivil və demokratik cəmiyyət quruculuğuna, qanunun aliliyinin təmin olunmasına, insan hüquq və azadlıqlarının müdafiəsinə təminat vermirdi. Əsas Qanunun qəbulu ölkədə bütün sahələrdə, o cümlədən hüquqi islahatların hərtərəfli və kompleks həyata keçirilməsinə rəvac verdi və bu məqsədlə müxtəlif komissiyalar yaradıldı. Hüquq sisteminə müstəsna əhəmiyyət verən ümummilli lider Heydər Əliyev Hüquqi İslahat Komissiyasına rəhbərliyi bilavasitə öz üzərinə götürərək islahatların qısa müddətdə və mütəşəkkil aparılmasını təmin etdi.

Ulu Öndər prokurorluq orqanlarının rəhbər işçiləri ilə 2000-ci ilin aprelində keçirdiyi görüşdə hüquqi islahatlarla bağlı deyirdi: "Bu islahatları ona görə aparmırıq ki, kimsə bizə deyir, kimsə bunu bizdən tələb edir. Biz özümüz anlamalıyıq ki, "hüquqi, demokratik dövlət qururuq" elan edən prezident gərək onu təmin etsin. Bunu təmin etmək də qanunlarla ola bilər".

Gərgin fəaliyyət nəticəsində ölkəmizin bu günü və gələcəyi naminə son dərəcə vacib və əhəmiyyətli, habelə hüquq sisteminin mahiyyətini müəyyən edən tam yeni mütərəqqi qanunlar, o cümlədən "Konstitusiya Məhkəməsi haqqında", "Məhkəmələr və hakimlər haqqında", "Prokurorluq haqqında", "Polis haqqında", "Əməliyyat-axtarış fəaliyyəti haqqında", "Vəkillər və vəkillik fəaliyyəti haqqında" və digər qanunlar, əvvəlkilərdən prinsipcə köklü surətdə fərqlənən Mülki və Mülki-Prosessual, Cinayət və Cinayət-Prosessual, Cəzaların İcrası və s. məcəllələr qəbul edildi. Bu qanunvericilik aktları beynəlxalq səviyyəli

mütəxəssislər tərəfindən ekspertizadan keçirilməklə yüksək dəyərləndirildi.

1996-cı və 1999-cu illərdə əsassız yoxlamaların və sahibkarlığın inkişafı sahəsində süni maneələrin aradan qaldırılması haqqında dövlət başçısı tərəfindən imzalanmış fərmanlar ölkə iqtisadiyyatının inkişafında mühüm rol oynadı.

Eyni zamanda, ölkəmizdə siyasi partiyaların, ictimai təşkilatların azad fəaliyyəti, senzuranın aradan qaldırılması, yüzlərlə mətbuat orqanının sərbəst nəşr olunması, özəl radio və televiziya kanallarının yayımlanması siyasi plüralizmin, azad fikrin, demokratiyanın və vətəndaş cəmiyyətinin inkişafına böyük təkan verdi.

İnsan haqlarının etibarlı qorunması dövlətin prioriteti kimi müəyyən edilərək respublikamız insan hüquq və azadlıqlarının təminatı sahəsində bütün əsas beynəlxalq konvensiyalara qoşuldu, 1993-cü ildən ölüm cəzasının icrasına veto qoyuldu, 1998-ci ildə isə Şərqdə ilk dəfə olaraq Azərbaycanda bu cəza növü tamamilə ləğv edildi, əfv və amnistiya institutları geniş tətbiq edilməyə başlandı.

Ölkəmizdə insan haqlarının müdafiəsinə dair mühüm normativ aktlar qəbul olundu, bu sahədə xüsusi Dövlət Proqramı hazırlanaraq həyata keçirilməyə başlandı və İnsan hüquqları üzrə müvəkkil (Ombudsman) institutu yaradıldı.

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə hüquqi dövlət quruculuğu prosesi çərçivəsində ədliyyə orqanlarında əsaslı islahatlar aparıldı, ədliyyə sisteminin hərtərəfli inkişafı üzrə tarixi əhəmiyyətli qərarlar qəbul olundu, bu orqanların fəaliyyətində köklü mütərəqqi dəyişikliklərə başlanıldı.

İlk növbədə penitensiar müəssisələrin Daxili İşlər Nazirliyindən Ədliyyə Nazirliyinə verilməsi işi başa çatdırıldı. Bu addımın atılmasında məqsəd məhkəmə qərarlarının icrası sistemini təkmilləşdirmək, cəza-tərbiyə işini humanistləşdirmək, ən əsası isə insan hüquqlarının, azadlıqlarının gözlənilməsini təmin etmək idi. Ədalətli məhkəmə hüququnun ayrılmaz tərkib hissəsi olan məhkəmə qərarlarının icrası işinin müstəsna əhəmiyyəti nəzərə alınaraq Nazirliyin tərkibində icra xidməti təsis edildi, istintaq idarəsi yaradılaraq ədalət mühakiməsi əleyhinə olan və bir sıra digər cinayətlərin ibtidai istintaqının aparılması Ədliyyə Nazirliyinə həvalə olundu.

Azərbaycan tarixinin Heydər Əliyev dönəmində ilk dəfə olaraq yerli özünüidarə orqanları formalaşdı və bələdiyyələrə metodoloji yardımın göstərilməsi, eləcə də inzibati nəzarətin həyata keçirilməsi Ədliyyə Nazirliyinə tapşırıldı.

Ədliyyə sahəsində aparılan islahatların nəticəsi olaraq Ədliyyə Nazirliyinin cəmiyyətdə rolu və nüfuzu xeyli artdı və o, hüquq siyasətini həyata keçirən əsas orqanlardan birinə çevrildi.

Ümummilli liderimiz Heydər Əliyev tərəfindən ədliyyə işçilərinin peşə bayramı gününün təsis edilməsi də dahi rəhbərimizin Azərbaycan ədliyyəsinə xüsusi diqqət və qayğısının bariz təzahürü olmuşdur.

Demokratik hüquqi dövlətin təməl daşlarından biri hesab olunan müasir müstəqil məhkəmə hakimiyyətinin bərqərar olması da məhz ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır.

Belə məhkəmə hakimiyyətini yaratmaq üçün ölkədə köklü məhkəmə-hüquq islahatlarının aparılmasının zəruriliyini nəzərə alan Ümummilli Liderin təşəbbüsü ilə 1997-ci ildə zəngin demokratik ənənələri olan ölkələrin təcrübəsinə əsaslanan "Məhkəmələr və hakimlər haqqında" yeni Qanun qəbul olundu və məhkəmə islahatlarına dair proqram xarakterli Fərman imzalandı.

Dahi öndərin rəhbərliyi ilə aparılan məhkəmə-hüquq islahatı nəticəsində keçmiş sovet məhkəmə sistemi ləğv edilərək 2000-ci ildən yeni, insan haqlarının müdafiəsinə daha etibarlı təminat verən üçpilləli müstəqil məhkəmə sistemi fəaliyyətə başladı.

Məhz həmin vaxtdan Azərbaycan postsovet məkanında qətimkan tədbiri kimi həbsin seçilməsi səlahiyyətini məhkəməyə verən və bununla da "Habeas Corpus" prinsipini tətbiq edən ilk dövlətlərdən oldu.

Bunun davamı olaraq məhkəmələr üzərində hər hansı, o cümlədən prokuror nəzarəti ləğv olunaraq, əksinə demokratik məhkəmə nəzarəti institutu formalaşdırıldı.

2000-ci ildə dövlətçilik tariximizdə ilk dəfə olaraq hakimlər şəffaf prosedurlar əsasında, o cümlədən test üsulu ilə seçilmiş və nəticədə hakim korpusu 60% təzələndi.

Görülmüş tədbirlər əhali arasında məhkəmələrə etibarı xeyli artırdı, məhkəmələr barədə keçmiş sovetlər birliyindən miras qalmış "cəza orqanı" təəssüratı aradan qalxdı. Artıq insanlar pozulmuş hüquqların müdafiəsi üçün digər orqanlara deyil, məhz məhkəməyə müraciət etməyə başladı.

Həmçinin, bütün hüquq-mühafizə orqanlarında

və vəkillik xidmətində mütərəqqi islahatlar aparıldı, onların fəaliyyəti demokratik dəyərlərə uyğun quruldu.

Müstəqilliyimizin on ili - 1993-2003-cü illər ərzində dahi Heydər Əliyev "siyasət mümkün olanı etmək deyil, mümkünsüzü bacarmaq sənətidir" məşhur kəlamda söylənildiyi kimi, düşünülmüş və uzaqgörən siyasəti sayəsində Azərbaycan üçün, xalqımız üçün mümkünsüz görünən hər şeyin öhdəsindən uğurla gəldi, ölkəmizin müstəqilliyini dönməz, əbədi və daimi etdi, Azərbaycan demokratik hüquqi dövlət quruculuğu yolu ilə əzmlə irəlilədi və gələcək inkişafın strateji hədəflərini müəyyən etdi. O inkişaf ki, sonrakı illərdə müstəqil Azərbaycanın daha da qüdrətlənməsi və tərəqqisi üçün möhkəm təməl və potensial rolunu oynadı.

Ümummilli Lider həm də Azərbaycan tarixində ən görkəmli dövlət xadimi kimi əbədi bir milli sərvət - Heydər Əliyev dövlətçilik məktəbini yaratdı. Ulu Öndərin 2003-cü ildə tarixi müraciətində xalqa müəyyənləşdirdiyi siyasəti davam etdirə biləcək dəqiq ünvanı göstərdi: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm". Zaman Heydər Əliyevin bu inamını təsdiq edir və Ümummilli Liderin layiqli davamçısı möhtərəm Prezidentimiz cənab İlham Əliyev Azərbaycana bacarıqla rəhbərlik edir, öz praqmatik və müdrik siyasəti ilə ölkəmizi irəli aparır. Dövlətin sükanının etibarlı əllərdə olduğunu görən xalq öz Prezidentinə daim dəstək verir və onun arxasınca inamla gedir.

Ötən ay ölkəmizin ictimai-siyasi həyatında mühüm hadisə olan - aprelin 11-də ədalətli və şəffaf keçirilmiş prezident seçkilərində cənab İlham Əliyevin böyük vətəndaş həmrəyliyi ilə yenidən ölkə başçısı seçilməsi xalqımızın iradəsini, inamını, Heydər Əliyev siyasətinə, amallarına sadiqliyini təzahür etdirməklə son 15 ildə görülən işlərə, sürətli tərəqqiyə, bərqərar edilmiş möhkəm ictimai-siyasi sabitliyə verilən yüksək qiymətdir.

Ümummilli lider Heydər Əliyevin müəyyən etdiyi hərtərəfli inkişaf strategiyası ötən dövrdə dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirilərək ölkəmizin davamlı inkişafı təmin edilmiş, qarşıya qoyulan əsas məqsəd və hədəflərə nail olunmuşdur.

Bu dövrdə elə bir sahə olmamışdır ki, orada islahatlar aparılmasın və inkişaf müşahidə edilməsin. Belə ki, 15 il ərzində iqtisadiyyatımız 3,2 dəfə, sənaye istehsalı 2,6 dəfə artmış, işsizliyin səviyyəsi 5 faizədək enmiş, yoxsulluq təxminən 10 dəfəyədək azalmışdır. Valyuta ehtiyatlarımız 24 dəfə artaraq 44 milyard dollara bərabərdir. Ölkəmizin iqtisadiyyatına 230 milyard dollardan çox sərmayə qoyulmuşdur.

Bu gün iqtisadi sahədə rəqabətqabiliyyətliliyinə görə Azərbaycan Davos Dünya İqtisadi Forumunun, Dünya Bankının hesabatlarında yüksək pillələrdə qərarlaşır, islahatçı dövlət kimi seçilir. Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum neft və qaz kəmərləri, Cənub Qaz Dəhlizi, Bakı-Tbilisi-Qars dəmir yolu və gələn ay açılışı nəzərdə tutulan Trans-Anadolu (TANAP) qaz boru kəməri kimi qlobal enerji və nəqliyyat layihələrinin bilavasitə təşəbbüskarı olan ölkəmiz Avropada etibarlı tərəfdaşa və regionun lider dövlətinə çevrilmişdir. Respublikamızın ən mötəbər tədbirlərə, o cümlədən humanitar, siyasi, iqtisadi, mədəni forumlara, möhtəşəm idman yarışlarına uğurla ev sahibliyi etməsi dövlətimizin dünyada yüksək nüfuzunu təcəssüm etdirir.

Ulu öndərin adını daşıyan Heydər Əliyev Fondu da xeyirxahlıq, sülh, insanpərvərlik kimi bəşəri amallar uğrunda nəcib fəaliyyəti ilə ölkədə həyata keçirilən çoxşaxəli islahatlara dəyərli töhfələr verir, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Fondun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə reallaşdırılan çoxsaylı layihələr, həyata keçirilən tədbirlər öz müsbət nəticələrini verməklə xalqımızın Heydər Əliyev ocağına olan sevgisini daha da gücləndirir.

Ötən dövrdə dövlət başçısının təşəbbüsü və rəhbərliyi ilə həyata keçirilən genişmiqyaslı islahatların tərkib hissəsi olaraq ədliyyə və məhkəmə sisteminin inkişafına da xüsusi önəm verilmişdir. Ədliyyə Nazirliyinin funksiya və səlahiyyətləri genişlənmiş, Ədliyyə Akademiyası, regional ədliyyə idarələri, xüsusi notariat institutu, probasiya xidməti təsis edilmiş, elektron reyestrlər və informasiya sistemləri yaradılmaqla vətəndaşların ədliyyə təsisatlarına çıxışı xeyli asanlaşmışdır.

Eyni zamanda, ölkə Prezidentinin tapşırıqlarına əsasən ədalət mühakiməsinin səmərəliliyinin artmasına, məhkəmə hakimiyyətinin müstəqilliyinin güclənməsinə xidmət edən mütərəqqi islahatlar aparılmış, bu sahədə qanunvericilik təkmilləşmiş, hakimlərin şəffaf seçim qaydası müəyyən olunaraq hakim korpusu 60 faiz təzələnmiş, yeni

məhkəmələr və məhkəmə hakimiyyətinin özünüidarə orqanları yaradılmış, müasir İKT-nin, dövlət başçısının Sərəncamı ilə yaradılmış "Elektron məhkəmə" informasiya sisteminin tətbiqi və məhkəmə infrastrukturunun müasirləşməsi üzrə əməli tədbirlər görülmüşdür.

Böyük qürur hissi ilə deyə bilərik ki, möhkəm bünövrə üzərində formalaşmış Azərbaycan dövləti özünün yeni müasir inkişaf dövrünü yaşayır. Hər birimiz Heydər Əliyevin dövlətçilik amallarına sadiq qalaraq Ulu Öndərin yüksək ideyalarını yaşatmaq və inkişaf etdirmək, Azərbaycan tarixinin yeni şanlı səhifələrini yazmaq naminə möhtərəm Prezidentimiz cənab İlham Əliyevin ətrafında sıx birləşərək, əlimizdən gələni əsirgəməməli, dövlət başçısının yüksək etimadına uyğun olaraq ölkəmizin hərtərəfli tərəqqisi üçün öz vəzifələrimizi layiqincə yerinə yetirməli və daha əzmkarlıqla çalışmalıyıq.

Azərbaycan zəngin ölkədir, onun istedadlı insanları, tükənməz təbii sərvətləri var, lakin bizim ən böyük sərvətimiz Heydər Əliyev siyasi irsidir. Bu hədsiz sərvətin öyrənilməsi üçün konfranslar təşkil olunur, Azərbaycan tarixinin Heydər Əliyev dönəmində əldə olunmuş nailiyyətlər, demokratik hüquqi dövlət quruculuğunda Heydər Əliyevin irsi barədə çıxışlar edilir və digər tədbirlər həyata keçirilir.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95 illik yubileyi münasibətilə Ədliyyə Nazirliyi tərəfindən də silsilə tədbirlər keçirilir. Ədliyyə işçiləri Fəxri xiyabanda Ulu Öndərin məzarını ziyarət edərək əziz xatirəsinə əbədi ehtiramlarını bildirirlər. Gənc əməkdaşlar nazirlikdə Heydər Əliyev muzeyi ilə tanış olurlar, ədliyyə orqanlarında yığıncaqlar, dəyirmi masalar keçirilir, ixtisasartırma kurslarında xüsusi mövzular tədris edilir. Müxtəlif kütləvi idman yarışları, xeyriyyə tədbirləri, o cümlədən qanvermə aksiyası təşkil olunur, ədliyyə işçiləri və hakimlər tərəfindən mətbuatda çıxışlar edilir. Həmçinin, Heydər Əliyevin 95 illik yubileyi münasibətilə xüsusi stend hazırlanıb, nazirliyin kinozalında Ulu Öndərin zəngin həyatından və titanik fəaliyyətindən bəhs edən filmlər nümayiş etdirilir.

Ümummilli Liderin yubileyi münasibətilə Ədliyyə Nazirliyi tərəfindən keçirilmiş "Heydər Əliyev və Azərbaycan ədliyyəsi" mövzusunda geniş elmi-praktiki konfrans xüsusilə qeyd olunmalıdır. Ədliyyə Nazirliyi rəhbərliyinin və məsul işçilərinin, Məhkəmə-Hüquq Şurası üzvlərinin, hakimlərin, prokurorların, vəkillərin, elm-tədris müəssisələri, vətəndaş cəmiyyəti nümayəndələrinin, alimlərin, gənc hüquqşünasların və KİV-lərin iştirakı ilə ötən gün Ədliyyə Akademiyasında keçirilmiş tədbirdə məzmunlu və elmi təhlillərə əsaslanan məruzələrin edilməsi, müzakirələrin keçirilməsi Heydər Əliyevin dövlətçilik irsinin öyrənilməsi və aşılanması baxımından olduqca böyük əhəmiyyət kəsb etmişdir.

Şübhəsiz ki, Heydər Əliyev dühasını, onun xalqımız qarşısında xidmətlərini sonadək öyrənmək qeyri-mümkündür. Ulu öndərimizin böyüklüyü, onun xalqımızın rifahı naminə həyata keçirdiyi mühüm tədbirlərin mahiyyətini tam dərk etmək üçün böyük zaman tələb olunur. Zaman keçdikcə isə bu dahi insanın adı Azərbaycan xalqının simvoluna, əməlləri isə hünər rəmzinə çevrilir.

Hələ sağlığında əfsanələşən, siyasət olimpini fəth etmiş nadir şəxsiyyət Heydər Əliyev haqqında dünyanın məşhur simalarının necə heyranlıqla, ehtiramla danışdıqlarının şahidiyik. Müasiri olan dünya liderləri, tanınmış dövlət adamları və siyasi xadimləri tərəfindən dünya miqyasında böyüklüyü etiraf edilən, o cümlədən ABŞ-ın sabiq Prezidenti Corc Buşun "şəksiz lider", Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın "türk dünyasının tanınan və sevilən lideri", Rusiya Prezidenti Vladimir Putinin "siyasi nəhəng", Fransanın sabiq Prezidenti Jak Şirakın "qeyri-adi şəxsiyyət" adlandırdıqları Heydər Əliyev şəxsiyyətinin nəhəngliyi bu günlərdə yenidən göz önündə canlanır, qəlbimizdə bir daha qürur və iftixar hissləri baş qaldırır.

Azərbaycan xalqı xoşbəxtdir ki, onun Heydər Əliyev kimi Ulu Öndəri, dünyanın hörmətlə yanaşdığı və qəbul etdiyi ümummilli lideri var. Və bu gün hər birimiz dərk edirik ki, müstəqil Azərbaycan dövləti bütün həyatı və fəaliyyəti tariximizə qızıl hərflərlə həkk olunmuş Heydər Əliyevin şah əsəridir. Şübhə yoxdur ki, xalqımız onun müəllifini özünün tarixində və qəlbində əbədi yaşadacaq, Azərbaycan və Heydər Əliyevin adı əsrlər boyu bütün dünyada qoşa səslənəcəkdir.

Azərbaycan xalqı Ulu Öndərin siyasi kursunu davam etdirməklə möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə bundan sonra da öz tarixinin yeni, şanlı səhifələrini yazacaq, daha yüksək zirvələr fəth edəcəkdir.

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ

## 1918 - 2018

# Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasından 100 il ötür

## *Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə ucaldılmış abidəni ziyarət*

**Düz 100 il bundan əvvəl - 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması ölkəmizin həyatına böyük tarixi hadisə kimi daxil oldu. Müstəqil, azad, demokratik respublika qurmaq məqsədini qarşıya qoyan Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 aylıq fəaliyyəti dövründə xalqın milli mənlik şüurunu özünə qaytardı, onun öz müqəddəratını təyin etməyə qadir olduğunu nümayiş etdirdi. 1918-ci il mayın 28-də qəbul edilən İstiqlal Bəyannaməsindən - Əqdnamədən də göründüyü kimi, bu möhtəşəm tarix xalqımızın müstəqillik hisslərini daha da gücləndirdi.**




Yeni qurulan Azərbaycan Xalq Cümhuriyyəti öz üzərinə götürdüyü çətin tarixi vəzifəni şərəflə yerinə yetirdi. Azərbaycanın ilk Parlamenti və Hökuməti, dövlət aparatı təşkil edildi, ölkənin sərhədləri müəyyənləşdirildi, bayrağı, himni və gerbi yaradıldı, ana dili



dövlət dili elan edildi, ordu quruculuğu sahəsində ciddi tədbirlər həyata keçirildi, maarifin və mədəniyyətin inkişafına xüsusi diqqət yetirildi. Azərbaycanın ilk universiteti təsis olundu, təhsil milliləşdirildi, xalqın sonrakı illərdə mədəni yüksəlişi üçün zəmin hazırlayan, ictimai fikir tarixi baxımından müstəsna əhəmiyyətli işlər görüldü.

Mövcudluğunun ilk günlərindən xalq hakimiyyəti və insanların bərabərliyi prinsiplərinə əsaslanan Azərbaycan Xalq Cümhuriyyəti bütün ölkə vətəndaşlarına eyni hüquqlar verərək irqi, milli, dini, sinfi bərabərsizliyi ortadan qaldırdı. Dünya birliyi tərəfindən tanınan Xalq Cümhuriyyətinin fəaliyyəti sayəsində ölkəmizin beynəlxalq hüququn subyekti olması 1920-ci ilin aprel ayında bolşevik işğalından sonra Azərbaycanın bir dövlət kimi dünyanın siyasi xəritəsindən silinməsinin qarşısını aldı.

XX əsrin sonunda yenidən müstəqilliyinə qovuşan Azərbaycan öz suverenliyini qoruyub saxlamağı bacardı. Yenidən hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyev Azərbaycan dövlətçiliyinin qorunması üçün qətiyyətli tədbirlər gördü, ölkədə davamlı ictimai-siyasi sabitliyi bərqərar etdi. Beləliklə, Heydər Əliyevin şah əsəri olan müasir müstəqil Azərbaycan dövləti quruldu və sürətli inkişaf yoluna qədəm qoydu.

Ulu Öndərimiz dəfələrlə bildirmişdi ki, biz bu gün demokratik Azərbaycan dövlətini qururuqsa, ayağa qaldırırıqsa, Xalq Cümhuriyyətinə borcluyuq. Azərbaycan Xalq Cümhuriyyətinin tariximizdəki yeri və roluna xüsusi qiymət verən Heydər Əliyev deyirdi: "Biz ilk Demokratik Cümhuriyyətin yaranması gününü əziz tutaraq, onu Azərbaycanın dövlət müstəqilliyi günü - Respublika Günü elan etmişik və bu, bizim milli bayramımızdır".

Ümummilli Liderin bu siyasətini Prezident İlham Əliyev uğurla davam etdirir. Dövlətimizin başçısının Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında Sərəncam imzalaması, 2018-ci ili ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan etməsi milli dövlətçilik tariximizə diqqət və qayğısının göstəricisidir.

***

Mayın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə paytaxtın İstiqlaliyyət küçəsində ucaldılmış abidəni milli bayram - Respublika Günü münasibətilə ziyarət edib.

Abidənin ətrafında fəxri qarovul dəstəsi düzülmüşdü. Dövlətimizin başçısı abidənin önünə əklil qoyub. Sonra Azərbaycan Respublikasının dövlət himni səsləndirilib.

## *Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi münasibətilə rəsmi qəbul*




**Heydər Əliyev Mərkəzində Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi münasibətilə rəsmi qəbul təşkil olunub.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva rəsmi qəbulda iştirak ediblər.

Azərbaycanın dövlət himni səsləndirildikdən sonra dövlətimizin başçısı nitq söyləyib.

Prezident İlham Əliyev xalqımızı Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə təbrik edib, Cümhuriyyətin yaradılmasını tarixi hadisə adlandıraraq vurğulayıb ki, xalqımız müsəlman Şərqində ilk demokratik respublikanı yaratması ilə haqlı olaraq fəxr edə bilər. Bu, bir daha onu göstərir ki, Azərbaycan xalqı böyük xalqdır, Azərbaycan xalqı azadlıqsevər, mütərəqqi xalqdır.

Ölkə başçısı dövlətimizin Azərbaycan Xalq Cümhuriyyətinin qurucularının xatirəsinə böyük hörmətlə yanaşdığını, onların adlarının əbədiləşdirildiyini, bir neçə il öncə Bakının



mərkəzində Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə abidə ucaldıldığını diqqətə çatdıraraq 2018-ci ilin isə "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan olunduğunu bildirib.

23 aylıq fəaliyyəti dövründə Azərbaycan Xalq Cümhuriyyətinin böyük işlər gördüyünü, dövlət bayrağının, Azərbaycan vətəndaşlığının təsis edildiyini, milli ordunun əsasının qoyulduğunu, 200-dən çox qanun qəbul olunduğunu, qadınlara səsvermə hüququnun verildiyini, Bakı Dövlət Universitetinin yaradılmasını deyən dövlət başçısı Azərbaycan Xalq Cümhuriyyətinin süqutunu xalqımızın böyük faciəsi adlandırıb.

"Əminəm ki, əgər 1920-ci ildə müstəqillik əldən verilməsəydi, bu gün Azərbaycan dünyanın ən zəngin və ən inkişaf etmiş ölkələrinin sırasında ola bilərdi", - deyən Prezident İlham Əliyev vurğulayıb ki, bu, bir daha onu göstərir ki, müstəqilliyi qoruyub saxlamaq onu əldə etməkdən daha çətin işdir. 1990-cı ildə milli bayrağımızın ulu öndər Heydər Əliyev tərəfindən Naxçıvanda qaldırıldığını söyləyən ölkə başçısı 1991-ci ildə ikinci dəfə müstəqilliyinə qovuşan xalqımızın çətin sınaqlardan keçdiyini, o vaxtkı hakimiyyətin ölkəni idarəolunmaz vəziyyətə saldığını, torpaqlarımızın işğal olunduğunu bildirib.

Qeyd edib ki, xalq nicat yolunu ümummilli lider Heydər Əliyevi hakimiyyətə dəvət etməkdə gördü. Çünki Heydər Əliyev hələ ölkəyə rəhbərliyinin birinci dövründə respublika və xalq üçün böyük işlər görmüşdür. 1993-cü ildə Heydər Əliyevin xalqın tələbi ilə ikinci dəfə ölkə rəhbərliyinə gəlməsindən sonra müstəqillik dayaqlarının möhkəmləndiyini söyləyən Prezident İlham Əliyev Ulu Öndərin dövlət və xalq qarşısında tarixi xidmətlərindən bəhs edib, 2003-cü ildən sonra da Azərbaycanın dinamik inkişafının təmin edildiyini, müstəqil siyasət aparan ölkəyə çevrildiyini vurğulayıb.

Bugünkü uğurların əsasında xalq-iqtidar həmrəyliyinin dayandığını qeyd edən dövlətimizin başçısı ölkəmizin beynəlxalq nüfuzunun və mövqeyinin daha da gücləndiyini bildirib, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı beynəlxalq təşkilatların qəbul etdikləri qərarların əhəmiyyətini vurğulayıb, tarixi torpağımızda ikinci erməni dövləti yaradılmasına heç zaman imkan verilməyəcəyini bəyan edib, bu gün Azərbaycan Ordusunun dünyanın ən güclü 50 ordusu sırasında olduğunu bildirib.

Son 15 il ərzində iqtisadi inkişafımızın dünya miqyasında rekord səviyyədə olduğunu diqqətə çatdıran Prezident İlham Əliyev sosial-iqtisadi inkişafın əsas göstəricilərini qeyd edib, dünya əhəmiyyətli enerji və nəqliyyat layihələrinin gerçəkləşdirildiyini vurğulayıb.

Ölkəmizin dünyada multikulturalizmin mərkəzlərindən biri kimi tanındığını, Azərbaycanın dünyanın idman ölkəsinə çevrildiyini,




idmançılarımızın yarışlarda yüksək nəticələr göstərdiyini deyən dövlətimizin başçısı vurğulayıb ki, "Bu gün müstəqil Azərbaycan hər bir vətəndaş üçün qürur mənbəyidir. Biz Azərbaycan Xalq Cümhuriyyətinin qurucularının arzularını reallığa çevirdik. Biz elə bir dövlət qurduq ki, əminəm, hər bir Azərbaycan vətəndaşı, hər bir azərbaycanlı bu dövlətlə fəxr edir. Mən tam əminəm ki, əgər Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları bugünkü Azərbaycanı görə bilsəydilər, onlar da ölkəmizlə fəxr edərdilər".

Prezident İlham Əliyev bir daha bəyan edib ki, bizim taleyimiz öz əlimizdədir. Bizim gələcəyimiz etibarlı əllərdədir. Bugünkü Azərbaycan bir daha göstərir ki, müstəqillik ən böyük sərvətimizdir, ən böyük nemətimizdir, ən böyük xoşbəxtliyimizdir. Azərbaycanın müstəqilliyi əbədidir.

Sonra mərasim konsert proqramı ilə davam edib.

## *Yubileyə həsr edilən təntənəli konsert*

**Mayın 28-də Bakı Kristal Zalında Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə həsr edilən təntənəli konsert keçirilib.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri konsertdə olublar.

Heydər Əliyev Fondunun dəstəyi ilə hazırlanan bədii-musiqili gecənin konsepsiyası 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaranması, ötən 100 il ərzində respublikamızın müxtəlif sahələrdə əldə etdiyi nailiyyətlər, Azərbaycanın hazırda müstəqil, güclü və inkişaf etmiş ölkələr sırasında layiqli yerini tutması ideyası üzərində qurulub.

Hər bir azərbaycanlı üçün əziz olan bu bayram günündə Bakı Kristal Zalında sənət adamlarının çıxışları dövlətimizin gücünü, vətəndaşların dövlətə bağlılığını, xalq sevgisini və qürur hissini bir daha əyani təzahür etdirib.

Xalq Artisti Alim Qasımov və Əməkdar Artist Fərqanə Qasımovanın ifasında "Qarabağ" şikəstəsi, "Natiq" ritm qrupunun "Sarı gəlin" kompozisiyası, dahi bəstəkar Üzeyir Hacıbəylinin "Koroğlu" operasından uvertüra, habelə Qara Qarayevin "Yeddi gözəl", Fikrət Əmirovun "1001 gecə", Arif Məlikovun "Məhəbbət əfsanəsi" baletlərindən rəqslər, Xalq artistləri Azərinin, Zülfiyyə Xanbabayevanın, Samir Cəfərovun ifalarında "Ey Vətən", "Şuşanın dağları" və "Neftçilər" mahnıları böyük maraqla dinlənilib. Xalq artistləri Aygün Kazımova, Azər Zeynalov, Emin, Elçin Əzizov, Əməkdar artistlər Emil Əfrasiyab, Səbinə Babayeva, Tünzalə Ağayeva, Miri Yusif

və Röyanın, "Rast" qrupunun, Azərbaycan Müdafiə Nazirliyinin əlahiddə nümunəvi hərbi orkestrinin çıxışları bayram təntənəsi yaşadıb.



Proqramdakı musiqi nömrələri, rəqslər Azərbaycanın zəngin tarixinə bir daha hərtərəfli nəzər salmağa imkan yaradıb.

Təqdirəlayiq haldır ki, 100 il bundan əvvəl - 1918-ci il mayın 28-də Azərbaycan özünün azad yaşamaq, müstəqil dövlət qurmaq hüququnu bütün dünyaya bəyan etdiyi kimi, hazırda da şərəfli tarixini, parlaq nailiyyətlərini və durmadan artan qüdrətini dünyaya nümayiş etdirir.






Tədbirdə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Xalq Şairi Səməd Vurğunun "Azərbaycan" şeirini səsləndirdiyi videoçarx nümayiş olunub.

Eyni zamanda, tamaşaçılar Bakı Media Mərkəzi tərəfindən Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi ilə əlaqədar hazırlanmış videoçarxları da izləyiblər.

Konsertdə Cümhuriyyətin növbəti ildönümlərinin əzəli Azərbaycan torpağı olan Qarabağımızda bayram ediləcəyinə əminlik ifadə olunub.

Sonda birlik və həmrəylik, müstəqilliyimizin əbədiliyinə qəti inam rəmzi olaraq incəsənət ustaları hamılıqla səhnəyə çıxaraq Azərbaycanın dövlət himnini oxuyublar.

İki saata yaxın davam edən konsert proqramına ümumilikdə 670 nəfərdən çox şəxs - tanınmış incəsənət xadimləri və yaradıcı heyət cəlb edilmişdi.

Bakı Kristal Zalındakı konsert proqramı Dənizkənarı Milli Parkda quraşdırılmış monitorda birbaşa yayımlanıb.

Tədbirin sonunda Dənizkənarı Milli Parkda möhtəşəm bayram atəşfəşanlığı olub.

### ”Azərbaycan Ədliyyəsinin 100 illiyi (1918-2018)” Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar ”Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 9-cu bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992, N 23, maddə 996; 1993, N 23-24, maddə 676; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, N 5, maddə 251; 2003, N 12, I kitab, maddə 677; 2005, N 4, maddə 291; 2006, N 10, maddə 846; 2007, N 3, maddə 213; 2008, N 6, maddələr 452, 472; 2009, N 1, maddə 4, N 5, maddə 312, N 7, maddələr 514, 515, N 12, maddə 974; 2010, N 3, maddə 174, N 11, maddə 960; 2011, N 11, maddə 992; 2012, N 7, maddə 664, N 11, maddələr 1036, 1048, 1061; 2013, N 5, maddələr 460, 478, N 10, maddə 1143, N 12, maddə 1477; 2014, N 6, maddələr 612, 623; 2015, N 12, maddə 1447; 2016, N 12, maddələr 1979, 2040; 2017, N 1, maddələr 16, 27, N 7, maddə 1311; N 10, maddə 1771, N 11, maddə 1962, N 12, I kitab, maddələr 2242, 2269; Azərbaycan Respublikasının 2018-ci il 13 fevral tarixli 1001-VQD nömrəli və 23 fevral tarixli 1018-VQD nömrəli qanunları) 2-ci maddəsinə "Ədliyyə sahəsində fərqlənməyə görə" medalı;" hissəsindən sonra aşağıdakı məzmunda yeni hissə əlavə edilsin:

"Azərbaycan Ədliyyəsinin 100 illiyi (1918-2018)" yubiley medalı;"

**Maddə 2.** "Azərbaycan Ədliyyəsinin 100 illiyi (1918-2018)" Azərbaycan Respublikasının yubiley medalı haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).

**Maddə 3.** "Azərbaycan Ədliyyəsinin 100 illiyi (1918-2018)" Azərbaycan Respublikasının yubiley medalının təsviri" təsdiq edilsin (əlavə olunur).

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 24 aprel 2018-ci il*
*N 1072-VQD*

---

### ”Azərbaycan Ədliyyəsinin 100 illiyi (1918-2018)” Azərbaycan Respublikasının yubiley medalı haqqında Əsasnamə

*Azərbaycan Respublikasının 2018-ci il 24 aprel tarixli Qanunu ilə təsdiq edilmişdir*

**Maddə 1. Təltif edilən şəxslər**

"Azərbaycan Ədliyyəsinin 100 illiyi (1918-2018)" Azərbaycan Respublikasının yubiley medalı ilə öz vəzifələrini nümunəvi yerinə yetirən,

qüsursuz fəaliyyəti ilə fərqlənən ədliyyə orqanları əməkdaşları, hakimlər, ədliyyə və məhkəmə sisteminin inkişafına töhfə vermiş və ədliyyə orqanları ilə səmərəli əməkdaşlıq edən digər şəxslər, habelə beynəlxalq tərəfdaşlar təltif edilirlər.

**Maddə 2. Təltif edən orqan**

"Azərbaycan Ədliyyəsinin 100 illiyi (1918-2018)" Azərbaycan Respublikasının yubiley medalı ilə bu Əsasnamənin 1-ci maddəsində göstərilən şəxsləri müvafiq icra hakimiyyəti orqanı təltif edir.

**Maddə 3. Taxılma qaydası**

"Azərbaycan Ədliyyəsinin 100 illiyi (1918-2018)" Azərbaycan Respublikasının yubiley medalı döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər orden və medalları olduqda "Ədliyyə sahəsində fərqlənməyə görə" Azərbaycan Respublikasının medalından sonra taxılır.

---

## "Azərbaycan Ədliyyəsinin 100 illiyi (1918-2018)" Azərbaycan Respublikasının yubiley medalının təsviri

*Azərbaycan Respublikasının 2018-ci il 24 aprel tarixli Qanunu ilə təsdiq edilmişdir*

**Maddə 1. Medalın ümumi təsviri**

"Azərbaycan Ədliyyəsinin 100 illiyi (1918-2018)" Azərbaycan Respublikasının yubiley medalı (bundan sonra - medal) bürüncdən tökülmüş və qızıl suyuna çəkilmiş, diametri 37 mm olan, hər tərəfə şüalar saçan səkkizguşəli ulduz kompozisiyalı lövhədən ibarətdir.

**Maddə 2. Medalın ön tərəfi**

Medalın ön tərəfində diametri 25 mm olan halqa ilə əhatələnmiş gümüşü dairə yerləşir. Dairənin diametri 18 mm-dir və üzərində aypara, səkkizguşəli ulduz, kitab, qılınc, tərəzi atributları müvafiq icra hakimiyyəti orqanının rəsmi embleminə müvafiq şəkildə təsvir edilmişdir. Dairəni halqa ilə birləşdirən hissə tünd göy mina ilə örtülmüş, yuxarı qövsü boyunca solda "AZƏRBAYCAN", sağda "ƏDLİYYƏSİ" sözləri, aşağı qövsü boyunca dəfnə budaqları, budaqların haçalandığı mərkəz hissəsində isə qabarıq gümüşü lent və onun üzərində "100" rəqəmi həkk edilmişdir. Ulduzun guşələri tünd göy mina ilə örtülmüş, kənarları qabarıq qızılı xətlə haşiyələnmiş və ucları arasındakı məsafə 12 mm olmaqla, hər biri digərindən beş şüa ilə ayrılmışdır. Halqanın və dairənin konturları, bütün yazılar, dəfnə budaqları, atributlar, şüalar relyefli olmaqla qızılı rəngdədir.

**Maddə 3. Medalın arxa tərəfi**

Medalın arxa tərəfinin səthi hamardır, orta hissəsində "AZƏRBAYCAN ƏDLİYYƏSİNİN 100 İLLİYİ 1918-2018" sözləri, aşağı hissəsində medalın seriyası və nömrəsi həkk olunur.

**Maddə 4. Medalın elementləri**




4.1. Medal paltara bərkidilmək üçün elementi olan, 27 mm x 48 mm ölçülü qızılı rəngli metal lövhəyə ilgək və iki halqa vasitəsilə birləşdirilir. Lövhəyə üzərində kənarlardan mərkəzə doğru ardıcıl olaraq 2 mm enində yaşıl, 1 mm enində tünd göy, 6 mm enində mavi rəngli şaquli zolaqlar, mərkəzdə isə 9 mm enində tünd göy rəngli şaquli zolaq təsvir edilmiş xara lent çəkilmişdir. Xara lentin yuxarı hissəsinə 27 mm x 6 mm ölçülü, aşağı hissəsinə eni kənarlarda 6 mm, mərkəzdə 11 mm olan qızılı rəngli təbəqə bərkidilmiş, təbəqənin üzərinə palıd yarpaqları, onlardan aşağıda düz xətt və "1918-2018" rəqəmləri relyefli həkk edilmişdir.

4.2. Medala paltarın yaxasına bərkidilmək üçün elementi olan, eyni xara lentdən üz çəkilmiş 27 mm x 9 mm ölçülü qəlib əlavə olunur.

### ”Azərbaycan Ədliyyəsinin 100 illiyi (1918-2018)” Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar ”Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 24 aprel tarixli 1072-VQD nömrəli Qanununun tətbiqi haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN

# FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Ədliyyəsinin 100 illiyi (1918-2018)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 24 aprel tarixli 1072-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Ədliyyəsinin 100 illiyi (1918-2018)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Müəyyən edilsin ki, "Azərbaycan Ədliyyəsinin 100 illiyi (1918-2018)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Ədliyyəsinin 100 illiyi (1918-2018)" Azərbaycan Respublikasının yubiley medalının təsviri"nin 2-ci maddəsində "müvafiq icra hakimiyyəti orqanı" dedikdə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi nəzərdə tutulur.

3. "Azərbaycan Ədliyyəsinin 100 illiyi (1918-2018)" Azərbaycan Respublikasının yubiley medalı ilə təltif etmək səlahiyyəti Azərbaycan Respublikasının ədliyyə nazirinə verilsin.

4. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Ədliyyəsinin 100 illiyi (1918-2018)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 10 may 2018-ci il*
*N 55*

# Müstəqillik dövrünün ən böyük əfvi

## Ölkə Prezidenti İlham Əliyev "Məhkum edilmiş bir sıra şəxslərin Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə əfv olunması haqqında" Sərəncam imzalayıb



**Ümummilli lider Heydər Əliyevin humanizm ideallarına daim sadiq qalan ölkə Prezidenti cənab İlham Əliyev bayram günləri ərəfəsində əfv sərəncamları imzalamaqla minlərlə ailəyə sevinc, xoş ovqat bəxş edir.**

Humanizm siyasətinin əsası 1995-ci ildə ümummilli lider Heydər Əliyev tərəfindən qoyulub, Ulu Öndərin təşəbbüsü ilə 1998-ci ildə Şərqdə ilk dəfə Azərbaycanda ölüm cəzası ləğv olunub, ölkədə əfv sərəncamlarının və amnistiya aktlarının qəbul olunması xalqın dövlətə və dövlətçiliyə inamını daha da artırıb. 1995-2003-cü illərdə 77 mindən artıq insanı əhatə edən 7 amnistiya aktı qəbul olunub, 32 əfv fərmanı ilə 3 mindən artıq şəxs bağışlanaraq cəzalarından azad edilib.

Ümummilli Liderin mərhəmət, insanpərvərlik məfkurəsindən çıxış etmək, humanizm ideyalarını həyata keçirmək Heydər Əliyev Fondunun da başlıca məramlarındandır. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə 40 minə yaxın şəxsi əhatə edən 4 amnistiya aktının qəbul edilməsi cinayət törətmiş şəxslərin islah olunmasına və cəmiyyətə yenidən inteqrasiyasına xidmət edib.

Ölkə başçısının mayın 24-də imzaladığı,



müstəqillik dövrünün ən böyük əfvi olan "Məhkum edilmiş bir sıra şəxslərin Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə əfv olunması haqqında" Sərəncamı bir daha Azərbaycan dövlətinin humanizm siyasətinin təntənəsi olmaqla möhtərəm Prezidentimizin mərhəmət dəyərlərinə bağlılığını nümayiş etdirir.

Dövlət başçısının Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının xalqımızın müstəqilliyi tarixində əlamətdar hadisə olduğunu vurğulayaraq, ümummilli lider Heydər Əliyevin müasir Azərbaycan dövlətinin qurulmasında ümumbəşəri dəyərlər, qanunun aliliyi, ədalət və



demokratiya ideallarına xüsusi önəm verdiyini xatırlayaraq, Heydər Əliyev siyasətinin mərhəmətlik və humanizm ənənələrinə sadiq qalaraq, cəzadan azad olunacaq şəxslərin cəmiyyətə qovuşaraq müstəqil dövlətimizin inkişafı yolunda fəaliyyət göstərəcəklərinə inanaraq imzaladığı əfv Sərəncamı ümumilikdə 634 nəfərə şamil olunub.

Onlardan 607-si azadlıqdan məhrum etmə cəzasının çəkilməmiş hissəsindən azad



edilib. Bundan başqa, azadlıqdan məhrumetmə cəzasına məhkum edilmiş və cəzasının çəkilməsi təxirə salınmış 1 nəfər, həmçinin azadlıqdan məhrumetmə cəzasına şərti olaraq məhkum edilmiş 9 nəfər, islah işləri cəzasına məhkum edilmiş 6 nəfər cəzanın çəkilməmiş hissəsindən, 11 nəfər isə cərimə cəzasından azad olunub. Əfv olunan şəxslər arasında xarici ölkələrin 39 vətəndaşı var.

Ölkə Prezidentinin əfv Sərəncamı Ədliyyə Nazirliyinin məsul işçilərinin, Penitensiar xidmətin rəhbərliyinin, insan hüquqları üzrə müvəkkilin (Ombudsman), Əfv Komissiyasının, ədliyyə naziri yanında İctimai Komitənin üzvlərinin, hüquq müdafiəçilərinin və çoxsaylı kütləvi informasiya vasitələri nümayəndələrinin iştirakı ilə təxirəsalınmadan icra olunub,



nazirliyin və Penitensiar xidmətin məsul əməkdaşlarından ibarət qruplar əfv Sərəncamının əhatə dairəsində olan məhkumların saxlanıldığı cəzaçəkmə müəssisələrində olub, bu humanist aktın mahiyyəti və əhəmiyyəti barədə məhkumlar qarşısında geniş çıxışlar edib, izahat işləri aparıblar.

Əfv Sərəncamı tətbiq edilmiş şəxslərə azad olunma haqqında müvafiq arayışlar təqdim olunub, onlara yardımlar göstərilib, əvvəlki daimi yaşayış yerləri üzrə icra hakimiyyəti və polis orqanlarına rəsmi məlumatlar göndərilib. Əfv olunan 39 xarici ölkə vətəndaşının, o cümlədən 3 nəfər vətəndaşlığı olmayan şəxsin azad olunduqdan dərhal






sonra Dövlət Miqrasiya Xidmətinə təhvil verilməsi təmin olunub.

Azadlığa çıxan şəxslər və onları qarşılamağa gələn ailə üzvləri, yaxınları göstərdiyi humanistliyə, mərhəmətlik siyasətinə və Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə imzalanan əfv Sərəncamına görə dövlətimizin başçısı İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər. Cəzadan azad olunanlar cəmiyyətə qovuşaraq müstəqil dövlətimizin



inkişafı yolunda fəaliyyət göstərəcəklərini bildiriblər.

Azərbaycan Prezidentinin presedenti olmayan Əfv sərəncamı respublikamızın humanizm prinsipləri əsasında inkişaf yolu seçdiyini bir daha nümayiş etdirir. Bu Sərəncamla əfv olunanlar isə dövlətin onlara etimadını doğrultmalı, azadlığın qədrini qiymətləndirməli, layiqli vətəndaş kimi cəmiyyət həyatına öz töhfələrini verməlidirlər.

# Azərbaycan Xalq Cümhuriyyəti dövlətçilik tariximizin parlaq səhifələrindəndir

**Fikrət MƏMMƏDOV,**
**Azərbaycan Respublikasının ədliyyə naziri,**
**Məhkəmə-Hüquq Şurasının sədri**
**I dərəcəli dövlət ədliyyə müşaviri**

**Qədim və zəngin dövlətçilik ənənələrinə malik olan Azərbaycan xalqı özünün azadlığı və müstəqilliyi uğrunda daim mübarizə aparmış, Azərbaycan tarixinin əhəmiyyətli və yaddaqalan dövrlərindən olan XX əsrin əvvəllərində, dünyanın siyasi nizamının yenidən qurulduğu bir vaxtda istiqlaliyyətini elan etmişdir.**

1918-ci il may ayının 28-də Şərqdə ilk demokratik dövlət quruluşu kimi yaranmış Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın müstəqillik tarixinin başlanğıcı olmaqla milli dövlətçilik salnaməsini müstəsna dərəcədə zənginləşdirmişdir. Cəmi 23 ay yaşamasına baxmayaraq, Azərbaycan Xalq Cümhuriyyəti sübut etmişdir ki, Azərbaycan xalqı müstəqil yaşamağa, öz dövlətçilik ənənələrini bərpa etməyə qadirdir.

XX əsrin sonlarında dövlət müstəqilliyini yenidən əldə edən Azərbaycan Respublikası Xalq Cümhuriyyətinin siyasi və mənəvi varisi olduğunu bəyan edərək Cümhuriyyətin istiqlalını dünyaya yaydığı 28 May gününü Respublika günü olaraq hər il təntənə ilə qeyd edir.

Ümummilli liderimiz Heydər Əliyev çoxəsrlik dövlətçilik tariximizdə mühüm yeri olan Azərbaycan Xalq Cümhuriyyətinin xidmətlərini hər zaman yüksək qiymətləndirmiş, cümhuriyyət ənənələrinin yaşadılmasına və inkişaf etdirilməsinə daim böyük əhəmiyyət vermişdir. Təsadüfi deyil ki, Xalq Cümhuriyyətinin yaranmasının 80 illiyi məhz ulu öndər Heydər Əliyevin bilavasitə təşəbbüsü və rəhbərliyi ilə ilk dəfə olaraq dövlət səviyyəsində geniş qeyd olunmuşdur.

Bu il Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi tamam olur. Möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında" Sərəncam imzalanmış və bu əlamətdar tarixi hadisə münasibətilə 2018-ci il respublikamızda "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan



İstiqlal Bəyannaməsinin elan olunması, Tiflis, 28 may 1918-ci il



Proclamation
de l'Indépendance de l'Azerbaïdjan

Le 28 mai 1918 à Tiflis, le Conseil National de l'Azerbaïdjan a publié le décret suivant sur l'indépendance de l'Azerbaïdjan.

[illegible]

1. A partir d'aujourd'hui, les peuples de l'Azerbaïdjan jouissent des droits souverains & l'Azerbaïdjan, composé de la Transcaucasie orientale & méridionale forme un état indépendant jouissant de tous les droits d'un État.
2. La forme de l'organisation de l'Azerbaïdjan indépendant est la République Démocratique.
3. La République Démocratique de l'Azerbaïdjan s'efforcera d'établir des rapports de bon voisinage avec tous les États & particulièrement avec les peuples & États limitrophes.
4. La République Démocratique de l'Azerbaïdjan garantit sur son territoire les droits civils & politiques à tous les citoyens, sans distinction de nationalité, de religion, de position sociale et de sexe.
5. La République Démocratique de l'Azerbaïdjan accorde à toutes les nationalités peuplant son territoire toutes les facilités pour se développer librement.
6. Jusqu'à la Convocation de l'Assemblée Constituante, à la tête de l'administration de tout l'Azerbaïdjan se trouve le Conseil National, élu au suffrage universel et le Gouvernement Provisoire, responsable devant l'Assemblée Nationale.

İstiqlal Bəyannaməsinin mətni

olunaraq ölkədə və onun hüdudlarından kənarda silsilə tədbirlər keçirilir, müstəqillik tariximizə nəzər salınır, cümhuriyyətin dövlətçilik salnaməsində yeri və rolu işıqlandırılır.

Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın qədim dövlətçilik ənənələrini yaşadaraq, o dövrdə öz üzərinə götürdüyü çətin tarixi vəzifəni imkanlarının ən son həddində olsa belə şərəflə yerinə yetirmişdir.


Fətəli Xan Xoyski, AXC Nazirlər Şurasının ilk sədri


Əlimərdan bəy Topçubaşov, Parlamentin sədri


Səməd bəy Mehmandarov, hərbi nazir


Məmmədhəsən Hacınski, ilk xarici işlər naziri


Xəlil bəy Xasməmmədov, ilk ədliyyə naziri


Behbud xan Cavanşir, daxili işlər naziri

Lakin əfsuslar olsun ki, müstəqilliyə gedən yol heç də rəvan olmamış, cümhuriyyət yaranmamışdan öncə xalqımızın taleyində dəhşətli faciələr baş vermişdir. Tarixin müxtəlif mərhələlərində mifik və bədnam "Böyük Ermənistan" ideyasını gerçəkləşdirməyə çalışan erməni millətçiləri bolşevik silahlı dəstələri ilə birgə 1918-ci ilin mart-aprel aylarında azərbaycanlılara qarşı soyqırımı həyata keçirmişlər. Həmin günlərdə Bakı şəhərində və respublikamızın digər bölgələrində on minlərlə dinc sakin yalnız azərbaycanlı olduqlarına görə qətlə yetirilmiş, yaşayış məntəqələri dağıdılmış, mədəniyyət abidələri, məscid və qəbiristanlıqlar yerlə-yeksan edilmişdir.

Azərbaycanda mart soyqırımını törətməklə erməni-bolşevik qüvvələri daha böyük məqsədlər güdür, Azərbaycan torpaqlarını işğal etmək istəyirdilər. Lakin 1918-ci ilin may ayında Azərbaycan Xalq Cümhuriyyətinin yaranması, milli dövlətçiliyin bərpası, Azərbaycanın müstəqilliyi uğrunda mübarizənin başlanması düşmənlərin bu planlarını pozmuşdu.

May ayının 28-də Azərbaycan Xalq Cümhuriyyətinin qəbul etdiyi Konstitusiya aktı statusuna malik olan ilk hüquqi sənəd - İstiqlal Bəyannaməsində müstəqil Azərbaycan dövlətinin yarandığı bəyan olunmuş, onun hakimiyyətinin şamil edildiyi ərazinin hüdudları müəyyənləşdirilmiş, həmçinin dövlətin əsas fəaliyyət prinsipləri öz əksini tapmışdı.

Bəyannamədə demokratik dövlətə məxsus atributların - hakimiyyətin xalqa mənsub olması, vətəndaşların mülki və siyasi hüquqları təmin edilmiş, həmçinin ölkənin bütün vətəndaşlarına bərabər hüquqlar, o cümlədən Avropanın bir sıra inkişaf etmiş dövlətlərini qabaqlayaraq qadınlara seçki hüququ verilmiş, suveren, demokratik, hüquqi dövlət yaradılması niyyəti bəyan edilmişdi.


Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurası




Azərbaycan Xalq Cümhuriyyəti Xarici İşlər Nazirliyinin 1919-cu ildə Paris Sülh Konfransında təqdim etdiyi rəsmi xəritə



AXC-nin dövlət atributları

İstiqlal Bəyannaməsinin siyasi-hüquqi mahiyyəti ondan ibarət idi ki, o, Azərbaycanda demokratik rejimli parlament respublikası idarəçilik formasını, ali dövlət hakimiyyəti orqanları sistemini, hökumətin qanunverici orqan qarşısında məsuliyyət daşımasını və ümumilikdə parlamentçiliyin formalaşdırılmasını, daxili və xarici, eyni zamanda, vətəndaşların hüquqi statusunun əsaslarını bərqərar edərək möhkəmləndirmişdi.

Yeni qurulan Azərbaycan Xalq Cümhuriyyətinin ilk Parlamenti və Hökuməti, dövlət aparatı təşkil edilmiş, Fətəli xan Xoyskinin başçılığı ilə ilk hökumətin tərkibi müəyyən olunmuş, dövlət hakimiyyəti strukturları yaradılmışdır. 23 aylıq fəaliyyəti dövründə beş dəfə formalaşdırılan Cümhuriyyət Hökumətinin qısa bir müddətdə həyata keçirdiyi tədbirlər xalqımızın tarixində böyük iz buraxmışdır. Azərbaycan dövlətçiliyi atributlarının qəbul edilməsi, ana dilinin dövlət dili elan olunması, milli tələblərə və demokratik prinsiplərə uyğun dövlət orqanlarının qurulması, maarifin və mədəniyyətin inkişafına xüsusi diqqət yetirilməsi, təhsilin milliləşdirilməsi və s. Azərbaycan Xalq Cümhuriyyətinin mühüm xidmətlərindəndir.

Şərqin ilk parlamentli respublikası olan Azərbaycan Xalq Cümhuriyyəti dövründə qanun yaradıcılığı işinə xüsusilə diqqət yetirilmiş, 7 dekabr 1918-ci ildə keçirilən ilk iclası ilə Parlament fəaliyyətə başlamış, Əlimərdan bəy Topçubaşov Parlamentin sədri seçilmişdir. Cəmi 17 aylıq fəaliyyəti dövründə Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin 145 iclası keçirilmiş, 230-a yaxın qanun qəbul olunmuşdu.

Cümhuriyyət parlamentinin il yarımlıq fəaliyyəti boyunca qəbul etdiyi qanunvericilik aktları və qərarları milli dövlətin müstəqilliyinin möhkəmləndirilməsinə, siyasi və iqtisadi inkişafa, mədəniyyət və maarif sahələrində sürətli irəliləyişə imkan vermiş, Azərbaycan dövlətçiliyi, xüsusən də parlament mədəniyyəti tarixində dərin və zəngin iz


آذربایجان جمهوریتی
حکومتک قانون و بناکذارلقری مجموعه‌سی

Azərbaycanda türk dilinin dövlət dili elan olunması haqqında qərar



Xalq Cümhuriyyətinin pul vahidləri



Orden və medallar





Hərbi paqon və AXC-nin möhürü



**Azərbaycan Xalq Cümhuriyyətinin Gəncədəki Hökumət binası**



**Bakıda Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin binası**

qoymuşdur.

Azərbaycan Xalq Cümhuriyyətinin hüquq sisteminin inkişafı üzrə gördüyü işlər xüsusilə qeyd olunmalıdır. O dövrdə hüquq sisteminin fəaliyyətinə böyük əhəmiyyət verilərək Ədliyyə Nazirliyi ölkənin yaradılması ilə bir gündə - 1918-ci il may ayının 28-də təsis edilmiş, təcrübəli dövlət xadimi Xəlil bəy Xasməmmədov ilk ədliyyə naziri təyin olunmuş və həmin ilin noyabr ayının 22-də nazirliyin Əsasnaməsi təsdiq edilərək, onun funksiya və səlahiyyətləri müəyyən olunmuşdur.

Bu il 100 illiyini qeyd etdiyimiz Azərbaycan ədliyyəsinin şanlı tarixi məhz Cümhuriyyətin yaranması ilə başlanır. Həmin dövrə nəzər salanda ölkənin ədliyyə və məhkəmə sisteminin yaradılması, bütövlükdə hüquq sisteminin inkişafı üzrə mühüm tədbirlərin keçirildiyinin şahidi oluruq.

1918-ci ildə Azərbaycanda məhkəmə sistemi dağınıq, pərakəndə və iflic vəziyyətində idi. Şəhər və qəzaların əksəriyyətində hüquqşünas kadrlar, xüsusilə müstəntiq və hakimlər çatışmırdı, bəzi yerlərdə isə məhkəmə idarələri öz fəaliyyətini dayandırmışdı.

Ədliyyə Nazirliyi məhz belə bir ağır şəraitdə fəaliyyətə başlamışdı. İlk növbədə respublikada qayda-qanunun bərpası ilə əlaqədar müvafiq hüquqi aktların qəbul edilməsi üçün tədbirlər görülmüş, qısa müddətdə məhkəmə aparatları bərpa edilmişdir. Zəruri hüquqşünas kadrların hazırlanması və əhalinin hüquqi maarifləndirilməsi məqsədilə hüquq kurslarının təşkil edilməsi, hüquq ədəbiyyatı kitabxanasının yaradılması təxirəsalınmaz vəzifə hesab edilmişdir.

Nazirlər Şurasının qərarları ilə 1918-ci il oktyabr ayının 1-də Bakı Dairə Məhkəməsinin və onun tərkibində prokurorluğun fəaliyyəti bərpa edilmiş, Məhkəmə Palatasının təsis edilməsinin labüdlüyü nəzərə alınaraq noyabr ayının 14-də Azərbaycan Məhkəmə Palatasının Əsasnaməsi, noyabrın 22-də isə Ədliyyə Nazirliyinin Əsasnaməsi təsdiq edilmişdir.

Bilavasitə Ədliyyə Nazirliyinin təşəbbüsü ilə dövlətin əsaslarının möhkəmləndirilməsinə xidmət edən qanun layihələri hazırlanaraq parlamentin müzakirəsinə çıxarılmışdır. Nazirliyin parlamentə təqdim etdiyi mühüm qanun layihələrindən biri respublikanın yaranmasından keçən il yarım münasibətilə ümumi amnistiyanın elan edilməsi ilə bağlı olmuşdur. Həmin sənəddə deyilirdi: "Hüquqa və azadlığa, dövlət qaydalarına əsaslanan, Azərbaycan xalqının həyatında zülm, hakimiyyətsizlik və anarxiya dövrünə son qoyan respublikanın yaranmasından il yarımın keçdiyi günü qeyd etmək üçün və bütün vətəndaşlar üçün yeni həyata və respublikaya xidmətə bərabər yollar açılmasını tələb edən tarixi ədalət naminə 1918-ci il mayın 28-dək törədilmiş bütün cinayət əməllərinə görə ümumi amnistiya elan edilir".

Eyni zamanda, həbsxana işinin ədalət mühakiməsinin həyata keçirilməsində müstəsna əhəmiyyəti nəzərə alınaraq Cümhuriyyət Hökumətinin 1919-cu il 11 avqust tarixli Qərarı ilə Daxili İşlər Nazirliyinin tərkibində olan həbsxanalar Ədliyyə Nazirliyinin tabeliyinə verilmiş və bu sahədə iş təkmilləşdirilmişdir.

Ümumilikdə, Azərbaycan ədliyyəsinin şərəfli dövrü olan həmin illərdə şəraitin çətinliyinə, imkanların və kadrların məhdudluğuna baxmayaraq, ədliyyə naziri başda olmaqla nazirliyin işçiləri son günə qədər öz xidməti vəzifələrini vicdanla və ləyaqətlə icra etmiş, ölkənin ədliyyə sisteminin for-



Ədliyyə Nazirliyinin ilk binası




Ədliyyə Nazirliyinin ilk Əsasnaməsi, 22 noyabr 1918-ci il

malaşdırılması və inkişafı naminə xeyli iş görmüşlər.

Gənc cümhuriyyət hökumətinin mühüm xidmətlərindən biri də 1918-ci ilin mart-aprel aylarında erməni-bolşevik vandallarının azərbaycanlılara qarşı törətdikləri soyqırımı cinayətlərini araşdıraraq ona hüquqi qiymət vermək, dünyanı məlumatlandırmaq olmuşdur. Təsadüfi deyil ki, 31 mart tarixi iki dəfə - 1919-cu və 1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən ümummilli matəm günü kimi qeyd edilmişdir. Əslində bu, azərbaycanlılara qarşı yürüdülən soyqırımı və bir əsrdən artıq davam edən torpaqlarımızın işğalı proseslərinə tarixdə ilk dəfə siyasi qiymət vermək cəhdi idi. Lakin Azərbaycan Xalq Cümhuriyyətinin süqutu bu işin başa çatmasına imkan verməmişdir.

Fəaliyyəti dövründə Azərbaycan Xalq Cümhuriyyəti daim sülhsevər siyasət apararaq bütün dövlətlərlə qarşılıqlı əməkdaşlıq əlaqələri yaratmağa və bir-birinin hüquqlarına hörmət prinsipləri əsasında münasibətlər qurmağa cəhd göstərmişdi. Dünya birliyi tərəfindən tanınmış Xalq Cümhuriyyətinin fəaliyyəti sayəsində Azərbaycanın beynəlxalq hüququn subyekti olması 1920-ci ilin aprel ayındakı bolşevik işğalından sonra Azərbaycanın bir dövlət kimi dünyanın siyasi xəritəsindən silinməsinin qarşısını almışdı.

Ölkə Prezidenti cənab İlham Əliyevin "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında" Sərəncamında qeyd olunduğu kimi, "Azərbaycan Xalq Cümhuriyyəti təcavüzə məruz qaldığı üçün qarşıya qoyduğu məqsədlərə tam müvəffəq ola bilmədən süquta uğrasa da, onun şüurlarda bərqərar etdiyi müstəqillik ideyası unudulmadı. Azərbaycan xalqı ötən dövr ərzində milli dövlətçilik atributlarının bir çoxunu qoruyub saxlaya bildi. Ümummilli lider Heydər Əliyevin respublikada uğurla gerçəkləşdirdiyi siyasət xalqımızın tarixi-mədəni yaddaşını özünə qaytararaq milli mənlik şüurunu inkişaf etdirdi, azərbaycançılıq məfkurəsi işığında müstəqillik arzularının güclənməsi və yaxın gələcəkdə yenidən həqiqətə çevrilməsinə zəmin yaratdı".

Respublikamız SSRİ-nin tərkibində olduğu dövrdə də bir çox dövlətçilik atributlarını saxlaya bilmiş, iqtisadiyyatını, elmini və mədəniyyətini inkişaf etdirmiş, müstəqillik hissləri xalqımızı heç vaxt tərk etməmişdir. Ümummilli lider Heydər Əliyev xalqımızın dövlətçilik ənənələrinin yaşadılması və inkişafı istiqamətində çox böyük işlər görmüş, XX əsrin sonlarında itirilmiş müstəqilliyin yenidən bərpa olunmasında və qorunub möhkəmləndirilməsində misilsiz xidmətlər göstərmişdir.

Əsrin əvvəllərində Azərbaycan torpaqları hesabına Ermənistan adında dövlət yaradan ermənilər əsrin sonunda öz çirkin niyyətlərinə qayıtdılar. Lakin Heydər Əliyev amili, onun siyasi fəhmi, gücü və qüdrəti erməni millətçilərini belə təxribatlardan çəkindirirdi. Ulu Öndərin bütün vəzifələrdən uzaqlaşdırılmasından dərhal sonra erməni separatçıları Azərbaycana qarşı ərazi iddiaları irəli sürərək Dağlıq Qarabağ məsələsini qaldırdılar və torpaqlarımıza hərbi hücuma başladılar.

Azərbaycan xalqı 1990-cı il qanlı 20 yanvar faciəsini, 1992-ci ildə əsrin ən dəhşətli qətliamlarından olan Xocalı soyqırımını yaşadı.

Məhz belə bir şəraitdə, ölkəmizin müstəqilliyi və azadlığı uğrunda mübarizə aparan Azərbaycan xalqı


ВЫПИСКА

Prokurorluq orqanlarının fəaliyyətinin bərpa olunması barədə Qərar, 1 oktyabr 1918-ci il


ВЫПИСКА

Azərbaycan Məhkəmə Palatasının Əsasnaməsi barədə Qərar, 14 noyabr 1918-ci il


ВЫПИСКА

Həbsxanaların Ədliyyə Nazirliyinə verilməsi barədə Qərar, 11 avqust 1919-cu il

1991-ci ildə dövlət müstəqilliyini bərpa edə bilmişdir.

Lakin təəssüf ki, müstəqilliyin ilk illərində ölkənin məruz qaldığı hərbi təcavüz, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ağır nəticələri, habelə ölkə daxilində vətəndaş müharibəsinin, anarxiyanın hökm sürməsi təşviş içərisində olan Azərbaycan xalqının sabaha ümidini sarsıtmış, yenicə əldə etdiyi müstəqilliyi itirmək təhlükəsi qarşısında qoymuşdu.

1918-ci ildə yaranan Azərbaycan Xalq Cümhuriyyətinin ömrü iki il çəkdi, onun varisi kimi yaranan Azərbaycan Respublikasının ömrü isə daha qısa ola bilərdi.

Xalq Cümhuriyyətinin ənənələrinə sadiqlik nümayiş etdirən ümummilli lider Heydər Əliyev hələ sovet dövründə - 1990-cı ildə ilk dəfə Naxçıvanda Cümhuriyyətin üçrəngli bayrağını Muxtar Respublikanın dövlət bayrağı kimi qəbul etdi və bu, müstəqilliyə gedən yolun başlanğıcı oldu. Xalqın çağırışı ilə 1993-cü ildə respublikaya rəhbərliyə qayıdan ulu öndər Heydər Əliyev nadir və iti dövlətçilik zəkası, cəsarəti və sarsılmaz iradəsi ilə xalqımızı və dövlətimizi böyük təhlükələrdən xilas etdi, Xalq Cümhuriyyəti dövründə təməli qoyulmuş müstəqil Azərbaycan ideyasını gerçəkləşdirdi, müstəqilliyimizi dönməz və əbədi etdi.

Beləliklə, ümummilli lider Heydər Əliyevin misilsiz fəaliyyəti nəticəsində Azərbaycan milli dövlətçiliyi yenidən süquta uğramaq təhlükəsindən xilas oldu.

Müstəqilliyimizin Heydər Əliyev dövrü həm də ölkəmizdə ictimai-siyasi sabitliyin bərqərar olması, demokratik hüquqi dövlət quruculuğunun geniş vüsət alması, suveren Azərbaycanın əsas qanunu olan Konstitusiyanın qəbul edilməsi, ölkəmizin hərtərəfli köklü islahatlar aparılmaqla daimi yüksəliş yoluna çıxması və gələcək inkişaf strategiyasının müəyyən edilməsi ilə səciyyələnir.

Heydər Əliyev fəaliyyətinin bütün dövrlərində Azərbaycan Xalq Cümhuriyyətinin xidmətlərinə, onun ənənələrin yaşadılmasına daim yüksək önəm vermiş, Cümhuriyyətin fəaliyyəti barədə respublikada çoxsaylı elmi konfranslar təşkil olunmuş, arxiv materialları öyrənilərək Cümhuriyyət tarixinə dair dəyərli əsərlər nəşr edilmiş, əhali arasında onun müstəqil, demokratik dövlət quruculuğu ilə bağlı gördüyü işlər geniş təbliğ olunmuş, Cümhuriyyətə abidə ucadılmış, onun görkəmli siyasi və dövlət xadimlərinin xatirəsi əbədiləşdirilmişdir. Ulu öndərin təşəbbüsü ilə həmçinin Cümhuriyyətin 80 illiyi münasibətilə Milli Məclis tərəfindən amnistiya elan edilmişdir.

Ümummilli lider Heydər Əliyev 1998-ci ildə Cümhuriyyətin 80 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə nitqində deyirdi: "Azərbaycan Xalq Cümhuriyyətinin yaranması bizim vaxtilə itirilmiş dövlətçiliyimizi bərpa etdi... Xalqımızın tarixində ilk dəfə demokratik prinsiplər əsasında müstəqil Azərbaycan dövlətinin, hökumətinin yaranmasının əsasını qoydu. Biz bu gün iftixar hissi ilə deyə bilərik ki, bütün çətinliklərə baxmayaraq,



**Azərbaycan Xalq Cümhuriyyətinin 80 illiyinə həsr olunmuş tədbirdə ümummilli lider Heydər Əliyev çıxış edərkən, 1998-ci il**

Azərbaycan Xalq Cümhuriyyəti yaşamış, fəaliyyət göstərmiş və iki il müddətində çox böyük işlər görmüş, Azərbaycanın müstəqil gələcəyinin əsasını qoymuşdur".

Xüsusi qeyd olunmalıdır ki, 1918-ci ilin mart soyqırımı barədə əsl həqiqətlər yalnız ulu öndər Heydər Əliyev qətiyyəti sayəsində üzə çıxarılaraq öz siyasi-hüquqi qiymətini almışdır.

Məhz 1998-ci il martın 26-da ümummilli lider Heydər Əliyevin imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" Fərmanında həmin dəhşətli hadisələrə adekvat siyasi qiymət verilmiş və 31 mart "Azərbaycanlıların Soyqırımı Günü" elan edilmişdir.

Həmin Fərmanın imzalanmasından 20 il ötür. Bu müddət ərzində aparılmış araşdırmalar sayəsində çoxlu sayda yeni faktlar və sənədlər toplanmış, üzə çıxmış tarixi faktlar 1918-ci ilin mart-aprel aylarında və sonrakı dövrlərdə erməni millətçilərinin həyata keçirdikləri qanlı aksiyaların coğrafiyasının daha geniş və faciə qurbanlarının sayının qat-qat çox olduğunu sübut etmişdir.

Azərbaycan həqiqətlərinin dünyada yayılması istiqamətində görülən işlərin miqyası daha da artmışdır. Bu işdə Azərbaycan dövləti ilə yanaşı, Heydər Əliyev Fondu da çox mühüm və tarixi işlər görür. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Fond istər ölkədən kənarda, istərsə də respublikamızda bu istiqamətdə çox vacib layihələr reallaşdırır.

2007-ci ildə Qubada aşkar olunmuş kütləvi insan məzarlığı və dövlət başçısının tapşırığı ilə orada yaradılmış "Soyqırımı memorial kompleksi" ermənilərin qanlı izlərini, onların əsl simasını, vəhşiliklərini, cinayətkar əməllərini bütün dünyaya çatdırmaq, soyqırımı qurbanlarının xatirəsini əbədiləşdirmək baxımından çox böyük tarixi məna daşıyır.

Ölkə Prezidenti cənab İlham Əliyevin bu ilin yanvarında imzaladığı "1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi haqqında" Sərəncamı erməni-bolşevik silahlı dəstələrinin 100 il əvvəl azərbaycanlılara qarşı törətdikləri bəşəri cinayətlər barədə həqiqətlərin ölkə və dünya ictimaiyyətinə daha dolğun çatdırılmasında müstəsna əhəmiyyətə malikdir. Soyqırımının 100-cü ildönümü ilə bağlı minlərlə soydaşımız Qubada Soyqırımı Memorial Kompleksinə yürüş etmiş, respublika elmi konfransı keçirilmiş, foto və kitab sərgisi açılmış, digər tədbirlər təşkil olunmuşdur.

Beləliklə, Azərbaycan Xalq Cümhuriyyətinin axıra qədər həyata keçirə bilmədiyi işlər onun varisi kimi müstəqil Azərbaycan Respublikası tərəfindən davam etdirilmiş və ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə reallaşdırılmışdı. Ölkənin iqtisadiyyatı güclənmiş, qüdrətli ordu, demokratik dövlət təsisatları yaradılmış, qanunun aliliyi, insan hüquqları, siyasi plüralizm, söz və mətbuat azadlığı təmin edilmiş, müasir hüquq sistemi, üçpilləli məhkəmə hakimiyyəti bərqərar olunmuş, vətəndaş cəmiyyəti formalaşdırılmışdır.

Dövlətin hüquq siyasətini həyata keçirən əsas orqanlardan biri olan Ədliyyə Nazirliyi Ulu Öndərin rəhbərliyi ilə mütərəqqi islahatlar həyata keçirilməklə təkmil struktura çevrilmiş, cəmiyyətdə rolu və nüfuzu əhəmiyyətli dərəcədə yüksəlmişdir.

Ədliyyə işçilərində və hakimlərdə mənəvi stimul yaradılması məqsədilə ümummilli lider Heydər Əliyevin 2000-ci il 11 noyabr tarixli Sərəncamı ilə 22 noyabrın - 1918-ci ildə Azərbaycan Xalq

**2018-ci ilin Azərbaycan Respublikasında "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilməsi haqqında**

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI**



1918-ci il mayın 28-də Azərbaycan xalqının həyatında misilsiz hadisə baş vermiş, Müsəlman Şərqində ilk parlamentli respublika olan Azərbaycan Xalq Cümhuriyyəti qurulmuşdur. Cəmi iki ilə yaxın yaşamış Azərbaycan Xalq Cümhuriyyəti zəngin dövlət quruculuğu təcrübəsi ilə milli dövlətçilik tarixində silinməz izlər qoymuş, xalqın qəlbində azadlıq və istiqlal duyğularını gücləndirməklə respublikanın gələcək müstəqilliyi üçün etibarlı zəmin hazırlamışdır.

2018-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100-cü ildönümü tamam olur. Bu əlamətdar hadisənin dövlət səviyyəsində layiqincə qeyd edilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında" 2017-ci il 16 may tarixli 2867 nömrəli Sərəncamına əsasən, Azərbaycan Respublikasının Nazirlər Kabinetinə müvafiq tədbirlər planının hazırlanıb həyata keçirilməsi tapşırılmışdır. Bu tədbirlərlə yanaşı, Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100-cü ildönümü ilə əlaqədar ölkədə və ölkə xaricində silsilə tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

2018-ci il Azərbaycan Respublikasında "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilsin.

**İlham ƏLİYEV**
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 10 yanvar 2018-ci il

Cümhuriyyəti Ədliyyə Nazirliyinin Əsasnaməsinin təsdiq edildiyi günün ədliyyə işçilərinin peşə bayramı günü kimi təsis olunması dahi rəhbərimizin Azərbaycan ədliyyəsinə xüsusi diqqət və qayğısının bariz təzahürü olmuşdur.

Xalq Cümhuriyyətinin varisi olaraq ümummilli lider Heydər Əliyev tərəfindən qurulan və möhkəmləndirilən müstəqil, demokratik Azərbaycan Respublikası bu gün möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə müasir inkişaf dövrünü yaşayır, ötən 15 ildə Ulu Öndərin dövlətçilik ideyaları uğurla həyata keçirilərək ictimai-siyasi həyatımızın bütün sahələrində yüksək nailiyyətlər qazanılmaqla müstəqilliyimizin 100 illiyinə dəyərli töhfələr verilir, müasir tariximizin yeni, şanlı səhifələri yazılır.

2018-ci ili "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edən möhtərəm Prezidentimiz İlham Əliyev Nazirlər Kabinetinin ötən ilin yekunlarına həsr olunmuş iclasında demişdir: "Bu il biz müstəqilliyimizin yüz illiyini qeyd edəcəyik. Yüz il bundan əvvəl müsəlman aləmində ilk dəfə olaraq demokratik respublika yaradılmışdır. Biz fəxr edirik ki, bu respublikanı Azərbaycan xalqı yaradıb və bir daha bütün dünyaya nümayiş etdirib ki, Azərbaycan xalqı böyük xalqdır, istedadlı xalqdır, azad xalqdır. Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması və iki il ərzində fəaliyyəti tarixi hadisə idi. Azərbaycan o ölkələrdəndir ki, hələ yüz il bundan əvvəl ən ülvi demokratik dəyərləri nəinki bəyan edib, öz praktiki fəaliyyətində onları təmin edib. Bugünkü Azərbaycan, müstəqil Azərbaycan Xalq Cümhuriyyətinin varisidir. Biz Azərbaycan Xalq Cümhuriyyətinin bütün demokratik ənənələrinə sadiqik və bu ənənələri yaşadırıq".

Bu ənənələri uğurla inkişaf etdirən dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə son 15 ildə ölkəmizin dünyada iqtisadi və maliyyə böhranlarının, təhlükələrin və təlatümlərin hökm sürməsinə baxmayaraq sabit və təhlükəsiz şəraitdə sosial-iqtisadi tərəqqisinin təmin edilməsi, iqtisadi rəqabətqabiliyyətliliyinə görə nüfuzlu beynəlxalq hesabatlarda yüksək pillələrdə qərarlaşması, nəhəng qlobal enerji və nəqliyyat layihələrinin bilavasitə təşəbbüskarı olmaqla gerçəkləşdirilməsi, dünyada nüfuzunun artması, 155 ölkənin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi, kosmik kluba daxil olması, respublikamızın ən mötəbər tədbirlərə, o cümlədən humanitar, siyasi, iqtisadi, mədəni forumlara, möhtəşəm idman yarışlarına uğurla ev sahibliyi etməsi müstəqilliyimizin bəhrəsidir.

Cümhuriyyətin 100 illiyi ərəfəsində, aprelin 11-də keçirilmiş ədalətli və şəffaf seçkilərdə möhtərəm

cənab Prezidentimizin böyük vətəndaş həmrəyliyi ilə inamlı qələbəsi ilə xalqımız növbəti illərdə də davamlı tərəqqiyə, sabitliyə etibarlı təminat əldə etmişdir.

Prezident İlham Əliyev "Mən həmişə Azərbaycan xalqının dəstəyini hiss etmişəm, bu dəstəyə arxalanmışam. Mənim fəaliyyətimdə Azərbaycan xalqının dəstəyi əsas rol oynayır. Həmişə çalışmışam ki, xalqa sədaqətlə, ləyaqətlə xidmət edim" söyləməklə yeganə düzgün yol olan Ulu Öndərin yolu ilə gedən ölkəmizin müstəqillik tarixinin bundan sonra da yeni, parlaq səhifələrinin yazılacağına əminliyini ifadə etmişdir.



**Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə ucaldılmış abidə**

Cümhuriyyətin yaranmasının 100 illiyinin geniş qeyd olunduğu bu günlərdə möhtərəm Prezidentimiz tərəfindən "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)" yubiley medalının təsis olunması müstəqillik tariximizə əvəzsiz töhfədir, Cümhuriyyət liderlərinin varislərinə, Azərbaycan Xalq Cümhuriyyəti irsinin tədqiqində və təbliğində, Azərbaycan Respublikasının dövlət müstəqilliyinin qorunub saxlanılmasında və inkişafında, ölkənin ictimai-siyasi həyatında xüsusi xidmətlərə görə verilən yüksək dəyərdir.

Ölkəmizdə, həmçinin cümhuriyyət dövrünün bir çox mühüm dövlət təsisatlarının, o cümlədən Azərbaycan ordusunun, Azərbaycan polisinin, Azərbaycan prokurorluğunun 100 illik yubileyləri qeyd olunur. Sevindirici haldır ki, Cümhuriyyətimizlə həmyaşıd olan Azərbaycan ədliyyəsinin də bu il noyabr ayının 22-də 100 illiyi tamam olur və bu ərəfədə ölkə Prezidenti tərəfindən "Azərbaycan ədliyyəsinin 100 illiyi (1918-2018)" yubiley medalının təsis olunması ədliyyə fəaliyyətinə göstərilən diqqət və qayğının əyani təzahürüdür.

Əlamətdar yubiley münasibətilə Ədliyyə Nazirliyi tərəfindən xüsusi tədbirlər planı təsdiq olunaraq silsilə tədbirlər keçirilir, nazirliyin tarix muzeyləri Xalq Cümhuriyyəti dövrünə, o cümlədən ədliyyə tarixinə dair yeni arxiv materialları ilə zənginləşdirilir, ədliyyə orqanlarında yığıncaqlar, dəyirmi masalar təşkil olunur.

Bu gün Ədliyyə Akademiyasında Cümhuriyyətin 100 illiyi münasibətilə "Müstəqil Azərbaycan Azərbaycan Xalq Cümhuriyyətinin varisidir" mövzusunda keçirilən elmi-praktiki konfrans xüsusilə qeyd olunmalıdır. Ədliyyə Nazirliyi rəhbərliyinin və məsul işçilərinin, elm-tədris müəssisələri, vətəndaş cəmiyyəti nümayəndələrinin, hüquqşünas alimlərin, tarixçilərin və KİV-lərin iştirakı ilə keçirilən tədbirdə məzmunlu və elmi təhlillərə əsaslanan məruzələrin dinlənilməsi, faydalı müzakirələrin aparılması cümhuriyyət tarixinin, dövlətçilik irsinin öyrənilməsi və aşılanması baxımından olduqca böyük əhəmiyyət kəsb edir.

Eyni zamanda, Ədliyyə Akademiyasının təlim proqramlarına xüsusi mövzular daxil edilərək tədris olunur, müxtəlif nəşrlər, xüsusilə ədliyyənin 100 illik tarixinə dair xüsusi kitab hazırlanır, hüquqi sahədə beynəlxalq əlaqələri əks etdirən xüsusi ekspozisiyalardan ibarət stendlər yaradılıb.

Yubiley tədbirlərinə böyük həvəslə hazırlaşan ədliyyə işçiləri dövlət başçısının ətrafında sıx birləşməklə ölkəmizin müasir inkişafına uyğun olaraq öz vəzifələrini hər zaman layiqincə yerinə yetirmək əzmindədirlər. Əminəm ki, ədliyyə işçiləri bundan sonra da böyük səy və yüksək məsuliyyət hissi ilə çalışacaq və yeni-yeni nailiyyətlərlə Azərbaycan ədliyyəsinin 100 illiyinə böyük töhfə verəcəklər.

# Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi münasibətilə ədliyyə orqanlarında tədbirlər keçirilib

## *Ədliyyə Akademiyasında elmi-praktiki konfrans*





**Ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında" Sərəncam imzalanaraq və bu əlamətdar hadisə münasibətilə 2018-ci il "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan olunaraq ölkədə və onun hüdudlarından kənarda silsilə tədbirlər keçirilir, müstəqillik tariximizə nəzər salınır, cümhuriyyətin dövlətçilik salnaməsində yeri və rolu işıqlandırılır.**

Mayın 25-də Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyasında "Müstəqil Azərbaycan Azərbaycan Xalq Cümhuriyyətinin varisidir" mövzusunda elmi-praktiki konfrans keçirilib.

Hüquqşünas alimlərin, tarixçilərin, elm və tədris müəssisələrinin, vətəndaş cəmiyyətinin və media nümayəndələrinin iştirakı ilə keçirilən konfransı ədliyyə nazirinin müavini Azər Cəfərov açaraq xalqımızın çoxəsrlik dövlətçilik tarixində Azərbaycan Xalq Cümhuriyyətinin rolundan və mühüm xidmətlərindən bəhs edib.

Bildirilib ki, Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyəti dövründə bir çox tarixi qərarlar qəbul olunub, dövlət atributları müəyyən edilib, ana dili dövlət dili elan olunub, vətəndaşlara bərabər hüquqlar, o cümlədən qadınlara seçki hüququ verilib, hüquq sistemi yaradılaraq Ədliyyə Nazirliyi təsis edilib, məhkəmə və istintaq orqanlarının, prokurorluğun fəaliyyəti bərpa olunub. Azərbaycanın müstəqil dövlət kimi tanınması, digər dövlətlərlə əlaqələrin qurulması Cümhuriyyətin böyük uğurlarından

















biri olduğu qeyd edilib.

Tədbirdə müstəqilliyini yenidən bərpa edən xalqımızın ümummilli lider Heydər Əliyevin xilaskarlıq missiyası ilə Xalq Cümhuriyyətinin varisi olan müasir Azərbaycan dövlətini qurduğu, Ulu Öndərin müəyyən etdiyi dövlətçilik amallarının möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilərək ölkəmizin son illər əldə etdiyi nailiyyətlərlə çağdaş tariximizin yeni zəngin səhifələrinin yazıldığı xüsusi vurğulanıb.

Konfransda, həmçinin Şərqdə ilk demokratik parlamentli respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin tarixinin ayrı-ayrı məqamları üzrə dolğun və elmi təhlillərə əsaslanan mövzularda çıxışlar edilib, xalqımızın istiqlal yolu və müstəqillik amallarının gerçəkləşməsi, cümhuriyyət ənənələrinin yaşadılması, indiki və gələcək nəsillərə aşılanması, iki illik fəaliyyəti dövründə demokratik dövlət quruculuğu, qanunvericilik, ədliyyə və digər mühüm sahələrdə xidmətləri, ictimai təşkilatların fəaliyyətinin hüquqi əsasları və digər məruzələr dinlənilib, faydalı müzakirələr aparılıb.

Yubiley ərəfəsində ədliyyə orqanlarında yığıncaqlar, dəyirmi masalar keçirilib, Akademiyada ixtisasartırma kurslarında xüsusi mövzular tədris edilib. Eyni zamanda, ədliyyə işçiləri və hakimlər tərəfindən mətbuatda çıxışlar edilib, gənc əməkdaşlar ölkədə fəaliyyət göstərən tarix muzeyləri ilə tanış olub, nazirliyin muzeyləri Xalq Cümhuriyyəti dövrünə, o cümlədən ədliyyə tarixinə dair yeni arxiv materialları ilə zənginləşdirilib. Hüquqi sahədə beynəlxalq əlaqələri əks etdirən xüsusi ekspozisiyalardan ibarət stendlər yaradılıb, kinozalda sənədli filmlər, eləcə də foto-slaydlar nümayiş etdirilib, nazirliyin mətbu nəşrlərində yubileyə həsr olunan materiallar dərc olunub.

## Elektron xidmətlərə dair ictimai təqdimat





**Azərbaycan Xalq Cümhuriyyətinin və Azərbaycan ədliyyəsinin 100 illik yubileyləri münasibətilə ədliyyə orqanlarında keçirilən silsilə tədbirlər çərçivəsində mayın 19-da Şəki şəhərində Ədliyyə Nazirliyi tərəfindən göstərilən elektron xidmətlərə və informasiya sistemlərinə dair ictimai təqdimat keçirilib.**

Tədbirdə nazirliyin aidiyyəti struktur qurumlarının məsul əməkdaşları, Şəki şəhər ictimaiyyəti, dövlət orqanları, qeyri-hökumət təşkilatları və kütləvi informasiya vasitələrinin nümayəndələri, eləcə də sahibkarlar iştirak ediblər.

Təqdimat zamanı ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə son illər informasiya-kommunikasiya texnologiyaları sahəsinin sürətli inkişafı barədə məlumat verilib, informasiya cəmiyyəti, açıq hökumətin təşkili, elektron hökumətlə bağlı çıxışlar edilib. Həmçinin, Ədliyyə Nazirliyində elektron xidmətlərin tətbiqi üzrə görülən işlərdən danışılıb, e-xidmətlərin əhalinin müraciət imkanlarının asanlaşdırılmasında, şəffaflığın, çevik idarəetmənin təmin olunmasında, korrupsiyaya qarşı mübarizədə mühüm rolundan bəhs edilib.

Qeyd olunub ki, nazirlik tərəfindən 27 növ elektron xidmətlər göstərilir. Onlardan yararlanmaq üçün Ədliyyə Nazirliyinin rəsmi internet saytına və ya "Elektron hökumət" portalına müraciət oluna bilər.

Sonra həmin elektron xidmətlərin əyani təqdimatla mahiyyəti və funksiyası barədə ətraflı məlumat verilib, ondan istifadə qaydası izah olunub.

Bildirilib ki, e-xidmətlər vasitəsilə ədliyyə orqanlarının iş rejimi, dislokasiyası, əlaqə vasitələri, qeyri-hökumət təşkilatları və vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı, notariat hərəkətlərinin aparıl-

ması qaydası, zəruri sənədlər və ödəmələr, məhkəmə qərarlarının icrası, eləcə də vətəndaşların fərdi identifikasiya nömrələri, vərəsəlik işlərinin açılıb-açılmaması, həmçinin mülki dövriyyə nəticəsində baş verən hüquqi hadisələrdən yaranan yeni hüquq və vəzifələr barədə məlumat əldə etmək mümkündür.

Eyni zamanda, uşaqlara ad seçilməsinə kömək məqsədilə Azərbaycan adları, onların mənşəyi və izahı, əhali arasında yayılma səviyyəsi, habelə sənədlərin qüvvədən düşməsi barədə informasiya almaq üçün geniş axtarış sisteminin imkanları tədbir iştirakçılarının diqqətinə çatdırılıb.

Çıxışlar zamanı, həmçinin mətbu nəşrlərin uçotu və qeyri-kommersiya hüquqi şəxslərin ləğvi barədə müraciət və sənədlərin qəbulunun elektron qaydada aparılması, ədliyyə orqanlarına qulluğa qəbulla bağlı elektron müraciətin edilməsi, borcun, icra ödənişi, icra hərəkətləri ilə bağlı xərclərin, vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı və notariat hərəkətlərinin rəsmiləşdirilməsi üçün tələb olunan ödənişlərin internet vasitəsilə həyata keçirilməsi, habelə vətəndaşların rahatlığı üçün məsul ədliyyə işçilərinin qəbuluna elektron qaydada birbaşa yazılmağın mümkünlüyü bildirilib.

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 9 iyun tarixli Fərmanına uyğun olaraq nazirliyin saytında "Elektron xidmət" bölməsi təkmilləşdirilib. Bununla yanaşı, ədliyyə orqanları tərəfindən hüquqi və fiziki şəxslərə göstərilən bütün xidmətlər barədə ətraflı məlumat əks olunan "Dövlət xidmətləri" bölməsi yaradılıb.

Məlumat verilib ki, nazirliyin elektron xidmətlərinə edilən müraciətlərin sayı ilbəil artaraq ötən il 4,6 milyonu ötüb.

Tədbirdə iştirakçılar, həmçinin Ədliyyə Akademiyasının Hüquq klinikasının fəaliyyəti, əhaliyə pulsuz hüquqi yardım göstərilməsi və s. məsələlərlə bağlı məlumatlandırılıb, onları maraqlandıran suallar cavablandırılıb.

## Gəncə regional ədliyyə idarəsində "açıq qapı" günü



**Azərbaycan Xalq Cümhuriyyətinin və Azərbaycan Ədliyyəsinin 100 illik yubileyinin qeyd edilməsi münasibəti ilə Gəncə regional ədliyyə idarəsində "açıq qapı" günləri keçirilib.**

Ədliyyə işinin müxtəlif istiqamətləri üzrə, ədliyyə orqanlarının fəaliyyəti ilə bağlı ictimai rəyin öyrənilməsi üzrə qəbul aparılaraq vətəndaşların müraciətləri dinlənilib, onları maraqlandıran məsələlərlə bağlı qanunvericiliyin tələbləri barədə ətraflı izahlar verilməklə qaldırılan məsələlər öyrənilib, bir qisminin həlli istiqamətində yerində tədbirlər görülüb, digərlərinin isə həlli nəzarətə götürülüb.

***

Gəncə regional ədliyyə idarəsinin təşkilatçılığı ilə Gəncə Apellyasiya, İnzibati-İqtisadi, Nizami və Kəpəz rayon həmçinin Naftalan şəhəri, Göygöl, Kəlbəcər, Daşkəsən, Goranboy, Xocalı, Samux rayon məhkəmələri, eləcə də Gəncə şəhəri qeydiyyat, notariat və icra şöbəsinin əməkdaşlarının iştirakı ilə yığıncaq keçirilib.

Tədbiri Gəncə Apellyasiya Məhkəməsinin sədri Tapdıq Mahmudov açaraq bildirib ki, Azərbaycanın bu gün dünya birliyində müstəqil dövlət kimi bərqərar olmasının, demokratik ənənələrin, insan hüquq və azadlıqlarının qorunmasının əsası Azərbaycan Xalq Cümhuriyyəti dövründə qoyulub, müsəlman Şərqində ilk parlament respublikası xalqımızın qədim dövlətçilik ənənələrini yaşadaraq, müasir dövrə xas dövlət təsisatlarının formalaşdırılmasına nail olub. 100 il əvvəl, mayın 28-də yaradılan Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın

tarixində mühüm bir hadisə idi. Çünki əsrlər boyu müstəqillik arzusu ilə yaşayan xalqımız, nəhayət ki, öz müstəqil dövlətinə sahib olmuşdu.

Gəncə regional ədliyyə idarəsinin rəisi Kəmaləddin Həsənov Ulu öndər Heydər Əliyevin Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasını xalqımız üçün tarixi hadisə adlandırdığını vurğulayıb, Cümhuriyyətin dövlətçilik tariximizdə yeri və rolundan bəhs edib.

Tədbirdə digər çıxış edənlər də Azərbaycan Xalq Cümhuriyyətinin tarixi, fəaliyyəti və mühüm xidmətləri barədə çıxışlar ediblər.

## *Dəyirmi masa*



**Yubiley tədbirləri çərçivəsində nazirlik tərəfindən Prezident yanında Dövlət İdarəçilik Akademiyasında Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr edilmiş "Azərbaycan Xalq Cümhuriyyətinin yaranma tarixi" mövzusunda dəyirmi masa keçirilib.**

Tədbirdə Akademiyanın professor, müəllim heyəti və tələbələr iştirak ediblər.

Ədliyyə Nazirliyinin nümayəndəsi Səadət İsmayılova tədbirdə Azərbaycan Xalq Cümhuriyyətinin tarixi, müxtəlif, o cümlədən hüquqi sahədə mühüm xidmətləri barədə məlumat verib.

Sonda "Azərbaycan dövlətçiliyinin tarixi" adlı qısametrajlı fim nümayiş etdirilib. Tələbələri maraqlandıran suallar cavablandırılıb, sual-cavabda fəal iştirak etmiş tələbələrə mükafatlar təqdim olunub.

## *Ahıllara və uşaqlara qayğı*





**Bayramla əlaqədar Ədliyyə Nazirliyinin əməkdaşları Bakının Bilgəh qəsəbəsindəki "Pensiya yaşına çatmış şəxslər üçün sosial xidmət müəssisəsi"ndə yaşayan və doğmalarının qayğısından kənarda qalmış yaşlılarla görüş keçirib, "Ümid yeri" uşaq sığınacağında yerləşdirilmiş valideyn himayəsindən məhrum olmuş uşaqları ziyarət ediblər.**

Tədbirlərdə Vətəndaşlıq vəziyyəti aktlarının reyestri xidmətinin rəisi Reyhanə Kərimova yubileyini qeyd etdiyimiz Azərbaycan Xalq Cümhuriyyətinin hüquqi, siyasi və mənəvi varisi olan Azərbaycan Respublikasının dinamik inkişafından, ümummilli lider Heydər Əliyevin yürütdüyü və İlham Əliyev tərəfindən uğurla davam etdirilən siyasətin bütünlüklə insan amilinə, onun firavan yaşayışına xidmət etməsindən, ölkəmizdə ahılların, uşaqların hərtərəfli dövlət qayğısı ilə təmin olunmasından söhbət açıb.

Sonra tədbirlər ədəbi-bədii proqramla davam edib, hədiyyələr təqdim olunub.

## Azyaşlı məhkumların şəhər gəzintisi

**Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə Penitensiar xidmətin Tərbiyə müəssisəsində nümunəvi davranışı ilə seçilən yetkinlik yaşına çatmayan məhkumların xidmət əməkdaşlarının müşayiətilə müəssisənin hüdudlarından kənarda mədəni-kütləvi tədbirlərdə iştirakı təşkil olunub.**




Yeniyetmələr ilk olaraq Fəxri Xiyabanda ümummilli lider Heydər Əliyevin, görkəmli oftalmoloq, akademik Zərifə xanım Əliyevanın məzarlarını və Şəhidlər Xiyabanını ziyarət ediblər.

Daha sonra tərbiyə olunanlar Milli Azərbaycan Tarixi muzeyində olub, burada nümayiş etdirilən Azərbaycanın qədim və orta əsrlər tarixinin müxtəlif eksponatları ilə tanış olublar.

Yeniyetmələr üçün Dənizkənarı Milli Parkda, ticarət və əyləncə mərkəzində gəzintiyə və nahara, əyləncə attraksionlarında dincəlməyə, Park Sinema kino zalında bədii filmə tamaşa etməyə şərait yaradılıb.

Tərbiyə müəssisəsinə qayıdan məhkumlar onlara yaradılmış bu imkana, məhkumlara göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

## Yeni infrastruktur istifadəyə verilib

**Yubiley münasibətilə Ədliyyə Nazirliyi Penitensiar xidmətinin keçirilən silsilə tədbirlər çərçivəsində Bakı İstintaq təcridxanasının qarşısında gözləmə otağının yeni binası inşa olunub.**

Burada saxlanılan həbs edilmiş şəxslər və məhkumlarla görüşə gələn və sovqat gətirən vətəndaşların rahatlığının təmin olunması məqsədilə lazımi şərait yaradılıb.

Yeni bina Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi ərəfəsində istifadəyə verilib.






# Ali Məhkəmənin növbəti Plenumu keçirilib



**Mayın 25-də Ramiz Rzayevin sədrliyi ilə Ali Məhkəmənin növbəti Plenumu keçirilib.**





Plenumda "Respublikanın birinci instansiya məhkəmələri tərəfindən 2017-ci ilin II yarımilliyində təqsirləndirilən şəxslər barəsində həbs qətimkan tədbirinin seçilməsi və həbsdə saxlama müddətlərinin uzadılması barədə təqdimatlara baxılarkən qanunvericiliyin tətbiqi təcrübəsinə dair" ümumiləşdirmənin nəticələri müzakirə edilib.

Ali Məhkəmənin sədri Plenum iclasını açaraq bildirib ki, insan hüquqlarının, o cümlədən cinayət məsuliyyətinə cəlb olunan və məhkum olunmuş şəxslərin hüquqlarının daha etibarlı təmin olunması dövlətimizin başçısının daim diqqət mərkəzindədir. Ölkə Prezidenti cənab İlham Əliyevin "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" 10 fevral 2017-ci il tarixli Sərəncamında ibtidai istintaq və məhkəmə icraatı zamanı böyük ictimai təhlükə törətməyən və az ağır, o cümlədən iqtisadi fəaliyyət sahəsində cinayətlərə görə həbs qətimkan tədbirinin geniş tətbiq olunması qeyd edilib. Eyni zamanda ibtidai istintaq orqanları və məhkəmələr tərəfindən prosessual məcburiyyət tədbirlərinin tətbiq edilməsi zamanı cinayət - prosessual qanunvericiliyinin tələblərinə ciddi əməl olunması, cəzanın və qətimkan tədbirinin məqsədlərinə şəxsi cəmiyyətdən təcrid etmədən nail olmaq üçün azadlıqdan məhrumetməyə alternativ cəzaların və qətimkan tədbirlərinin tətbiqinin genişləndirilməsi tövsiyə olunub.

Ali Məhkəmənin Plenumunun "Ədalət Mühakiməsinin həyata keçirilməsi zamanı "İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında" Avropa Konvensiyasının müddəalarının və İnsan hüquqları üzrə Avropa Məhkəməsinin presedentlərinin tətbiqi haqqında" 2006-cı il 30 mart tarixli, "Təqsirləndirilən şəxslər barəsində həbs qətimkan tədbirinin seçilməsi ilə bağlı təqdimatlara baxılarkən məhkəmələr tərəfindən qanunvericiliyin tətbiqi təcrübəsi haqqında" 2009-cu il 3 noyabr tarixli

qərarlarında və "2015-ci ildə respublikanın birinci instansiya məhkəmələrində "Təqsirləndirilən şəxslər barəsində həbs qətimkan tədbirinin seçilməsi və həbsdə saxlama müddətlərinin uzadılmasına dair təqdimatlara və həbs qətimkan tədbirinin alternativ qətimkan tədbirləri ilə əvəz edilməsinə dair vəsatətlərə baxılarkən qanunvericiliyin tətbiqi təcrübəsinin ümumiləşdirilməsinə dair 2017-ci il 7 aprel tarixli Plenumunda məhkəmələrə tövsiyə olunub ki, şəxsin məhkəməyə gəlməyə təminatların mövcud olduğu təqdirdə, onun azadlıqda qalmasına üstünlük verilməli, həbs qətimkan tədbirinə müstəsna tədbir kimi baxılmalı, məhkəmələr həbs qətimkan tədbiri seçərkən yalnız qanunda nəzərdə tutulan əsasları formal sadalamaqla kifayətlənməməli, hər bir əsasın konkret təqsirləndirilən şəxsə münasibətdə mövcudluğunun nədən ibarət olmasını və cinayət işinin materialları ilə onların təsdiq edilib-edilməməsini yoxlamalıdırlar.

Plenumda apellyasiya və birinci instansiya məhkəmələrinin sədrlərinin və hakimlərinin, istintaq qurumlarının rəhbərlərinin iştirakı ilə Ali Məhkəmə tərəfindən aparılmış ümumiləşdirmənin nəticələri geniş müzakirə olunub, təhlillər aparılıb. Müəyyən edilib ki, məhkəmələr tərəfindən həbs qətimkan tədbirinin seçilməsi, həbsdə saxlama müddətlərinin uzadılması barədə təqdimatlara və həbsin alternativ qətimkan tədbirləri ilə əvəz edilməsi haqqında vəsatətlərə əsasən qanunvericiliyin tələblərinə uyğun olaraq baxılır. Qeyd olunub ki, ötən müddətdə lüzumsuz həbslərin və həbsdə saxlama müddətlərinin uzadılması barədə təqdimatların sayı azalıb, əsaslandırılmış məhkəmə qərarlarının keyfiyyəti yaxşılaşıb. Eyni zamanda, məhkəmə təcrübəsində müəyyən nöqsanlara yol verilməsi halları da aşkar olunub.

Plenumda ədliyyə naziri, Məhkəmə Hüquq Şurasının sədri Fikrət Məmmədov müzakirə olunan məsələ ilə bağlı geniş çıxış edib.

Bildirilib ki, həbs qətimkan tədbirinin seçilməsi və həbs müddətinin uzadılması ilə bağlı Ali Məhkəmənin apardığı əhatəli təhlillər və müzakirələr bu sahədə işin dövlət başçısının tələbləri səviyyəsində qurulmasında xüsusi önəm kəsb edir.

Ölkə Prezidenti cənab İlham Əliyevin 2017-ci il 10 fevral tarixli Sərəncamının müstəsna əhəmiyyətinə toxunan nazir verilmiş tapşırıq və tövsiyələrin icrası nəticəsində ötən ilin sonunda cinayət qanunvericiliyinə presedenti olmayan, əsaslı dəyişikliklərin edildiyini, həbs qətimkan tədbirinin seçilməsi və onun müddətinin uzadılmasına dair təsirli nəzarət mexanizmlərinin yaradıldığını vurğulayıb, qanunvericiliyə dəyişiklikləri gözləmədən məhkəmə-istintaq və prokurorluq orqanları tərəfindən Sərəncamın dərhal icrasına başlanılması nəticəsində bu sahədə pozitiv dəyişikliklərin əldə olunduğunu bildirib.

Qeyd olunub ki, ötən 1 il ərzində istintaq təcridxanalarına daxil olan həbs edilmiş şəxslərin sayı 24% azalıb, həbsdən azad edilənlərin sayı isə 14% artıb. Həbs qətimkan tədbirinin seçilməsinə və həbsdə saxlama müddətinin uzadılmasına dair təqdimatların sayında da xeyli azalma müşahidə olunur.

Bununla belə bu sahədə hələ də nöqsanların olmasına diqqət çəkən nazir bütün qətimkan tədbirlərinin yarısından çoxunun həbslərin təşkil etməsinin və məhkəmələr tərəfindən həbslə bağlı təqdimatların əksəriyyətinin təmin olunmasının və bir çox həbslərin hələ də böyük ictimai təhlükə törətməyən və az ağır cinayətlərlə bağlı olmasının narahatlıq doğurduğunu vurğulayıb.

Həbsin bəzən ciddi zərurət olmadan seçildiyini söyləyən nazir həmçinin, tam sadə, bir epizoddan ibarət, sübutları bəlli olan cinayət işləri üzrə həbsin uzun müddətə seçilməsi və dəfələrlə uzadılması, istintaqın faktiki hərəkətsiz saxlanılmasına şərait yaradılması və nəticədə təqsirləndirilən şəxsin əbəs yerə uzun müddət cəmiyyətdən təcrid olunması hallarına rast gəlindiyini söyləyib.

Bildirilib ki, uzadılma ilə bağlı təqdimatların üçdə biri böyük ictimai təhlükə törətməyən və az ağır cinayətlərlə bağlıdır. Bu sahədə təsirli nəzarət mexanizminin yaradılması məqsədilə Baş Prokurorluqla birgə müvafiq Qanun layihəsi işlənib, ötən ilin sonunda o, qüvvəyə minib və yuxarı prokurorun, xüsusilə Baş Prokurorluğun bu məsələyə ciddi nəzarət imkanının olması cari ildə əsaslı dönüşə səbəb olacaqdır.

Eyni zamanda, əsassız həbslərin bəraət hökmlərinin çıxarılmasına təsirindən bəhs olunaraq çəkişmə prinsipinin real təmin olunmasının, bu sahədə əlavə ciddi tədbirlər görülməsinin zəruriliyi vurğulanıb.

Nazir həbs qətimkan tədbiri seçilərkən, onun

müddəti uzadılarkən hakimlərin yüksək məsuliyyət daşıdıqlarını, formal yanaşmanın yolverilməzliyini, insanların fundamental azadlıq hüququnun təmin olunmasına daim həssas münasibət bəslənilməsini diqqətə çatdırıb.

Bildirilib ki, dövlət başçısının tapşırığına uyğun olaraq həbsin müstəsna hallarda seçilməsinə diqqət artırılmalı, alternativ qətimkan tədbirlərinə daha çox üstünlük verilməlidir.

Nazir Plenumda aparılan müzakirələrin mövcud nöqsanların aradan qaldırılmasına, həbs qətimkan tədbirinin seçilməsi ilə bağlı məhkəmə təcrübəsində daha əsaslı müsbət dönüşün yaranmasına imkan verəcəyinə əminliyini bildirib.

İclasda Baş prokurorun birinci müavini Rüstəm Usubov da ümumiləşdirmənin nəticələrinin Ali Məhkəmənin Plenumunun iclasında müzakirəyə çıxarılmasının təqdirəlayiq hal olduğunu deyib. Vurğulayıb ki, bu, qanun pozuntularının qarşısının alınmasına, Konstitusiyada və beynəlxalq konvensiyalarda təsbit olunmuş azadlıq hüququnun daha etibarlı təminatına xidmət edir. Həbs qətimkan tədbirləri barədə aidiyyəti qurumlarla müzakirələr aparılıb, bu sahədə əməli tədbirlər həyata keçirilib və müsbət dəyişikliklər əldə edilib.

Həmçinin bir sıra məhkəmələrin sədrləri müzakirə edilən məsələlərlə bağlı çıxışlar ediblər.

Plenumda məhkəmələr tərəfindən qanunvericiliyin tətbiqində yol verilən səhvlərin aradan qaldırılması, qanunun eyni qaydada tətbiqinin təmin edilməsi, vahid məhkəmə təcrübəsinin yaradılması məqsədi ilə məhkəmələrə icmal məktubunun göndərilməsi qərara alınıb.

**Plenumdan sonra ədalət mühakiməsinin səmərəliliyinin artırılması, cəza siyasətinin humanistləşdirilməsi, təqsirsizlik prezumpsiyasının real təmin olunması ilə bağlı dövlət başçısının tövsiyələrindən irəli gələn vəzifələrin icrasına həsr olunmuş müşavirə keçirilib.**

Bütün apellyasiya və digər məhkəmə sədrlərinin iştirak etdiyi müşavirədə Ali Məhkəmənin sədri Ramiz Rzayev və ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri Fikrət Məmmədov çıxış edərək bildiriblər ki, ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə məhkəmə sistemində aparılan islahatlar bu sahədə işin müasir tələblər səviyyəsində qurulmasını, məhkəmələrə ictimai etimadın yüksəldilməsini şərtləndirir.

Bu baxımdan dövlət başçısının cəza siyasətinin humanistləşdirilməsinə dair 2017-ci il 10 fevral tarixli Sərəncamı məhkəmə, istintaq, prokurorluq və ədliyyə orqanları üçün mühüm yol xəritəsidir. Sərəncamın icrası ilə bağlı bir çox işlər həyata keçirilib, o cümlədən cinayət qanunvericiliyinə 300-ə yaxın mühüm dəyişikliklər edilib, həbs edilmiş şəxslərin sayı azalıb, azadlıqdan məhrumetməyə alternativ cəzaların səmərəli icrası məqsədilə Probasiya xidməti yaradılıb, azadlığın məhdudlaşdırılması yeni cəza növünün, elektron nəzarət vasitələrinin tətbiqinə başlanılıb.

Müşavirədə görülən işlərlə yanaşı, nöqsan və



çatışmazlıqlar diqqətə çatdırılaraq insanların azadlıq hüququnun qorunmasına qayğılı münasibətin göstərilməsi, məhkəmə qərarlarının ədalətliliyinin təmin edilməsi, məhkəmə fəaliyyətinə müdaxilənin yolverilməzliyi vurğulanıb.

Həmçinin, cinayət-prosessual qanunvericiliyə, çəkişmə prinsipinə və təqsirsizlik prezumpsiyasına ciddi əməl edilməsi, azadlıqdan məhrumetməyə alternativ cəzaların tətbiqinə daha çox üstünlük verilməsi qeyd olunub, vahid məhkəmə təcrübəsinin formalaşdırılmasında problemlərə, bəraət hökmlərinin sayının cüzi rəqəmlərlə xarakterizə olunması məsələsinə toxunulub.

Tədbirdə məhkəmə sədrləri dinlənilib, mövcud problemlərin həlli yolları təhlil olunub, məhkəmə nəzarətinin gücləndirilməsi, apellyasiya məhkəmələri tərəfindən prinsipiallığın artırılması ilə bağlı və digər tövsiyələr verilib.

# Ədliyyə naziri Salyanda vətəndaşları qəbul edib



**Ölkə Prezidenti cənab İlham Əliyevin dövlət qurumları tərəfindən insanlara layiqli xidmət göstərilməsi, vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması barədə tapşırıqlarına uyğun olaraq Ədliyyə Nazirliyi tərəfindən vətəndaşların bölgələrdə qəbuluna xüsusi diqqət yetirilir.**

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq mayın 16-da ədliyyə naziri Fikrət Məmmədov Salyan rayonu Heydər Əliyev Mərkəzində Salyan, Neftçala və Hacıqabul rayonlarından olan vətəndaşların qəbulunu keçirib.

Qəbuldan əvvəl nazir və Salyan Rayon İcra Hakimiyyətinin başçısı Sevindik Hətəmov Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edərək, önünə gül dəstələri qoyub, əziz xatirəsinə dərin ehtiramlarını bildiriblər.

Qəbul zamanı hər bir vətəndaş diqqətlə dinlənilib, müraciətlərdə qaldırılan məsələlərin bir qismi elə yerindəcə öz həllini tapıb, digər müraciətlər üzrə nazirliyin qəbulda iştirak edən aidiyyəti məsul işçilərinə müvafiq tapşırıqlar verilib.

Vətəndaşlar bölgə sakinlərinin qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını ifadə edərək, göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

Səfər zamanı ədliyyə naziri, həmçinin yerli ədliyyə və məhkəmə orqanlarının fəaliyyəti və iş şəraiti ilə tanış olub, ədliyyə işçiləri və hakimlərlə müşavirə keçirib.

Müşavirədə ölkə Prezidenti cənab İlham Əliyevin andiçmə mərasimində proqram xarakterli çıxışından irəli gələn vəzifələr diqqətə çatdırılıb, ədliyyə və məhkəmə fəaliyyətinin müasirləşməsi, qabaqcıl texnologiyaların tətbiqi, şəffaflığın, vətəndaş məmnunluğunun təmin olunması, korrupsiyaya şərait yaradan halların yolverilməzliyi qeyd olunub, ədalət mühakiməsinin səmərəliliyinin artırılması, cəza siyasətinin humanistləşdirilməsi ilə bağlı dövlət başçısının tapşırıqlarına uyğun olaraq məhkəmə qərarlarının icrası işinin yaxşılaşdırılması, probasiya xidmətinin fəaliyyətinin təşkili ilə bağlı və digər konkret göstərişlər və tövsiyələr verilib.

# Azərbaycan və Latviya arasında hüquqi əməkdaşlıq genişlənir

**Ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə aparılan mütərəqqi hüquqi islahatlar çərçivəsində beynəlxalq hüquqi əlaqələrin inkişafına böyük önəm verilərək xarici ölkələrin, o cümlədən Avropa İttifaqı dövlətlərinin Ədliyyə nazirlikləri ilə səmərəli əməkdaşlıq həyata keçirilir.**

Ötən il Azərbaycanın və Latviya ədliyyə nazirlərinin və yüksək səviyyəli nümayəndə heyətlərinin qarşılıqlı səfəri, iki ölkənin Ədliyyə nazirlikləri arasında əməkdaşlığa dair Anlaşma Memorandumunun imzalanması hüquqi sahədə qarşılıqlı fəaliyyətin dərinləşdirilməsinə böyük təkan verib.

Memorandumun implementasiyası çərçivəsində nümayəndə heyətlərinin mübadiləsi aparılır, birgə tədbirlər keçirilərək qarşılıqlı müsbət təcrübələr öyrənilir.



Latviya nümayəndə heyətinin ədliyyə naziri Fikrət Məmmədov ilə görüşü

Əməkdaşlığın davamı olaraq ölkəmizdə aparılan məhkəmə-hüquq islahatları ilə tanış olmaq, ədliyyə işçiləri və hakimlər üçün birgə təlimlərin keçirilməsi məqsədilə bu günlərdə Latviya Respublikası Ədliyyə Nazirliyinin məhkəmə məsələləri üzrə Dövlət Katibinin müavini İrena Kucina, Məhkəmə administrasiyasının direktoru Edvins Balşeviçs və layihə rəhbəri Anna Skrjabinanın daxil olduğu nümayəndə heyəti Azərbaycanda səfərdə olub.

Qonaqlar əvvəlcə Fəxri Xiyabanda ümummilli lider Heydər Əliyevin əziz xatirəsini yad edərək məzarı önünə gül dəstələri düzüblər. Həmçinin, Şəhidlər xiyabanında ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda həlak olmuş həmvətənlərimizin məzarlarını ziyarət ediblər.

Sonra respublikamızın ədliyyə naziri Fikrət Məmmədov Latviya nümayəndə heyəti ilə görüşüb.

Ölkələrimiz arasında dostluq və səmərəli əməkdaşlıq münasibətlərini qeyd edən nazir hüquqi sahədə əlaqələrimizin inkişaf etdiyini, ötən il



Ədliyyə Akademiyasında görüş və Akademiyanın əməkdaşları üçün təlim

edilmiş qarşılıqlı ikitərəfli səfərlərin, keçirilmiş məhsuldar görüşlərin və imzalanmış Anlaşma Memorandumunun ədliyyə orqanları arasında qarşılıqlı fəaliyyətə təkan verdiyini vurğulayıb, əməkdaşlığın dərinləşdirilməsi üçün geniş perspektivlərin olduğunu və hazırkı səfərin hər iki tərəf üçün faydalı olacağına əminliyini bildirib.

Azərbaycana səfərindən məmnunluğunu ifadə edən qonaqlar hüquqi sahədə əməkdaşlığın genişləndirilməsinin və təcrübə mübadiləsinin aparılmasının əhəmiyyətini qeyd edib, Latviya ədliyyə nazirinin salamlarını çatdırıblar.

Eyni zamanda nazirliyin aidiyyəti idarələrində görüşlər keçirilərək konkret sahələr üzrə əməkdaşlığın prioritetləri müzakirələr olunub.

Səfər zamanı Latviya nümayəndə heyəti Məhkəmə-Hüquq Şurasında olub, Şuranın və Hakimlərin Seçki Komitəsinin üzvləri ilə görüş keçirilib, Şuranın fəaliyyəti, məhkəmə hakimiyyətinin müstəqil özünüidarə modeli,



Məhkəmə-Hüquq Şurasının üzvləri ilə görüş

hakimlərin ən şəffaf seçim qaydası barədə faydalı fikir və təcrübə mübadiləsi aparılıb.

Səfər çərçivəsində, həmçinin nümayəndə heyətinin iştirakı ilə Ədliyyə Akademiyasında və Yasamal Rayon Məhkəməsində Ali, apellyasiya və birinci instansiya məhkəmələrinin 80-ə yaxın hakimləri və məhkəmə aparatı işçiləri üçün birgə təlimlər keçirilib, məhkəmə idarəetməsində ən yaxşı təcrübələr, məhkəmə qərarlarının keyfiyyətinin təmin edilməsi, hakimlərin fəaliyyətinin qiymətləndirilməsi, mübahisələrin alternativ həlli institutunun tətbiqi, iş yükünün azaldılması, məhkəmə fəaliyyətinin müasirləşdirilməsi və digər aktual mövzular üzrə diskussiyalar keçirilərək faydalı fikir və təcrübə mübadiləsi aparılıb. Azərbaycanın məhkəmə sistemindəki yeniliklərinə, o cümlədən "Elektron






**Bakı şəhəri Yasamal Rayon Məhkəməsində hakimlər və məhkəmə aparatı işçiləri üçün birgə təlim**

məhkəmə" informasiya sisteminin tətbiqinə maraq göstərilib.

Eyni zamanda, hakimlərin təlimçiləri və Ədliyyə Akademiyasının əməkdaşları üçün "Hakimlərin təlimi sahəsində Avropa standartları" mövzusunda treninq keçirilib, ədalət mühakiməsinin səmərəliliyinin artırılması, hakimliyə namizədlərin seçilməsi və hazırlanması prosesi ilə bağlı mövzular dinlənilib, Azərbaycanda hakimlərin seçiminin şəffaflığına, obyektivliyinə görə Avropada örnək kimi dəyərləndirilməsi təqdir olunub.

Qonaqlar ölkəmizdə aparılan məhkəmə-hüquq islahatlarına maraq göstərərək Yasamal Rayon Məhkəməsinin müasir binası və elektron məhkəmə sistemi, habelə Bakının mədəni-tarixi abidələri, o cümlədən Qobustan Milli Tarix-Bədii Qoruğu və "Atəşgah Məbədi" Dövlət Tarix-Memarlıq Qoruğu ilə tanış olublar.

# Rusiyalı notariuslar Azərbaycanın notariat sahəsindəki nailiyyətləri ilə tanış olublar

**Ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ədliyyə sisteminin müasirləşdirilməsi üzrə məqsədyönlü islahatlar aparılır, o cümlədən notariat institutu təkmilləşdirilir, vətəndaşlara, habelə sahibkarlıq subyektlərinə keyfiyyətli xidmətlərin göstərilməsi məqsədi ilə müasir informasiya və elektron sistemləri, müxtəlif növ elektron xidmətlər tətbiq olunur. Bu sahədə nailiyyətlərimizə beynəlxalq aləmdə maraq artaraq digər ölkələrin nümayəndələri tərəfindən Azərbaycanın müsbət təcrübəsi öyrənilir.**



Azərbaycan notariatında tətbiq olunan yenilikləri öyrənmək məqsədi ilə Rusiya Federasiyasının 40-a yaxın notariusu ölkəmizdə səfərdə olub, nümayəndə heyəti üçün Ədliyyə Nazirliyi tərəfindən "Azərbaycan nümunəsində notariatın inkişaf tendensiyaları" mövzusunda beynəlxalq seminar təşkil edilib.

Seminarda ölkəmizdə həyata keçirilən ədliyyə və məhkəmə islahatları, notariat institutunun biznes mühitinə müsbət təsiri, müasir notariatın tərkib hissəsi olan "Elektron notariat" informasiya sisteminin geniş imkanları barədə mühazirələr dinlənilib.

Həmçinin geniş diskussiyalar keçirilərək rusiyalı notariusları maraqlandıran mövzular ətrafında faydalı fikir mübadiləsi aparılıb.

Səfər zamanı Rusiya nümayəndə heyətinin bir qrup rəhbər üzvlərinin ədliyyə naziri Fikrət Məmmədov ilə görüşü olub.

Görüşdə ölkələrimizin hüquqi sahədə səmərəli əməkdaşlığı vurğulanıb, notariat qurumları arasında sıx qarşılıqlı fəaliyyətdən məmnunluq ifadə olu-

naraq hazırkı səfərin əlaqələrin genişləndirilməsində əhəmiyyəti qeyd edilib.

Qonaqlar səfər zamanı respublikamızın hərtərəfli tərəqqisinin şahidi olduqlarını vurğulayıb, Azərbaycanın notariat sahəsində nailiyyətlərini, o cümlədən elektron notariat sisteminin tətbiqini yüksək qiymətləndirib, bu sahədə ölkəmizin müsbət təcrübəsi, eləcə də məhkəmə-hüquq islahatları ilə tanışlıqdan heyranlıqlarını ifadə ediblər.

Səfər çərçivəsində nümayəndə heyəti notariat qurumlarının fəaliyyəti və müasir İKT-lərin tətbiqi, habelə paytaxtın mədəni-tarixi abidələri ilə yaxından tanış olublar. Ölkəmizin müxtəlif bölgələrinə səfər edən qonaqlar, həmçinin Şəki Məhkəmə Kompleksi, Qəbələ Rayon Məhkəməsinin yeni inşa olunmuş müasir binası və elektron məhkəmə sistemi, eləcə də ədliyyə orqanlarının da geniş xidmətlər göstərdiyi Azərbaycan brendi olan "ASAN xidmət" mərkəzlərinin innovativ fəaliyyəti ilə tanış olub, əldə olunan nailiyyətləri təqdir ediblər.

Səfərdən xoş təəssüratla ayrılan rusiyalı notariusların Azərbaycana səfərləri Rusiya mediasında geniş işıqlandırılıb, o cümlədən bu barədə xüsusi reportaj dərc olunub (**http://www.c-z-s.ru/news/reportazh-s-poezdki-v-azerbajdzhan-145**).

***

Həmin yazı oxucularımızın diqqətinə təqdim olunur.

# Репортаж с поездки в Азербайджан

**Всего две недели, как мы вернулись из Солнечного Азербайджана, а уже скучаем по этой гостеприимной стране!**




Нотариусы со всех уголков нашей необъятной страны собрались в Баку, чтобы встретиться со своими азербайджанскими коллегами. Хабаровск, Биробиджан, Иркутск, Красноярск, Томск, Омск, Барнаул, Кемерово, Екатеринбург, Пенза, Оренбург, Татарстан, Ростов-на-Дону, Санкт-Петербург, Москва. Вот уж действительно, "От Москвы до самых до окраин….".

Министерство Юстиции Азербайджана взяло над нами шефство с первых шагов по земле Республики, поэтому кроме плановых мероприятий были еще дополнительные визиты в Судебный Комплекс, в отдел регистрации Шекинского района, в районный суд Габалы, рабочие встречи в нотариальных конторах в Баку и Габале.

Семинар в Asan г. Баку провели представители Главного управления регистрации и нотариата Министерства юстиции Азербайджана.

Беседа на профессиональные темы состоялась во время ужина в Шеки, куда были приглашены нотариусы из Шеки, Габалы и Исмаиллы, а также представители Шекинского регионального управления юстиции.

Сегодня в Азербайджане применяется уникальная система электронного нотариата. Министерство Юстиции Азербайджана потратило много сил и средств на оцифровку и систематизацию данных о всех гражданах страны и теперь по номеру машины, по номеру паспорта, по фамилии и дате рождения любой нотариус Азербайджана может получить полную информацию о посетителе, включая фото, семейное положение, перечень наследников, перечень движимого и недвижимого имущества и т.д.

На протяжении всей поездки Министерство юстиции помогало и поддерживало нашу делегацию. Каждому нотариусу в номер доставили памятные подарки от Минюста. Женщинам - платочки из знаменитого




шекинского шелка, мужчинам - прекрасное азербайджанское вино.

Все были очень тронуты.

В заключительной части поездки нотариусы г. Санк-Петербурга Выщепан Т.Б. и Гасанова П.А. от лица нашей делегации дали интервью первому каналу телевидения Азербайджана. Татьяна Борисовна, в частности, сказала: "Мы все испытываем легкую, да нет, не легкую зависть, видя, какими информационными технологиями располагают наши азербайджанские коллеги. Это нотариат будущего, вне всякого сомнения…".

Хочется заметить, что первопроходцем и пионером по обмену опытом с азербайджанскими коллегами была Арчугова Татьяна Анатольевна, глава комиссии по этике ФНП РФ и руководитель комиссии по международным связям Нотариальной Палаты Санкт-Петербурга. Она еще в 2014 году собственными силами и энергией продвинула эту идею и воплотила ее в жизнь.

За неделю путешествия мы проследили историю освоения территории Азербайджана человеком от эпохи мезолита до современности. Одна из стоянок древнего человека была совсем рядом с Баку. Это удивительно, и еще более удивителен Баку - стоянка современного человека! По этому городу хочется гулять и гулять! Погода нам благоволила! И по пути мы успевали вкушать все местные блюда от черной икры до варенья из арбуза.

Самое яркое впечатление - визит в мастерскую босоногого художника Али в Старом городе и посещение Лагича - горной деревни на высоте 1800 метров, где живут потомственные ремесленники и рукодельники. И горы, горы, горы!

Очень понравились люди. Мужчины очень воспитанные. Скромные. Мне даже было стыдно за стереотипы в моей голове, что женщине одной в Баку делать нечего.

А женщины Азербайджана такие красивые и сильные духом, что хочется на них равняться.

Каждая новая страна, как закрытая дверь, к которой нужно подобрать свой особенный ключик, чтобы открыть для себя все ее тайные смыслы. А если ключик подобрать не выходит - просто постучите и хозяева страны радушно распахнут Вам на встречу и двери, и объятия. В Азербайджане, если ты гость - все самое лучшее для тебя!! Даже таксисты готовы отвезти тебя бесплатно в любую точку Баку, если ты от души восхитишься их миром и улыбнешься их солнцу.

Хочется от души поблагодарить хозяев за превосходную организацию рабочих встреч, заботу на протяжении всей поездки! Особенно хочется отметить работников министерства. Они проделали с нами долгий путь Баку-Шеки-Габала-Баку. За это время мы не только узнали от них много нового и полезного из сферы нотариата, но и привязались к ним душой и сердцем.

Надеюсь, что мы еще не раз встретимся!

**Дыкина Ольга, май 2018 г.**
**Азербайджан (Баку, Габала, Шеки, Нафталан)**



# BMT-nin İnsan Hüquqları Şurasının Universal Dövri İcmal mexanizmi çərçivəsində Azərbaycanın üçüncü milli məruzəsi dinlənilib




**BMT İnsan Hüquqları Şurasının Universal Dövri İcmal (UDİ) üzrə İşçi Qrupunun 30-cu sessiyası çərçivəsində Cenevrədə Azərbaycan Respublikasının milli məruzəsinə baxılıb.**

Dövlət başçısının 2018-ci il 7 may tarixli Sərəncamına uyğun olaraq ölkəmiz sessiyada yüksək səviyyədə nümayəndə heyəti ilə təmsil olunub. Tədbirdə nümayəndə heyətinin üzvü, ədliyyə nazirinin müavini Toğrul Musayev iştirak edib.

Sessiyada Azərbaycanın milli hesabatı təqdim olunub, ötən müddətdə insan hüquqlarının müdafiəsi üzrə həyata keçirilən tədbirlər barədə geniş məruzə dinlənilib, sonra interaktiv dialoq çərçivəsində dünyanın bütün regionlarını təmsil edən BMT-yə üzv 106 dövlətin nümayəndələri ölkəmizdə insan hüquqlarının vəziyyətinə dair münasibət bildiriblər. Konstruktiv və səmimi şəraitdə keçən müzakirələr zamanı iştirakçı dövlətlərin nümayəndələrinin sualları ətraflı məlumatlarla və şərhlərlə cavablandırılıb.

Nazir müavini Toğrul Musayev çıxış edərək insan hüquqlarının qorunmasına xidmət edən məhkəmə-hüquq islahatlarından, bu sahədə qanunvericiliyin təkmilləşdirilməsindən, müstəqil məhkəmə özünüidarə orqanlarının səmərəli fəaliyyətindən, Dünya Bankı ilə birgə əməkdaşlıqda məhkəmə infrastrukturunun müasirləşdirilməsindən və elektron məhkəmə sisteminin tətbiqindən, hakimlərin Avropada örnək kimi dəyərləndirilən ən şəffaf seçimindən bəhs edib. Bildirilib ki, bu sahədə islahatlar beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilir.

Eyni zamanda, vəkillik təsisatının islahatı, Vəkillər Kollegiyasının müstəqilliyinin təmin olunması, bu qurumun yeni nəsil hüquqşünaslarla komplektləşdirilməsi və vəkillərin sayının artırılması ilə bağlı görülən konkret işlər diqqətə çatdırılıb.

Ölkə Prezidenti cənab İlham Əliyevin penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsinə və cəza siyasətinin humanistləşdirilməsinə dair 2017-ci il 10

fevral tarixli Sərəncamının hüquqi sahədə islahatların yeni mərhələdə intensiv davamına təkan verdiyi vurğulanaraq bu mühüm sənədin icrası üzrə həyata keçirilən tədbirlərdən danışılıb, Probasiya xidmətinin yaradıldığı, elektron nəzarət vasitələrinin tətbiqinə başlanıldığı qeyd olunub.

Həmçinin, işgəncə və pis rəftara qarşı mübarizə və bununla bağlı dözümsüzlüyün nümayiş etdirilməsi, bu sahədə ixtisaslaşmış beynəlxalq təşkilatlarla səmərəli əməkdaşlığın həyata keçirilməsi barədə məlumat verilib.

Nazir müavini çıxışında vətəndaş cəmiyyətinin inkişafını, bu sahədə qanunvericilik və institusional islahatların aparılmasını qeyd edib.

Sessiyada Azərbaycanın milli məruzəsinin dolğun məzmuna malik olduğu və məruzə ətrafında məhsuldar müzakirələrin aparıldığı bildirilib, respublikamızda insan hüquqlarının təmin olunmasına dövlət səviyyəsində ciddi münasibət bəslənildiyi vurğulanıb, çıxış edənlərin böyük əksəriyyəti Azərbaycanda insan hüquqları sahəsində həyata keçirilən islahatları yüksək qiymətləndirib və bu təcrübənin davam etdirilməsini tövsiyə ediblər.

Ölkəmizin milli məruzəsi ilə bağlı aparılan müzakirələr demokratik hüquqi dövlət quruculuğu yolu ilə inkişaf edən Azərbaycanda dövlət başçısının rəhbərliyi ilə uğurla davam etdirilən mütərəqqi islahatlara bir daha beynəlxalq marağın artdığını göstərib.

# Ədliyyə Nazirliyində görüş





**Avropa Şurasının (AŞ) Bakı ofisinin təşkilatçılığı ilə "Vətəndaş cəmiyyəti dialoqu" layihəsi çərçivəsində keçirilmiş konfransda iştirak etmək üçün səfərdə olan AŞ-nin Demokratiya Baş Direktorluğunun demokratik idarəçilik departamentinin rəhbəri Daniel Popesku ilə ədliyyə nazirinin müavini Toğrul Musayevin görüşü keçirilib.**

Ölkəmizdə vətəndaş cəmiyyətinin inkişafı üzrə görülən tədbirlərdən danışan nazir müavini qeyri-hökumət təşkilatlarının fəaliyyəti üçün hər cür şəraitin yaradıldığını, bu sahədə qanunvericilik və institusional islahatların aparıldığını vurğulayıb, ötən həftə BMT-nin İnsan Hüquqları Şurasının Universal Dövri İcmal mexanizmi çərçivəsində Azərbaycanın milli məruzəsinin dinlənilməsi zamanı "Vətəndaş cəmiyyəti dialoqu" layihəsi barədə məlumat verildiyini bildirərək layihənin əhəmiyyətini qeyd edib.

Azərbaycana ilk səfərindən məmnunluğunu ifadə edən D.Popesku layihə ətrafında faydalı fikir mübadiləsi aparıb, onun icrasında Ədliyyə Nazirliyinin əsas tərəfdaş olduğunu vurğulayaraq layihənin uğurla həyata keçirilməsini qeyd edib və əməkdaşlığın bundan sonra da davam etdirilməsi ilə bağlı niyyətini bildirib.

Tədbirdə AŞ-nın Bakıdakı Ofisinin rəhbəri Zoltan Hernyes iştirak edib.

# Ədliyyə orqanlarına qulluğa qəbulla bağlı növbəti test imtahanı keçirilib



**Ədliyyə sistemində yüksək peşəkar kadr korpusunun formalaşdırılması barədə dövlət başçısının tapşırıqlarına müvafiq olaraq yeni nəsil ədliyyə işçilərinin qulluğa qəbulu məqsədilə zəruri tədbirlər görülür, davamlı açıq müsabiqələr keçirilir.**

Aparılmış seçimlər əsasında son illər böyük əksəriyyəti gənclər olan 2500-dən çox hazırlıqlı mütəxəssislər qulluğa qəbul olunub və onlar ədliyyənin müxtəlif sahələrində uğurla fəaliyyət göstərirlər.

Növbəti müsabiqə üzrə test imtahanı may ayının 26-da keçirilib.

Ədliyyə orqanlarına qulluğa qəbul üzrə Müsabiqə Komissiyası tərəfindən Dövlət İmtahan Mərkəzi ilə birlikdə Bakı İdman Zalında şəffaf şəraitdə keçirilmiş imtahanı aidiyyəti dövlət orqanlarının və qeyri-hökumət təşkilatlarının nümayəndələri izləyib, həmçinin tədbirin gedişi nazirliyin internet səhifəsi (www.justice.gov.az) vasitəsilə "on-line" rejimində birbaşa canlı yayımlanıb.

"Ədliyyə orqanlarına qulluğa qəbul olunmaq üçün namizədlərlə müsabiqənin və müsahibənin keçirilməsi Qaydaları"na əsasən test imtahanında namizədin hüquqi biliklərini, məntiqi nəticələr çıxarmaq qabiliyyətini və ümumi dünyagörüşünü müəyyən etmək üçün verilən test tapşırığı 100 sualdan ibarət olub.

441 namizədin iştirak etdiyi imtahanın nəticələrinə görə 226 nəfər müvəffəqiyyət qazanıb (siyahı nazirliyin və DİM-nin (www.dim.gov.az) internet səhifələrində yerləşdirilib).

Bildiririk ki, test imtahanında uğur qazanmış namizədlər müsabiqənin söhbət mərhələsində iştirak etmək üçün qanunvericilikdə nəzərdə tutulmuş sənədlərini 15 gün ərzində, saat 9-dan 18-dək Ədliyyə Nazirliyinin Kadrlar idarəsinə (Bakı şəhəri, İnşaatçılar prospekti 1) təqdim etməlidirlər. Kadr sənədlərinin siyahısını və müvafiq nümunələri nazirliyin internet səhifəsindən əldə etmək mümkündür.

Xatırladırıq ki, "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Qanunla müəyyən edilmiş bütün tələblərə cavab verən namizədlər növbəti mərhələyə buraxılacaq və onlarla fərdi qaydada söhbət aparılacaqdır. Söhbətin keçirilmə vaxtı və yeri barədə namizədlərə məlumat veriləcəkdir.

Əlavə informasiyanı Nazirliyin internet səhifəsindən, eləcə də (012) 538-01-62, (012) 537-05-90 nömrəli telefonlar vasitəsilə almaq olar.

# Gənclər Penitensiar Xidmətə qulluğa qəbul olunublar



**Mayın 4-də ədliyyə nazirinin müavini-Penitensiar xidmətin rəisi Ceyhun Həsənov Penitensiar xidmətin Baş idarəsində orta rəis heyətində yeni qulluğa başlamış 37 gənc əməkdaşı qəbul edib.**

Nazir müavini gənclərə Penitensiar xidmətdə qulluq keçmənin fəaliyyət istiqamətləri barədə məlumat verib, onlara çətin və şərəfli işlərində vətəndaş hüquq və azadlıqlarına hörmət, qanunçuluq, humanizm, qərəzsizlik prinsiplərinə dönmədən riayət etməyi tövsiyə edib.

Xidmət rəisi dövlət idarəçiliyinin mühüm sahələrindən biri olan ədliyyə orqanlarında vicdanla, dövlətə və xalqa sədaqətlə xidmət etməyi, ədliyyə işçisi adını daima uca tutmağı tapşıraraq, gələcək xidməti fəaliyyətlərində gənc əməkdaşlara uğurlar arzulayıb.

# Probasiya xidmətinin elektron monitorinq fəaliyyətinə dair təqdimat keçirilib



**Mayın 7-də Ədliyyə Nazirliyinin Probasiya xidmətində elektron monitorinq fəaliyyətinə dair ictimai təqdimat keçirilib.**

Tədbirdə nazirliyin rəhbərliyi və aidiyyəti məsul işçiləri, probasiya üzrə yerli qurumların rəhbər heyəti, ictimaiyyət və media nümayəndələri iştirak ediblər.

Ədliyyə nazirinin müavini Vilayət Zahirov təqdimatda çıxış edərək ulu öndər Heydər Əliyevin dövlət inkişafı kursunu uğurla həyata keçirən ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə respublikamızın hərtərəfli tərəqqisinə yönələn ardıcıl və məqsədyönlü tədbirlərin ədliyyə və məhkəmə sistemini də əhatə etdiyini vurğulayıb, dövlət başçısının cəza siyasətinin humanistləşdirilməsinə dair 10 fevral 2017-ci il tarixli Sərəncamının müstəsna əhəmiyyətini qeyd edib, azadlıqdan məhrumetməyə alternativ cəzaların icrasında probasiya xidmətinin mühüm rolunu vurğulayıb.

Probasiya xidmətinin rəisi Akşin Ziyadov bu mühüm Sərəncamın icrası üzrə görülən tədbirlər barədə məlumat verib, alternativ cəzaların icrasında





müasir informasiya-kommunikasiya texnologiyalarından istifadəni təmin etməklə elektron nəzarət vasitələrinin tətbiqinə başlanıldığını bildirib.

Qeyd olunub ki, bir sıra dövlətlərin təcrübəsi öyrənilməklə elektron nəzarət üsullarından ən geniş yayılan "elektron qolbaq" və mobil nəzarət qurğularının pilot qaydada sınaqları keçirilib və ölkəmiz üçün daha uyğun model seçilib, Probasiya xidmətində müasir avadanlıqlarla təchiz olunmuş Elektron monitorinq mərkəzi yaradılıb, cari ilin aprelində Nazirlər Kabineti tərəfindən elektron nəzarət vasitələrinin siyahısı və onların tətbiqi qaydaları təsdiq edilib.

Sonra Elektron monitorinq mərkəzi tərəfindən məhkumlar üzərində izləmə prosesi və elektron qolbaqlar əyani nümayiş etdirilib.

Məlumat verilib ki, elektron nəzarət vasitələri azadlığın məhdudlaşdırılması növündə cəzaya məhkum edilmiş şəxslərə, həmçinin məhkəmənin müəyyən etdiyi hallarda şərti məhkum edilmiş və ya cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş şəxslərə tətbiq edilir, bu vasitələr məhkumun üzərində daşınmaqla, onun coğrafi yerdəyişməsinin izlənməsinə, müvafiq məlumatlarin monitorinq mərkəzinə ötürülməsinə imkan yaradır.

Bu vasitələrin istifadəsi ilə aparılan bütün izləmə məlumatları isə Monitorinq mərkəzi tərəfindən qəbul edilir. Müvafiq texniki-proqram vasitələri ilə təchiz olunan Mərkəz məhkum edilmiş şəxslərlə operativ əlaqəni təmin edir və ilin bütün günləri 24 saat ərzində fasiləsiz fəaliyyət göstərir.

Tədbir zamanı iştirakçılar Probasiya xidmətinin elektron monitorinq fəaliyyəti ilə yaxından tanış olublar, bu zaman elektron nəzarət vasitəsi tətbiq olunmuş bir məhkumla müvafiq sistem vasitəsilə əlaqə yaradılmaqla, monitorinq mərkəzinin imkanları əyani nümayiş etdirilib.

Vətəndaş cəmiyyətinin nümayəndələri azadlıqdan məhrumetməyə alternativ cəzaların tətbiqinin genişləndirilməsinin insanların azadlıq hüququnun qorunmasına xidmət etdiyini vurğulayıb, belə bir tədbirin keçirilməsinin ictimai əhəmiyyətini qeyd ediblər.

**Probasiya xidmətinin elektron monitorinq fəaliyyətinə dair növbəti təqdimat Bakı şəhəri Apellyasiya Məhkəməsi və paytaxtın rayon məhkəmələri hakimlərinin iştirakı ilə keçirilib.**

Hakimlər Probasiya xidmətinin Elektron monitorinq mərkəzinin fəaliyyəti, elektron qolbağın imkanları ilə yaxından tanış olub, elektron nəzarət vasitəsi tətbiq olunmuş məhkumlarla müvafiq sistem vasitəsilə əlaqə yaradılmaqla, onların üzərində izləmə prosesi və nəzarət qurğuları əyani nümayiş etdirilib, elektron qolbaqların tətbiqi qaydaları barədə məlumat verilib.

Tədbirdə elektron qolbaqların praktikada ilkin tətbiqinə, bu zaman meydana çıxan çətinliklərin həllinə dair məsələlər müzakirə edilib, bu sahədə işin səmərəli qurulması, məhkəmələr tərəfindən məhkumlara elektron qolbaq tətbiq olunarkən müvafiq məhdudiyyətlərin müəyyən edilməsi ilə bağlı zəruri izahlar verilib, məhkəmə təcrübəsinin düzgün formalaşdırılması məqsədilə belə tədbirlərin mütəmadi keçirilməsinin vacibliyi vurğulanıb. Hakimlər elektron nəzarət qurğularının Azərbaycan istehsalı olmasını ölkənin uğurlu inkişafının təzahürü kimi dəyərləndiriblər.

Bu tədbirlərin silsilə xarakter daşımaqla digər rayon (şəhər) məhkəmə hakimləri üçün də keçirilməsi nəzərdə tutulur.

# Vərəmlə mübarizədə Azərbaycanın müsbət təcrübəsi öyrənilir






**Ölkə Prezidenti İlham Əliyevin penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi ilə bağlı tapşırıqlarına uyğun olaraq azadlıqdan məhrum edilmiş şəxslərin hüquqlarının etibarlı təminatı daim diqqətdə saxlanılır, cəza siyasəti humanistləşdirilir, məhkumların və təqsirləndirilən şəxslərin saxlanma şəraiti, tibbi və dərman təminatı yaxşılaşdırılır. Həmçinin penitensiar müəssisələrdə Beynəlxalq Qırmızı Xaç Komitəsi (BQXK) ilə sıx əməkdaşlıqda ümumbəşəri sosial bəla olan vərəmə qarşı effektiv mübarizə aparılaraq, bu sahədə müsbət təcrübəmiz digər dövlətlər üçün örnək kimi qəbul olunur.**

Azərbaycanın bu sahədə nailiyyətləri Ümumdünya Səhiyyə Təşkilatı (ÜST), Qlobal Fond, BQXK, "Vərəmi Dayandırmaq üzrə Tərəfdaşlıq" və digər beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilir, habelə BMT-nin İqtisadi və Sosial Şurasında məşvərətçi statusuna malik olan ABŞ-ın İslah Müəssisələri və Həbsxanalar Beynəlxalq Assosiasiyası tərəfindən Səhiyyə Mükafatına layiq bilinib.

Cəzaçəkmə müəssisələrində vərəmin müalicəsi üzrə göstəricilər Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) müəyyən etdiyi hədəfləri aşaraq dərmanlara həssas vərəmli məhkumların müalicəsi üzrə 92 faiz, müalicəyə çətin tabe olan vərəmə düçar olmuş xəstələrin müalicəsi üzrə isə 78 faiz müsbət nəticələrə nail olunub ki, bu da dünyada ən yüksək göstəricilərdəndir. Bunun nəticəsi olaraq, son beş ildə cəzaçəkmə müəssisələrində vərəmə yoluxma halları 2 dəfə, vərəmdən ölüm isə 1995-ci illə müqayisədə 105 dəfə azalıb.

Ölkəmizin praktiki olaraq dünyada ilk dəfə cəzaçəkmə müəssisələrində bu spesifik təcrübəsini yaymaq məqsədilə 2012-ci ildə İxtisaslaşdırılmış müalicə müəssisəsinin nəzdində Vərəm üzrə təlim mərkəzi yaradılıb. 2014-cü ildə ÜST Avropa Regional Bürosu tərəfindən ona "Həbsxanalarda vərəmə nəzarət və profilaktika üzrə ÜST ilə Əməkdaşlıq Mərkəzi" beynəlxalq statusu verilib və onun vərəmlə mübarizədə Azərbaycan təcrübəsinin digər dövlətlərə yayılmasında və öyrənilməsində səmərəli fəaliyyəti nəzərə alınaraq bu günlərdə beynəlxalq statusu ÜST Avropa Regional Bürosu tərəfindən növbəti dörd il müddətinə uzadılıb.

Mərkəz ölkəmizin penitensiar müəssisələrində işləyən istər tibbi, istərsə də qeyri-tibbi ixtisaslı əməkdaşların vərəm üzrə biliklərə yiyələnməsinə xidmət etməklə yanaşı, digər ölkələrin nümayəndələrinin hazırlığını da həyata keçirir. Ötən dövrdə Beynəlxalq təlim mərkəzində Qərbi Avropa, Asiya, Afrika və MDB dövlətlərinin Ədliyyə, Səhiyyə və Daxili İşlər nazirliklərini, penitensiar müəssisələrin tibb xidmətlərini, qeyri-hökumət və beynəlxalq təşkilatları təmsil edən nümayəndə heyətləri üçün 4 beynəlxalq treninq keçirilib, Azərbaycan təcrübəsini öyrənmək üçün Avropa Şurası, ÜST və BQXK-nın xətti ilə 8 tanışlıq



Belarus Elmi-praktiki və Farmakoloji nəzarət mərkəzlərinin, "Vərəmə dair infeksiyaya nəzarət üzrə Regional Mərkəz"in (Rusiya), "Sərhədsiz həkimlər" (Fransa), "Vərəmi Dayandırmaq üzrə Tərəfdaşlıq" təşkilatlarının ekspertlərinin iştirakı ilə xüsusi proqram üzrə sübutlara əsaslanan, müasir, beynəlxalq səviyyədə tövsiyə edilən prinsip və təlimatlara müvafiq mövzular tədris olunub.

Həmçinin Azərbaycanın penitensiar müəssisələrində vərəmə nəzarət üzrə görülən işlərlə əyani tanışlıq imkanı yaradılıb, məhkumlar arasında vərəmin aşkarlanması, innovativ texnologiyaların tətbiqi ilə laborator diaqnostikası və müalicəsi ilə bağlı bir sıra tədbirlər praktiki olaraq nümayiş etdirilib.

Kurs dövründə dinləyicilərə, eləcə də beynəlxalq təlimçilərə dərmanlara həssaslıq göstəricilərinə müvafiq olaraq müalicə rejimlərinin təyini, beynəlxalq standartlara uyğun innovativ laborator diaqnostika metodlarının geniş tətbiqi, məhbusların saxlanma rejiminin gözlənilməsi şərti ilə infeksiyaya nəzarət tədbirlərinə riayət olunması, azadlığa buraxılan xəstələrin müalicəsinin sonadək izlənilməsi və onlara sosial dəstək kimi Azərbaycanın unikal təcrübəsi təqdim olunub.

Səfər zamanı qonaqlar, həmçinin Bakının mədəni və tarixi abidələri ilə tanış olublar.

səfəri təşkil olunub. Ümumilikdə isə, son illər 17 dövlətdən 200-dən çox nümayəndə Bakıda səfərdə olub və müsbət təcrübəmizdən bəhrələniblər. Artıq bəzi ölkələrdə bizim təcrübəyə uyğun modellərin tətbiqinə başlanılıb.

Azərbaycanın vərəmlə mübarizədə son yeniliklərini əldə etmək və müsbət təcrübəmizi öyrənmək məqsədilə mayın 14-19-da altı dövlətin (Rusiya, Belarus, Qazaxıstan, El-Salvador, Şri-Lanka və Filippin) penitensiar müəssisələrdə vərəm əleyhinə xidmətlər göstərən həkimlərindən və rəhbər vəzifəli şəxslərindən ibarət nümayəndə heyəti ölkəmizdə səfərdə olub.

Nümayəndə heyəti üçün Beynəlxalq təlim mərkəzi tərəfindən "Yeni vərəməleyhi dərmanların və müalicə rejimlərinin tətbiqi dövründə Çoxsaylı / Geniş Dərmanlara Davamlı Vərəmin yüksək yükü olan ölkələrin həbsxanalarında vərəmə nəzarət tədbirlərinin təkmilləşdirilməsi" mövzusunda rus və ingilis dillərində beynəlxalq tədris kursu təşkil olunub.

6 gün davam edən kursda dinləyicilər üçün 30-dək yerli mühazirəçilər və dəvət olunmuş ÜST Baş Ofisinin (İsveçrə) və Avropa Regional Bürosunun (Danimarka), ÜST Vərəm / İİV üzrə Təlim Mərkəzinin (İtaliya), Beynəlxalq Qızıl Xaç Komitəsinin və GDF (Qlobal Dərman Təchizatı) təşkilatının (İsveçrə),



## ”İcra haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq **qərara alır:**

"İcra haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, N 3, maddə 114; 2003, N 6, maddə 277; 2004, N 8, maddə 598, N 11, maddə 901, N 12, maddə 973; 2007, N 1, maddə 3, N 6, maddə 562, N 11, maddə 1053; 2008, N 6, maddə 462, N 7, maddə 602; 2009, N 12, maddə 952; 2010, N 2, maddə 75, N 7, maddə 591; 2011, N 6, maddə 482, N 7, maddə 618; 2012, N 11, maddə 1052; 2013, N 6, maddə 613, N 7, maddə 787, N 12, maddə 1494; 2015, N 12, maddə 1434; 2016, N 12, maddə 2050; 2017, N 2, maddə 156, N 6, maddə 1056, N 8, maddə 1511; Azərbaycan Respublikasının 2017-ci il 12 dekabr tarixli 941-VQD nömrəli Qanunu) 61.5.1-ci və 61.5.2-ci maddələri aşağıdakı redaksiyada verilsin:

"61.5.1. torpaq sahəsi üzərində mülkiyyət, icarə və ya istifadə hüququnu təsdiq edən sənədin surəti;

61.5.2. tikintiyə icazənin surəti.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 3 aprel 2018-ci il*
*N 1062-VQD*

## Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsinə (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, N 10, maddə 762, N 12, maddə 973; 2010, N 7, maddə 587; 2011, N 6, maddə 485, N 7, maddə 593; 2012, N 5, maddə 410; 2013, N 1, maddə 16, N 11, maddə 1267; 2016, N 1, maddə 12; 2017, N 4, maddə 522, N 5, maddə 752, N 11, maddə 1976) aşağıdakı məzmunda 38.3-cü maddə əlavə edilsin:

"38.3. İnzibati aktla (inzibati aktın qəbul edilməsindən imtina ilə) bağlı şikayət "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 73.1-ci və ya 73.2-ci maddələrində nəzərdə tutulmuş müddətlərdə müvafiq icra hakimiyyəti orqanının yaratdığı quruma verildiyi halda bu Məcəllənin 38.1-ci və 38.2-ci maddələrində nəzərdə tutulmuş iddia müddətlərinin axımı aşağıdakı vaxtadək dayandırılır:

38.3.1. müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurumun şikayət üzrə qəbul etdiyi qərardan (verdiyi yazılı cavabdan) şikayət verilməsi üçün "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 73.1-ci və ya 73.2-ci maddələrində nəzərdə tutulmuş müddətlər bitənədək (müvafiq icra hakimiyyəti orqanının yaratdığı quruma şikayət verilmədiyi halda);

38.3.2. müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurumun qərarından (yazılı cavabından) müvafiq icra hakimiyyəti orqanının yaratdığı quruma şikayət verildiyi halda isə həmin qurumun şikayət üzrə qəbul etdiyi qərar (verdiyi yazılı cavabı) şikayətçiyə təqdim edilənədək.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 3 aprel 2018-ci il*
*N 1065-VQD*

## Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının Cinayət Məcəlləsini "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının 2017-ci il 30 iyun tarixli 765-VQ nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 4 (II kitab), maddə 251, N 5, maddə 323, N 12, maddə 835; 2001, N 1, maddə 24, N 7, maddə 455; 2002, N 1, maddə 9, N 5, maddələr 236, 248, 258, N 6, maddə 326, N 8, maddə 465; 2003, N 6, maddələr 276, 279, N 8, maddələr 424, 425, N 12 (I kitab), maddə 676; 2004, N 1, maddə 10, N 4, maddə 200, N 5, maddə 321, N 8, maddə 598, N 10, maddə 762, N 11, maddə 900; 2005, N 1, maddə 3, N 6, maddə 462, N 7, maddə 575, N 10, maddə 904, N 11, maddə 994; 2006, N 2, maddələr 71, 72, 75, N 5, maddə 390, N 12, maddələr 1008, 1020, 1028; 2007, N 2, maddə 68, N 5, maddə 398, N 6, maddələr 560, 562, 579, N 8, maddə 757, N 10, maddələr 937, 941, N 11, maddələr 1049, 1080, 1090, N 12, maddə 1221; 2008, N 6, maddələr 454, 461, N 7, maddə 602, N 10, maddə 884, N 12, maddələr 1047, 1049; 2009, N 5, maddə 315, N 7, maddə 517, N 12, maddə 953; 2010, N 2, maddə 70, N 3, maddələr 171, 178, N 4, maddələr 275, 276, N 7, maddə 591; 2011, N 4, maddə 253, N 5, maddə 472, N 7, maddələr 587, 601, 621, N 11, maddə 980, N 12, maddə 1093; 2012, N 2, maddə 45, N 3, maddələr 193, 196, N 7, maddələr 666, 669, 673, N 11, maddə 1068, N 12, maddə 1223; 2013, N 1, maddə 14, N 2, maddə 102, N 4, maddə 364, N 5, maddələr 459, 479, 481, N 6, maddələr 594, 600, N 11, maddələr 1264, 1286, 1312, N 12, maddə 1492; 2014, N 2, maddələr 89, 95, N 4, maddə 327, N 6, maddələr 618, 622; 2015, N 4, maddələr 339, 359, 368, N 5, maddələr 504, 508, 510, N 6, maddələr 678, 690, 692, N 11, maddələr 1253, 1268, 1289, 1298, N 12, maddələr 1437, 1445; 2016, N 4, maddələr 634, 636, 638, 653, N 5, maddə 845, N 6, maddələr 993, 1001, N 12, maddələr 1983, 1999, 2008, 2019, 2038, 2048; 2017, N 2, maddə 161, N 3, maddə 330, N 5, maddələr 694, 697, 700, 702, 733, N 7, maddələr 1268, 1271, 1293, N 12, (I kitab), maddə 2231; Azərbaycan Respublikasının 2017-ci il 6 mart tarixli 1037-VQD nömrəli Qanunu) 213-cü maddəsində aşağıdakı dəyişikliklər edilsin:

1. Adında "Vergi" sözü "Vergiləri, işsizlikdən sığorta və ya məcburi dövlət sosial sığorta haqlarını" sözləri ilə əvəz edilsin.

2. 213.1-ci maddəyə "vergiləri" sözündən sonra ", işsizlikdən sığorta" sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 24 aprel 2018-ci il*
*N 1074-VQD*

### ”İcra haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq, "İcra haqqında" Azərbaycan Respublikasının Qanununu "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının 2017-ci il 30 iyun tarixli 765-VQ nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

"İcra haqqında" Azərbaycan Respublikasının Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, N 3, maddə 114; 2003, N 6, maddə 277; 2004, N 8, maddə 598, N 11, maddə 901, N 12, maddə 973; 2007, N 1, maddə 3, N 6, maddə 562, N 11, maddə 1053; 2008, N 6, maddə 462, N 7, maddə 602; 2009, N 12, maddə 952; 2010, N 2, maddə 75, N 7, maddə 591; 2011, N 6, maddə 482, N 7, maddə 618; 2012, N 11, maddə 1052; 2013, N 6, maddə 613, N 7, maddə 787, N 12, maddə 1494; 2015, N 12, maddə 1434; 2016, N 12, maddə 2050; 2017, N 2, maddə 156, N 6, maddə 1056, N 8, maddə 1511) 67-ci maddəsinin adında və mətnində aşağıdakı dəyişikliklər edilsin:

1. ", habelə işsizliyə görə" sözləri çıxarılsın.

2. "müavinətlərə" sözündən sonra "və işsizlikdən sığorta ödənişinə" sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 24 aprel 2018-ci il*
*N 1080-VQD*

### Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişikliklər edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 8 (II kitab), maddə 585; 2001, N 7, maddə 455; 2002, N 1, maddə 9, N 5, maddə 233, N 8, maddə 463; 2003, N 6, maddə 276; 2004, N 5, maddə 321, N 7, maddə 505, N 8, maddə 598, N 10, maddə 761, N 11, maddə 890; 2005, N 1, maddə 4, N 4, maddə 278, N 6, maddə 462, N 8, maddə 686, N 10, maddə 874, N 12, maddə 1079; 2006, N 1, maddə 3, N 2, maddə 64, N 5, maddə 390, N 10, maddə 847, N 11, maddə 929, N 12, maddə 1032; 2007, N 2, maddələr 65, 68, N 6, maddə 560, N 7,

maddə 712, N 8, maddə 756, N 11, maddə 1049, N 12, maddə 1221; 2008, N 6, maddə 462, N 7, maddələr 606, 607, N 12, maddələr 1045, 1049; 2009, N 5, maddə 315, N 7, maddə 517, N 12, maddə 966; 2010, N 3, maddələr 171, 173, 178, N 7, maddə 593, N 12, maddə 1058; 2011, N 6, maddə 480, N 7, maddələr 589, 599; 2012, N 7, maddə 674, N 11, maddə 1062, N 12, maddə 1215; 2013, N 2, maddə 77, N 6, maddələr 616, 626, N 7, maddə 786, N 11, maddə 1265, N 12, maddə 1493; 2014, N 2, maddələr 90, 102, N 4, maddələr 328, 344, N 6, maddə 600, N 11, maddələr 1354, 1362; 2015, N 4, maddə 342, N 5, maddə 511, N 11, maddələr 1270, 1288; 2016, N 2 (II kitab), maddə 218, N 10, maddə 1607, N 12, maddələr 2020, 2031, 2034, 2039; 2017, N 5, maddə 751, N 12 (I kitab), maddələr 2232 və 2267) aşağıdakı dəyişikliklər edilsin:

1. 70.31-ci maddədə "mülki iddiaçının və ya mülki cavabdehin nümayəndə qismində dəvət etdiyi digər şəxs və ya zərər çəkmiş şəxsin qohumudur" sözləri "həmçinin zərər çəkmiş fiziki şəxsin, yaxud mülki iddiaçı və ya mülki cavabdeh olan fiziki şəxsin yaxın qohumu, habelə zərər çəkmiş hüquqi şəxsin, yaxud mülki iddiaçı və ya mülki cavabdeh olan hüquqi şəxsin qanunlarla, digər hüquqi aktlarla və ya hüquqi şəxsin təsis sənədləri ilə müəyyən edilmiş səlahiyyətli şəxsləri, yaxud müvafiq qaydada səlahiyyət verilmiş və əsas iş yeri həmin hüquqi şəxs olan işçiləridir" sözləri ilə əvəz edilsin.

2. 102.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

"102.2. Cinayət prosesində zərər çəkmiş şəxsin, mülki iddiaçının və ya mülki cavabdehin nümayəndəsi qismində aşağıdakı şəxslər iştirak edə bilərlər:

102.2.1. zərər çəkmiş şəxsin, mülki iddiaçının və ya mülki cavabdehin qanuni mənafeyini təmsil etmək üçün notariat qaydasında təsdiq edilmiş etibarnaməsi olan vəkil;

102.2.2. zərər çəkmiş fiziki şəxsin, yaxud mülki iddiaçı və ya mülki cavabdeh olan fiziki şəxsin qanuni mənafeyini təmsil etmək üçün notariat qaydasında təsdiq edilmiş etibarnaməsi olan yaxın qohumu;

102.2.3. zərər çəkmiş hüquqi şəxsin, yaxud mülki iddiaçı və ya mülki cavabdeh olan hüquqi şəxsin qanunlarla, digər hüquqi aktlarla və ya hüquqi şəxsin təsis sənədləri ilə müəyyən edilmiş səlahiyyətli şəxsləri, yaxud müvafiq qaydada səlahiyyət verilmiş və əsas iş yeri həmin hüquqi şəxs olan işçiləri.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 1 may 2018-ci il*
*N 1111-VQD*

## Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişikliklər edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 1, maddə 17, N 5, maddə 323; 2002, N 5, maddə 236; 2003, N 1, maddələr 23, 24, N 6, maddə 279; 2004, N 7, maddə 505, N 8, maddə 598, N 10, maddə 761; 2005, N 4, maddələr 277, 278; 2006, N 2, maddə 64, N 12, maddə 1006; 2007, N 1, maddələr 3, 4, N 2, maddə 68, N 5, maddə 439, N 6, maddə 560, N 7, maddə 712, N 8, maddə 756; 2008, N 6, maddə 462, N 7, maddə 602, N 12, maddə 1046; 2009, N 6, maddə 402; 2010, N 2, maddə 75, N 4, maddə 276; 2011, N 6, maddələr 471, 476, N 7, maddələr 583, 619, N 12, maddələr 1096, 1105; 2012, N 5, maddə 411, N 6, maddə 511; 2013, N 5, maddə 472, N 6, maddə 625, N 11, maddələr 1266, 1307; 2015, N 6, maddə 677, N 12, maddə 1435; 2016, N 5, maddə 836, N 6, maddə 1016, N 11, maddələr 1761, 1763, N 12, maddə 2047; 2017, N 2, maddə 155,

N 4, maddə 523, N 5, maddələr 706, 750, N 11, maddələr 1935, 1975) aşağıdakı dəyişikliklər edilsin:

1. 19-cu maddənin "Qeyd" hissəsinin birinci cümləsində ikinci halda "götürənin" sözü "götürülənin" sözü ilə, ikinci cümləsində ikinci halda "götürənlər" sözü "götürülənlər" sözü ilə əvəz edilsin.

2. 402-ci maddədə "rədd edilməsi," sözlərindən sonra "apellyasiyanın qeyri-mümkün hesab edilməsi, kassasiya şikayətinin qaytarılması," sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 1 may 2018-ci il*
*N 1113-VQD*

### Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində dəyişikliklər edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsini "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2017-ci il 20 oktyabr tarixli 816-VQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 8 (III kitab), maddə 586, N 12, maddə 835; 2001, N 7, maddə 455; 2002, N 1, maddə 9, N 5, maddələr 237, 240, 244, N 8, maddə 463; 2004, N 6, maddə 399; 2005, N 4, maddə 278; 2006, N 11, maddə 929; 2007, N 8, maddə 756, N 11, maddə 1049, N 12, maddələr 1197, 1218; 2008, N 6, maddə 462, N 7, maddələr 602, 607; 2010, N 3, maddə 171, N 4, maddə 275, N 7, maddə 591; 2011, N 2, maddələr 70, 71, N 6, maddə 473, N 7, maddə 600, N 12, maddə 1107; 2012, N 5, maddə 406, N 11, maddələr 1056, 1063; 2013, N 8, maddə 889; 2015, N 10, maddə 1107, N 11, maddə 1271; 2016, N 6, maddələr 981, 1000; 2017, N 6, maddə 1058, N 12 (I kitab), maddə 2268) aşağıdakı dəyişikliklər edilsin:

1. 26-cı maddəyə "islah işləri" sözlərindən sonra ", azadlığın məhdudlaşdırılması" sözləri əlavə edilsin.

2. 38.2-ci maddəyə "uyğun olaraq cəzanın" sözlərindən sonra "azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin.

3. 51.4-cü maddədə "qəsdən" sözü "qərəzli" sözü ilə əvəz edilsin, həmin maddəyə "hissəsinin" sözündən sonra "azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin.

4. 133-cü maddənin adında və mətnində "qazancından" sözü "aylıq pul təminatından" sözləri ilə əvəz edilsin.

5. 159.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"159.1. Hökmlə məhkumun xüsusi və ya hərbi rütbədən, fəxri addan, yaxud dövlət təltifindən məhrum edilməsi haqqında məsələ nəzərdə tutulduğu halda, məhkumun müvafiq icra hakimiyyəti orqanı tərəfindən verilmiş ali xüsusi və ya ali hərbi rütbədən, yaxud fəxri addan və ya dövlət təltifindən məhrum edilməsi məsələsinə baxılması üçün bu barədə təqdimat və məhkəmə hökmünün surəti müvafiq icra hakimiyyəti orqanına, digər dövlət orqanı tərəfindən verilmiş xüsusi və ya hərbi rütbədən, yaxud təltifdən məhrum edilməsi hallarında isə bu barədə məhkəmə hökmünün surəti icra olunması üçün həmin orqana göndərilir.".

6. 172-ci maddə üzrə:

6.1. adı aşağıdakı redaksiyada verilsin:

"Hamilə qadınlar və azyaşlı uşaqları olan şəxslər tərəfindən cəzanın çəkilməsinin təxirə salınması";

6.2. 172.1-ci maddədə "və azyaşlı uşaqları" sözləri "və ya on dörd yaşına qədər uşağı" sözləri ilə və hər iki halda "səkkiz" sözü "on dörd" sözləri ilə əvəz edilsin;

6.3. 172.2-ci (hər iki halda) maddədə, 172.3-cü

maddənin birinci cümləsində (hər iki halda), 172.4-cü maddənin birinci cümləsində (hər iki halda), 172.5-ci (hər iki halda), 172.6-cı (hər iki halda), 172.7-ci (hər iki halda) və 172.8-ci (hər iki halda) maddələrdə "səkkiz" sözü "on dörd" sözləri ilə əvəz edilsin.

7. 173-cü maddə üzrə:

7.1. adı aşağıdakı redaksiyada verilsin:

"Hamilə qadınların və azyaşlı uşaqları olan şəxslərin cəzanın çəkilməsinin təxirə salınması şərtlərinə riayət etməmələrinin nəticələri";

7.2. 173.1-ci (hər iki halda), 173.2-ci (hər iki halda) maddələrdə və 173.4-cü maddənin birinci cümləsində "səkkiz" sözü "on dörd" sözləri ilə əvəz edilsin.

8. 176.4-cü maddədə "səkkiz" sözü "on dörd" sözləri ilə əvəz edilsin.

9. 178.5-ci və 182.2-ci maddələrə "boyun qaçırdıqda" sözlərindən sonra ", o cümlədən elektron nəzarət vasitəsini gəzdirməkdən imtina etdikdə, onu zədələdikdə və ya digər üsulla yararsız vəziyyətə saldıqda, yaxud həmin vasitənin işlək vəziyyətdə saxlanılması üçün ona xidmət etmədikdə" sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 1 may 2018-ci il*
*N 1115-VQD*

## Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişikliklər edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsini "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2017-ci il 20 oktyabr tarixli 816-VQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 8 (II kitab), maddə 585; 2001, N 7, maddə 455; 2002, N 1, maddə 9, N 5, maddə 233, N 8, maddə 463; 2003, N 6, maddə 276; 2004, N 5, maddə 321, N 7, maddə 505, N 8, maddə 598, N 10, maddə 761, N 11, maddə 890; 2005, N 1, maddə 4, N 4, maddə 278, N 6, maddə 462, N 8, maddə 686, N 10, maddə 874, N 12, maddə 1079; 2006, N 1, maddə 3, N 2, maddə 64, N 5, maddə 390, N 10, maddə 847, N 11, maddə 929, N 12, maddə 1032; 2007, N 2, maddələr 65, 68, N 6, maddə 560, N 7, maddə 712, N 8, maddə 756, N 11, maddə 1049, N 12, maddə 1221; 2008, N 6, maddə 462, N 7, maddələr 606, 607, N 12, maddələr 1045, 1049; 2009, N 5, maddə 315, N 7, maddə 517, N 12, maddə 966; 2010, N 3, maddələr 171, 173, 178, N 7, maddə 593, N 12, maddə 1058; 2011, N 6, maddə 480, N 7, maddələr 589, 599; 2012, N 7, maddə 674, N 11, maddə 1062, N 12, maddə 1215; 2013, N 2, maddə 77, N 6, maddələr 616, 626, N 7, maddə 786, N 11, maddə 1265, N 12, maddə 1493; 2014, N 2, maddələr 90, 102, N 4, maddələr 328, 344, N 6, maddə 600, N 11, maddələr 1354, 1362; 2015, N 4, maddə 342, N 5, maddə 511, N 11, maddələr 1270, 1288; 2016, N 2 (II kitab), maddə 218, N 10, maddə 1607, N 12, maddələr 2020, 2031, 2034, 2039; 2017, N 5, maddə 751, N12 (I kitab), maddələr 2232, 2267) 510.1-ci maddəsində "azyaşlı" sözü "on dörd yaşına qədər" sözləri ilə, hər iki halda "səkkiz" sözü "on dörd" sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 1 may 2018-ci il*
*N 1116-VQD*